Bu bir xalq qəzetidi
ƏDALƏT

## 154 nəfərdə koronavirus aşkarlanıb, 139 nəfər sağalıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 154 yeni yoluxma faktı qeydə alınıb, 139 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan Adalet.az-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 36 732 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 34 116 nəfər müalicə olunaraq sağalıb, 538 nəfər vəfat edib, aktiv xəstə sayı 2 078 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 6 730, ötən müddət ərzində isə ümumilikdə 935 396 test aparılıb.

## Baş Prokurorluq Əli Həsənovun cinayət işinə cəlb olunması xəbərlərinə aydınlıq gətirdi



**KİVDF-dəki qanunsuzluqlar və jurnalistlərə mənzillərin paylanılması ilə bağlı başlanan cinayət işinə Prezident Administrasiyasının keçmiş şöbə müdiri Əli Həsənovun təqsirləndirilən şəxs kimi cəlb edilməsi haqda məlumat yayılıb. İddia olunub ki, Ə.Həsənovun Türkiyədə olduğu xəstəxana ilə əlaqə saxlanılıb və onun səhhətinin təyyarəyə minməsinə imkan verib-vermədiyi öyrənilib. Ə.Həsənova deyilib ki, yaxın müddət də geri dönməsə, haqqında beynəlxalq axtarış elan ediləcək və qolu qandallı Azərbaycana gətiriləcək.**

Baş Prokurorluğun Mətbuat Xidmətindən Adalet.az-a bildirilib ki, Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) vəzifəli şəxsləri tərəfindən yol verilən qanunsuz əməllərə görə Cinayət Məcəlləsinin 179.4-cü (külli miqdarda mənimsəmə), 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə), 308-1.2-ci (külli miqdarda dövlət büdcəsi vəsaitini təyinatı üzrə istifadə etməmə) və 308-2.4-cü (dövlət satınalmalarını qanunsuz keçirmə) maddələri ilə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanıb. Hazırda həmin cinayət işi üzrə qanunsuz halların tam, hərtərəfli yoxlanılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları istiqamətində intensiv və zəruri istintaq tədbirləri davam etdirilir.

## Müdafiə naziri Moskvaya gedir



**Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Müstəqil Dövlətlər Birliyi iştirakçı-dövlətləri və Şanxay Əməkdaşlığı Təşkilatı üzv-dövlətləri Müdafiə nazirlərinin sentyabrın 4-də keçiriləcək görüşündə iştirak etmək üçün sabah Moskva şəhərinə yola düşəcək.**

**Müdafiə Nazirliyindən Adalet.az-a verilən məlumata görə, səfər sentyabrın 6-dək davam edəcək.**

## GÖR NƏ GÜNLƏRƏ QALDIN, RAMİZ MEHDİYEV?!

**Deməli, akademik Ramiz Mehdiyev bir yaxını vasitəsilə Qurban Məmmədova müraciət edib ki, ona efir vaxtı versin və o bu vaxtdan istifadə edib xalqa müraciət edəcək. Qurban Məmmədov da razılaşıb. Amma sonradan nə fikirləşibsə, fikrindən vaz keçib.**

**Akademiyanın saytında hər gün yeni bir hikkəli yazı ilə çıxış edir. Belə getsə, bir youtube kanalı da açacaq.**

## Vasif Talıbovdan yeni təyinat



**Sara Əzimova Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvü təyin olunub.**

Adalet.az xəbər verir ki, bu barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sərəncam imzalayıb. Sərəncama əsasən, Sara Nurəddin qızı Əzimova 4 il müddətinə Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvü təyin olunub.

Qeyd edək ki, Sara Əzimova bundan əvvəlki 4 il müddətində də Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvü olub. 2015-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunub.

## TOŞ, TOŞ, AY ÇOXQOHUMLU BƏXTƏVƏR VƏ YA YUNANISTAN!



Abdal Qasım bəyin malikanəsinin yanından keçəndə eşşəyini çubuqla vurub deyir:

**- Toş,toş, a bəy, toş!**

Bu vaxt bəyin nökərləri tökülüb onu babat döyürlər. Abdal Qasım üst-başının tozunu çırpa-çırpa bu dəfə deyir:

**- Toş, toş, ay çoxqohumlu bəxtəvər, toş, toş!**

İndi Yunanıstan dişlərini qıcayaraq hər tərəfdən Türkiyəyə hücum edir. Hətta hərbi gəmiləri Türkiyənin sahil sularına daxil olur. Düzdür, layiqli cavabını da alır - həm sudan, həm də havadan. Fransa, İngiltərə, Almaniya, Misir hamısı Yunanıstana dəstək verir. Hətta Fransa yunanlara dəstək üçün özünün ən böyük təyyarədaşıyan gəmisini də göndərib Aralıq dənizinə. Qısası, çoxqohumlu bəxtəvərdi.

Bu bir xalq qəzetidi
www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev
Gündəlik hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 121 (5781) 3 sentyabr 2020-ci il
Qiyməti 30 qəpik

## ALİMPAŞA MƏMMƏDOVUN DİVARA DİRƏNMİŞ ŞƏKLİNİ GÖRMƏDİK



**Şəmkirin icra başçısı bir yas mərasimində yasa gələnləri divara dirəmişdi, dişinin dibindən çıxanları da dedi.**

İndi özü kef məclisi açır. Yazırlar ki, guya cərimə olunub. Amma cərimə olunanların divara dirənmiş şəkillərini mətbuatda yayırlar. Alimpaşa müəllimin divara dirənmiş şəklini görən oldumu?!

# Prezidentin fəaliyyəti yüksək qiymətləndirilir



Bax:səh-2

## Azərbaycanda reanimasiyada olan COVİD-19 xəstələrinin sayı açıqlandı




**Hazırda Azərbaycanda aktiv koronavirus xəstələrinin sayı 2078-dir.**

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyindən (TƏBİB) Adalet.az-a verilən məlumata görə, reanimasiyada olan xəstələrin sayı 136, süni tənəffüs cihazında olan xəstələrin sayı isə 14-dür.

Qeyd edək ki, Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 154 yeni yoluxma faktı qeydə alınıb, 139 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 36 732 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 34 116 nəfər müalicə olunaraq sağalıb, 538 nəfər vəfat edib, aktiv xəstə sayı 2 078 nəfərdir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 6 730, ötən müddət ərzində isə ümumilikdə 935 396 test aparılıb.

## HARDAN İŞIQ GƏLİR, ORA BARMAQ TIXAMAQ LAZIMDI

**Elə bil camaatın qəsdinə durublar. Səhər durub yeni bir qadağa gətirirlər.**

İnd idə taksi məsələsi. Sirr deyil ki, minlərlə adam taksi ilə ailəsinə çörək pulu qazanır. Çörək pulu ey, villa pulu yox, "Mersedes" pulu yox, təmtəraqlı toy pulu yox, adicə çörək pulu.

İndi də deyirlər ki, taksilər bir təşkilatdan idarə olunmalıdı. Yəni monopoliya, oliqarxlar üçün xaricdə villalar və sair və ilaxır.

Azərbaycanda Antiinhisar Komitəsi var. Bu komitənin fəaliyyətindən xəbəri olan var?! Guya bu komitə monopoliyalara qarşı mübarizə aparır.

Belə bazar iqtisadiyyatı olmur.

Görəsən, hökumət camaatı iqtidardan incik salmaq üçün daha nələr fikirləşir?



*Etibar Əliyev*

## Proses bu cür davam edə bilməz

***Qərbdə, Amerikada professorlar, yazıçılar memuaralar, avtobioqrafiyalar yazırlar, məktublaşırlar, bizdə isə bu kateqoriyadan olan adamlar bu janrları tanımırlar. Yaşlaşdıqca onlarda kin-kidurət sürətlə boy atmağa başlayır. Onların çoxunda özlərini tərifləmək, lovğalıq, vəzifələrə can atmaq hissləri güclənir.***

***Təbiət elmlərindən olan alimlərin məktəbləri, kitabları yoxdur. Riyaziyyatçı, kimyaçı, geoloq tanıyıram ki, şeir yazırlar. Elmdə plagiatçılıq rüsvayçılıq həddinə çatıb. Bütün sahələrdə yazılan dissertasiya mövzuları sanki bir-birinə bənzəyir. Bütün sahələrdə başqalarına Dissertasiya yazanlar ordusu formalaşıb. Yaşlı yazıçı və şairlərin ictimai rəyə təsiri yoxdur. Hökumətin tədbirlərində ara-sıra danışırlar. AMEA kimi bir quruma vaxtilə kuratorluq edən bir qoca indi bu qurumun rəhbəridir. Məişət söhbətləri səviyyəsində yazılar yazır. AMEA-nın saytında saymazyana çap etdirir. Qurumu intriqa məkanına çevirib...Qurumun Rəyasət Heyəti isə müşahidəçi rolunu oynayır. Görsənir ki, bu cür qurumda ciddi islahatlar aparmağın vaxtı çatıb. Elm və təhsil birləşməlidir. Postsovet məkanında Akademiya adlı qurumun qaldığı 2-3 ölkə arasında bizim də adımız var. Elmə heç bir aidiyyatı olmayan bir qoca AMEA-da elmi mühiti tamamilə korlayıb.***

***Proses bu cür davam edə bilməz. Elm və təhsili birləşdirmək mümkün deyilsə, bu qurumda ciddi struktur və kadr dəyişiklikləri aparmaq lazımdır. Şəhərin mərkəzində, nəhəng bir tarixi binada elmdən başqa nə işlə desən məşğul olurlar. Zənnimcə cəmiyyətin də struktur və kadr islahatlarına gözləntiləri çoxdur.***

## "Facebook" və "Twitter" Rusiya ilə əlaqəli hesabları blokladı




**"Facebook" və "Twitter" "koordinasiya edilən təsdiqlənməmiş hərəkətlər" səbəbindən Rusiya strukturları ilə əlaqəli bəzi hesabları silib və ya bloklayıb.**

Bu barədə sosial şəbəkələrin press-relizlərində bildirilir. "Facebook"un xəbərinə görə, Rusiya İnternet Tədqiqat Agentliyi ilə əlaqəli 13 hesab və iki səhifə sosial şəbəkədən silinib. Bu, həmin səhifələrin fəaliyyətinin Böyük Britaniya, ABŞ, Əlcəzair və Misirə yönləndirilməsi ilə bağlıdır: "Bu araşdırmanı FTB-nin (Federal Təhqiqat Bürosu) məlumatlarına əsasən başladıq. Daxili araşdırmamız "Facebook"dakı şəbəkənin bütün həcmini əhatə edir". "Twitter" isə öz növbəsində bu sosial şəbəkədə beş hesabın bloklandığını bildirib:

"Platformadakı manipulyasiyalara görə Rusiya dövlət qurumları ilə etibarlı şəkildə əlaqələndirə biləcəyimiz beş hesabın fəaliyyətini dayandırdıq".

## Oxucuların nəzərinə!

***Pandemiya ilə əlaqədar sərt karantin rejimi uzadıldığına görə qəzetimiz bu ay həftədə 3 dəfə - 2, 4, 6-cı günlər çap olunacaq. Buna görə oxucularımızdan üzr istəyirik.***

## *Müsavatın qərargahından oğurluq edənlər tutuldu*

*Bakının Binəqədi rayonu Ş.Məmmədova küçəsi 30/97 ünvanında "Müsavat" partiyasının yerləşdiyi binadan 2 ədəd kondisioner oğurlayan dəstə üzvləri saxlanılıblar. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən Adalet.az -a verilən məlumata görə, Bakı Şəhər Baş Polis İdarəsinin Cinayət Axtarışı İdarəsi, Binəqədi Rayon Polis İdarəsi və 5-ci Polis Bölməsi əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat nəticəsində qeyd edilən hadisəni törətməkdə şübhəli bilinən, hər biri əvvəllər məhkum olunmuş Zəngilan rayon sakinləri Toğrul Babayev, Məhəmməd Məmmədov və Qubadlı rayon sakini Elnur Əhmədov tutublar. Həmin şəxslərdən oğurluq yolla əldə etdikləri kondisionerlər aşkar edilərək maddi sübüt kimi götürülüb.*

*Faktla bağlı Binəqədi Rayon Polis İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.*

***Aqil ABBAS***
***aqilabbas@rambler.ru***

## RAMİZ MEHDİYEV, İNCİKLƏR VƏ İSİ MƏLİKZADƏ



**İsi Məlikzadənin "Quyu" povestində belə bir yer var. Allaha bir adam lazım olur, əlini atır yerdən birini götürür , qaldırır ki, baxsın axtardığıdı, yoxsa yox. Qaldırdıqca camaat da deyir, vay dədəm, vay, görün kimi hara qaldırırlar. Allah qaldırır, qaldırır , çatdırır özünə , üzünü çevirib baxır, görür axtardığı adam deyil, elə ordan çırpır yerə.**

**(Ardı 2-ci səhifədə)**

## AYNUR AZƏRİDƏN GÜNÜN STATUSU



**Müəllimin ailəsini dolandırması üçün sürücü işləməsi, etik davranış qaydalarının pozulması imiş...**

***(Yeni Təhsil Nazirimiz)***

**Müəllimə, ailəsini dolandırmaq üçün normal maaş verməyən Dövlətdir etik davranışları pozan !!!**

## GÜNÜN LƏTİFƏSİ

Bir kor kişinin çopur arvadı olur. Arvad elə hey özünü tərifləyir:

**- Ay kişi heyif ki, sənin gözlərin görmür. Görsəydi mənim necə gözəl olduğumu bilərdin.**

Bir gün arvad yenə özünü tərifləyəndə kişi dözməyib deyir:

**- Ay arvad, az özünü təriflə də, belə gözəl olsaydın səni kor kişiyə ərə verərdilərmi?**

## Dörd rayonda 17 subartezian quyusu qazılacaq



**Prezident İlham Əliyev sentyabrın 2-də "Ağsu, Şamaxı, Şabran və Yevlax rayonlarında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb.**

Adalet.az xəbər verir ki, Sərəncama əsasən, Ağsu, Şamaxı, Şabran və Yevlax rayonlarının əhalisi 42678 nəfər olan 16 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 17 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə Azərbaycanın rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədilə subartezian quyularının qazılması üçün göstərilmiş vəsaitin 1,19 milyon manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılıb.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin edəcək.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

## Prezidentin fəaliyyəti yüksək qiymətləndirilir

**Azərbaycan Prezidentinin fəaliyyətinin prioritet istiqamətlərindən birini ordu quruculuğu təşkil edir. Silahlı qüvvələrə xüsusi diqqətin ayrılmasını təbii ki, hər şeydən öncə ölkəmizin müharibə şəraitində olması şərtləndirir. Keçirilmiş sorğunun nəticələri aydın göstərdi ki, əhali ordu quruculuğu istiqamətində Prezidentin fəaliyyətini kifayət qədər yüksək qiymətləndirir.**

Bunu Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədr müavini Elşad Mirbəşiroğlu Azərbaycan Prezidentinin ilin ikinci rübündə - aprel, iyun ayları ərzindəki fəaliyyətinin əks olunduğu "İnam İndeksi" nəşrinin üçüncü buraxılışı və "Pandemiya ilə mübarizədə dövlətin anti-böhran siyasəti ictimai rəydə" mövzusunda ictimai rəy sorğusuna dair hesabatın ictimai təqdimatına həsr olunan brifinqdə deyib.

O qeyd edib ki, belə ki, rəyi soruşulanların 70,7 %-i, yəni mütləq çoxluğu ölkə prezidentinin ordu quruculuğu istiqamətindəki fəaliyyətinin çox səmərəli olduğunu düşünür: "24,6% respondent isə bu istiqamətdə dövlət başçısının fəaliyyətini əsasən səmərəli hesab edir. Əks mövqedən çıxış edən vətəndaşların faiz dərəcəsi 2,5-ə bərabərdir. Ordu quruculuğu istiqamətində səmərəli fəaliyyət ölkə Prezidentinə olan inam və etimadın artmasını şərtləndirən əsas amil rolunda çıxış edir. Belə ki, Prezidentə olan inam və etimadının artdığını bildirən 24,6% respondentin 82%-i ordu quruculuğu istiqamətində onun fəaliyyətini çox müsbət qiymətləndirir. Hətta, inam və etimadının azaldığını bildirən 2,6% respondentin 27,6%-i də ordu quruculuğu istiqamətindəki fəaliyyəti müsbət qiymətləndirir".

O davam edərək deyib ki, beynəlxalq və milli səviyyədə yeni çağırışlar, inkişaf hədəfləri dövlət idarəçiliyi sahəsində çevikliyin və səmərəliliyin artırılmasını zəruri edir. Bu istiqamətdə vacib həll yolu kimi kadr islahatları daim dövlət başçısının diqqət mərkəzindədir. Prezidentin həyata keçirdiyi kadr islahatları respondentlərin 53,9%-i tərəfindən çox səmərəli, 32%-i tərəfindən isə əsasən səmərəli kimi qiymətləndirilir. 6,5% respondent kadr islahatlarını səmərəli hesab etmir. Prezident tərəfindən həyata keçirilən kadr islahatları da ona olan inam və etimadın artmasında təsirli rol oynayıb. Belə ki, prezidentə olan inam və etibarının artdığını bildirən 24,6% respondentin 68,6%-i kadr islahatlarını yüksək qiymətləndirib. İnam və etimadının azaldığını bildirən 2,6% respondentin isə 8%-i kadr islahatlarını müsbət qiymətləndirib. Dövlət başçısının həyata keçirdiyi kadr islahatlarını çox səmərəli hesab edənlərin 81,2%-i onun korrupsiya ilə mübarizə sahəsindəki təşəbbüslərini də dəstəklədiyini bildirir. Kadr islahatlarını mənfi qiymətləndirənlərin də əhəmiyyətli hissəsi-74,3%-i korrupsiya hallarına yol verən vəzifəli şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsinin doğru olduğu qənaətindədir".

**E.Mirbəşiroğlu qeyd edib ki, ölkə Prezidentinin təhlükəsizlik və xarici siyasət sahələrində atdığı çevik strateji addımlar daim diqqəti cəlb edir. Hazırki mərhələdə Azərbaycan beynəlxalq münasibətlər sistemində kifayət qədər ciddi mövqelərə malik olmaqla, çoxistiqamətli səmərəli əməkdaşlıq sistemini qura bilmişdir. Sosial Tədqiqatlar Mərkəzi tərəfindən rəyi soruşulanların əksəriyyəti də bu qənaəti bölüşür. Belə ki, respondentlərin 54%-i təhlükəsizlik və xarici siyasət istiqamətində Prezidentin fəaliyyətini çox səmərəli, 28,9%-i əsasən səmərəli hesab edir. Əks mövqe bildirənlər isə rəyi soruşulanların 6,5%-ni təşkil edir. Sözügüdən istiqamətdə cavab verməkdə çətinlik çəkənlərin faiz dərəcəsində yüksəlmə müşahidə olunub. Belə ki, 10,7% respondent təhlükəsizlik və xarici siyasət istiqamətində fəaliyyətlə bağlı sualı cavablandırmaqda çətinlik çəkib.**

## MN: Suriyadan döyüşçülərin gətirilməsi xəbəri yalandır




**Azərbaycan Müdafiə Nazirliyi Rusiyanın "Nezavisimaya qazeta" nəşrinin 01.09.2020-ci il tarixli elektron versiyasında yayılan qərəzli yazıya münasibət bildirib.**

Adalet.az Müdafiə Nazirliyinə istinadən xəbər verir ki, Rusiyanın "Nezavisimaya qazeta" nəşri "Azərbaycandakı Suriyalı döyüşçülər Ermənistana qarşı blitskriqə hazırlaşır" adlı dərc etdiyi məqalədə oxuculara həqiqətə tam uğun olmayan məlumatı təqdim edib.

"Sanki "yalan nə qədər çox və eybəcər olarsa, o qədər inandırıcıdır" prinsipi ilə məqaləyə yanaşan yazı müəllifi Vladimir Muxin heç bir etibarlı mənbəyə istinad etmədən, əsaslı faktlar gətirmədən oxucuları çaş-baş salır. Məqalədə guya Naxçıvanda döyüş təyyarələri ilə gücləndirilmiş Türkiyənin hərbi bazasının olması, Azərbaycana 500 nəfərə yaxın türkmən əsilli Suriyalı döyüşçünün gətirilməsi barədə həqiqətə uyğun olmayan uydurmaları qəti surətdə rədd edirik. Məqalədə yer alan əsassız iddialar, xüsusilə də guya Azərbaycana Suriyadan döyüşçülərin gətirilməsi barədə xəbər açıq-aydın dezinformasiyadır və heç bir halda reallığı əks etdirmir. Məqalənin sifarişli olduğu aydın sezilir, yazılanlar düşünülmüş və böhtan xarakteri daşıyır.

Müdafiə Nazirliyi olaraq rəsmi surətdə bildiririk ki, Azərbaycan ərazisində nə hər hansı xarici ölkənin hərbi bazası, nə də heç bir digər qeyri-qanuni silahlı birləşmə yoxdur. Azərbaycan Ordusunun şəxsi heyətinin peşəkarlığı və döyüş təcrübəsi, silahlanmada olan hərbi texnika və döyüş vasitələri Ermənistan tərəfindən işğal edilmiş torpaqlarımızı azad edərək ölkəmizin ərazi bütövlüyünü bərpa etmək məqsədilə qarşıya qoyulan istənilən döyüş tapşırığını qısa zamanda yerinə yetirməyə kifayət edir. Bunu Azərbaycan Ordusu 2016-cı ilin aprel döyüşlərində, 2018-ci ildə Naxçıvan və 2020-ci ildə isə Tovuz istiqamətində həyata keçirilən əməliyyatlarda nümayiş etdirdi.

"Nezavisimaya qazeta"ya tövsiyə edirik ki, diqqəti Ermənistanda ictimai müzakirəyə çıxarılan "Müdafiə haqqında" qanuna əlavələr edilməsi məsələsinə yönəltsələr daha yaxşı olardı. Çünki bu qanun səfərbərlik ehtiyatları problemi ilə üzləşən Ermənistanı könüllülük əsasında silahlı dəstələrin formalaşdırılması sistemini yaratmağa məcbur etməklə 70 yaşadək olan ahıl insanları belə silahlandırımağa imkan verir. Qanun qüvvəyə mindikdən sonra Ermənistan könüllülük adı altında Yaxın Şərqin qaynar nöqtələrindən, xüsusilə Suriya və Livandan gətirilən muzdlu döyüşçülər və terrorçularla öz ordusunun komplektləşdirilməsi məsələsini qanuniləşdirmiş olacaq.

Bu cür dezinformasiyaların yayılmasında maraqlı olan rəsmi Yerevan regionda vəziyyətin yenidən gərginləşərək münaqişənin alovlanmasına və buraya daha çox tərəflərin cəlb olunmasına münbit şərait yaratmağa çalışır", - deyə MN-nin cavabında qeyd olunub.

## *Pərvin Kərimzadə: Paşinyanın Xankəndinə səfəri məkrli planın bir parçasıdır*

**İyulun 12-16-da işğalçı Ermənistanın Tovuz rayonu istiqamətində növbəti hərbi təxribatının, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinə əvvəlcədən planlaşdırılmış hücum cəhdi Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alındı.**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisi deputatı Pərvin Kərimzadə bildirib.

Millət vəkil qeyd edib ki, məkrli planını həyata keçirməkdən usanmayan işğalçı Ermənistanın hərbi-siyasi rəhbərliyi Tovuz təxribatının arxasınca, diversiya-kəşfiyyat qrupunu avqustun 23-də Azərbaycanın Goranboy rayonu istiqamətində təmas xəttinə göndərdi. Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinin təxribat törətmək planlarını pozdular. Üstəlik, döyüş zamanı əsgərlərimiz erməni diversiya-kəşfiyyat qrupunun komandiri, baş leytenant Qurgen Alaverdyanı əsir götürdülər. Ermənistan ordusunun Tovuz təxribatından sonra Goranboy istiqamətində diversiya-kəşfiyyat əməliyyatının məğlubiyyəti bir daha sübut etdi ki, Azərbaycan Ordusu məkrli düşmənə sarsıdıcı zərbələr endirməyə, onun bütün hərbi təxribatlarını dəf etməyə hər an hazırdır.

Digər tərəfdən də işğalçılıq siyasətini dayanmadan həyata keçirməyə çalışan Ermənistan hakimiyyəti "Müdafiə haqqında" qanuna əlavə və dəyişikliklər etməklə, "könüllü hərbi birləşmələr" adı altında orduya muzdluların cəlb olunması üçün hüquqi baza yaratmağa başladı. İşğalçı hakimiyyət Livanın Beyrut şəhərində baş vermiş dəhşətli partlayışı belə öz çirkin məqsədləri, çıxarları üçün istifadə etməyə hesablanan addımın davamı kimi "Repartasiya haqqında" yeni qanunun qəbuluna hazırlaşmaq xaricdə yaşayan ermənilərin, əslində isə terrorçuların, muzdluların ölkəyə gəlişini və Azərbaycanın işğal altında olan ərazilərində



məskunlaşdırılmasını asanlaşdırmaq niyyətindən irəli gəldi.

Beyrutdakı vəziyyətdən öz mənfur məqsədləri üçün istifadə edən Ermənistan Livandan olan etnik ermənilərin qanunsuz olaraq Azərbaycanın işğal edilmiş ərazilərində məskunlaşdırılması planını bəyan etdi. Bu yolla təcavüzkar Ermənistan Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlarında həyata keçirdiyi etnik təmizləmənin nəticələrinin möhkəmləndirilməsi niyyətini gizlətmədi. Avqustun 29-da Nikol Paşinyanın Azərbaycanın işğal olunmuş ərazilərinə səfəri, orada yaratdığı erməni hərbi birləşmələri ilə görüşü isə işğalçı hakimiyyətin sülhə hazır olmadığını, problemin danışıqlar masası arxasında həllinə maraq göstərmədiyini yenidən nümayiş etdirdi. Əslində ölkəmizin işğal olunmuş Xankəndi şəhərinə Ermənistanın hərbi-siyasi rəhbərinin səfəri təcavüzkar ölkənin münaqişənin sülh yolu ilə nizamlanmasına qarşı olmasını, işğalçılıq siyasətini davam etdirməsini təsdiq edən yeni mesaj oldu.

**İflasa uğradıqdan sonra yeni təxribatlara əl atan, yalandan və siyasi blefdən peşəkarlıqla istifadə edən Ermənistan hakimiyyəti artıq anlamalıdır ki, Azərbaycan xalqı işğal altındakı torpaqlarını tezliklə azad edəcək. Haqq, ədalət mübarizəsində məğlub tərəf Ermənistan olacaq.**

**Nicat**

## "Töhmət deyil, müəllimləri həvəsləndirmək lazım idi"

**Saatlı rayon Yeni Novruzlu kənd tam orta məktəbinin direktoru Elnur Rzayevin məzuniyyətdə avtobus sürücüsü kimi sosial şəbəkədə paylaşım etməsi müəyyən qədər gündəmə çevrildi. Onun bu addımı Təhsil naziri tərəfindən töhmət elan olunmasına səbəb oldu.**



Təhsil eksperti Kamran Əsədov adalet.az-a açıqlamasında bildirib ki, müəllimlərin əksəri dərsdən sonra əlavə işlə məşğul olur. Onların əmək haqqısı xərclərini ödəmədiyindən ikinci işdə çalışmağa məcburdular.

"Pandemiyanın ən çox təsir etdiyi sahələrdən biri də təhsildir. Nəzərə alaq ki, ölkədə 151 min müəllim var. Onların əksəri əlavə iş kimi kurslarda, özəl sektorda çalışırdı. Dərsdən sonra kimisi repetitor fəaliyyəti ilə, kimisi yaradıcı sahə ilə, kimisi kənd təsərrüfatı ilə ailəsini dolandırmağa çalışır.

Minimum əmək haqqı ilə müəllimlərin orta əmək haqqı arasında çox az fərq var ki, bu da onların kommunal və.s kimi xərclərinə ancaq bəs edir."

Ekspertin sözlərinə görə məktəb direktoruna töhmət olunması yanlış addımdır.

"Son vaxtlar regionlarımızın birində məktəb direktoru kimi çalışan Elnur Rzayev əvvəlcə prokurorluq tərəfindən təzyiqə məruz qaldı. Elnur Rzayev kifayət qədər yaxşı kadrdır, öz fəaliyyəti ilə təhsilimizə töhvə verir. Avqustun sonundasa avtobusda pozitiv dolu şəklini paylaşdı. Bu hərəkətinə görə Təhsil naziri tərəfindən töhmət aldı.

Deyilir ki, təhsil işçisinə yaraşmayan hərəkətdir. Halbuki, Təhsil naziri özü Real tv-yə müsahibəsində bildirmişdi ki, müəllimlər müasir dövrün tələblərinə uyğun peşəkarlaşmalıdır.

Onlardan biri də sosial şəbəkənin aktiv iştirakçısı olmaqdır. Həmin direktor da təhsil işçisinə yaraşmayan hərəkət etməyib, əksinə məzuniyyət vaxtı halal zəhmətlə pul qazanmaq barədə pozitiv paylaşım edib.

Vaxtını necə səmərəli keçirdiyini göstərib. Müəllimin etik-davranış qaydasını pozmasına görə töhmət elan olunub.

**Bu töhməti düzgün hesab etmirəm. Müəllimlərə stimul vermək lazımdır. Sosial şəbəkədə heç bir çağırış etmədən, belə paylaşıma görə töhmət doğru addım deyil. Elnur Rzayev bölgədə tanınan, hörmət olunan, təhsil üçün işlər görən müəllimdir. Bu töhmət müəllimlərə qarşı pis çağırışdır. Dərsdən sonra əlavə işlə məşğul olanlara qarşı pis addımdır. Halbuki qanunlarımızda da təhsil işçiləri üçün bu hüquqlar tanınır. Bu məsələdə Təhsil naziri humanist davranmalı idi. Töhmət deyil, dəstək olmaq lazımdır. Yeni nazir təyin olunan kimi məktəb direktorlarını işdən çıxarmaq, ardıyca belə töhmətin verilməsini yeni nazirçün yaxşı addım hesab etmirəm."**

**Emin Piri**

## Bu rus raketi Qərb tanklarının qəniminə çevriləcək

**Rusiyanın "Hermes" tank əleyhinə raket kompleksi Qərb tanklarının qəniminə çevriləcək.**



Amerikalı publisist Piter Suçiu "National İnterest" jurnalında belə bir iddia ilə çıxış edib.

"Hermes" o qədər güclüdür ki, ABŞ-ın "Javelin" tank əleyhinə raket kompleksi onunla müqayisədə çox köhnəlib.

**"Hermes"in güclü tərəflərinə gəldikdə, bu silah səsdən sürətli uzaqmənzilli raketləriylə düşmənin zirehli döyüş texnikasını asanlıqla məhv edə bilər. Bundan əlavə, "Hermes" 100 kilometrdən hədəfi vurmağa qadirdir", - müəllif bildirib.**

**MEHRİBAN**

*Aqil ABBAS*

## RAMİZ MEHDİYEV, İNCİKLƏR VƏ İSİ MƏLİKZADƏ

(əvvəli 1-ci səhifədə)

**İndi Ulu Öndər Heydər Əliyev Ramiz Mehdiyevi qaldırdı, qaldırdı, əsl üzünü görməyə vaxtı çatmadı. Sonra bu missiya düşdü Möhtərəm Prezident İlham Əliyevin üstünə. İlham Əliyev də onu qaldırdı, qaldırdı və nəhayət, çevirib üzünə baxdı, gördü onun axtardığı və istədiyi adam deyil, amma day yerə çırpmadı, göndərdi ölkənin ən strateji bir təşkilatı olan Milli Elmlər Akademiyasına prezident. Heydər Əliyev ordeni ilə təltif elədi, xoş sözlərlə yola saldı.**

**Bir maraqlı film var, Meksikanın milli azadlıq hərəkatı barədədi. Xalq ölkənin müstəqilliyini qazanmaq üçün ayağa qalxır. Ordu generalı xalqın tərəfinə keçir. Kəsəsi, ölkə müstəqilliyini əldə edir və generaldan tələb və xahiş edirlər ki, prezident olsun. General qəbul etmir, deyir:**

**- Mənə Meksikanın müstəqilliyi lazımdı, onu da gördüm. İndi yaşım keçib, nəvələrimlə oynamaq istəyirəm, qarğıdalı əkmək istəyirəm, inək sağmaq istəyirəm.**

**İndi Möhtərəm Prezident Ramiz Mehdiyevi nəvələriylə oynamağa da göndərə bilərdi, qarğıdalı əkməyə də, Akademiyanın əkin sahələri də çoxdu.**

**Göndərmədi, hörmətlə yola saldı.**

**Bəs, bu hörmətin qarşısında akademik neylədi?! İncikləri yığdı başına, gövdə göstərisi yapdı. Dəvədən tam düşmədiyinə görə, "höt-höt"ündən qalmadı və qalmır. Demək olar bir gündən bir Akademiyanın saytında hikkəylə hamıya meydan sulayır və aşağılamadığı ziyalı, jurnalist, millət vəkili qalmayıb. Möhtərəm Prezidentə çamur atmaqdan da çəkinmir.**

**Bir "Elm" qəzeti vardı, rəhmətlik Aydın Səlimzadə də redaktor idi. Zori Balayan "Ocaq" kitabında xalqımızı təhqir edib aşağılayanda, Dağlıq Qarabağda separatizmin ocağını qalayanda bizim mətbuat ermənilərə mədhiyyə oxuyurdu. Həmin vaxt İsa Qəmbər Zori Balayana çox savadlı və elmi əsaslara söykənən cavab yazdı, heç bir mətbuat çap eləmədi. Rəhmətlik Aydın Səlimzadə kəfənini boğazına dolayıb İsa Qəmbərin Zori Balayana cavabını "Elm" qəzetində çap elədi. Qəzet əldən-ələ gəzdi və qəzetin üzü çıxardılıb çoxaldıldı və demək olar ki, Azərbaycanın hər yerinə yayıldı. Və "Elm" qəzeti tarixə düşdü.**

**İndi də Akademiyanın bir saytı var və həmin sayt da Ramiz Mehdiyevin ixtiyarındadı. Və bu gün yəqin ki, ən çox giriş yapılan saytdı.**

**İsa Qəmbər "Elm" qəzetindən istifadə edib bu milləti qorudu və milli azadlıq hərəkatının öncüllərindən birinə çevrildi. Yəni İsa Qəmbəri İsa Qəmbər edən həmin məqalə oldu.**

**İndi isə Ramiz Mehdiyev də "Elm" qəzetini əvəz edən həmin saytdan istifadə edərək dövlətçiliyimizi, müstəqilliyimizi və Möhtərəm Prezidenti hədəf götürüb.**

**Başqa bir sayt olsaydı Rabitə Nazirliyi çoxdan həmin saytı məhv eləmişdi, ya da filtr qoymuşdu.**

**Əslində Rabitə Nazirliyi düz eləyir. Ramiz Mehdiyev hər məqalə ilə çıxışında özünün isti aşına bir az da su qatır və bataqlıqdakı adam kimi bir az da çamura batır.**

**"Nəsimi" filmində belə bir yer var. Əmir Teymur Şeyxə deyir:**

**- Göndərərəm səni Qarabağa, gedib orda mehtərlik edərsən.**

**Əslində bu biabırçılıqdan sonra Ramiz Mehdiyev istefa verməli idi. Nəinki istefa verdi, əksinə, iqtidarın üzərinə daha total hücuma keçib.**

**Özü istefa vermir, belə davam edərsə yəqin ki, Ramiz Mehdiyevi də göndərərlər qarğıdalı əkməyə.**

**Və çox qəribədir ki, hətta əlində geniş imkanları olan yuxarıda oturanlar deyəsən, Ramiz Mehdiyevə cavab verməkdən qorxurlar.**

## *Gömrük Komitəsində iri kuryer və poçt daşımaları şirkətləri ilə görüş keçirilib*



**Dövlət Gömrük Komitəsində iri kuryer və poçt daşımaları həyata keçirən şirkətlərin təmsilçiləri ilə görüş keçirilib. Görüşdə DGK Katibliyinin rəisi Anar Süleymanov, baş idarə rəisləri, aidiyyəti qurumların rəhbərləri iştirak edib.**

Komitədən Adalet.az=a verilən məlumata görə, katibliyinin rəisi Anar Süleymanov avqustun 21-də Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2013-cü il 14 oktyabr tarixli 305 nömrəli Qərarı ilə təsdiq edilmiş "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"na edilən dəyişikliklərlə bağlı ətraflı məlumat verib. A.Süleymanov bildirib ki, görüşün keçirilməsində əsas məqsəd sözügedən qərarda əksini tapan dəyişikliklərin bütün detallarını bu sahədə fəaliyyət göstərən şirkət nümayəndələrinin birbaşa diqqətinə çatdırmaq, onları narahat edən məqamlara aydınlıq gətirməkdir. Qeyd olunub ki, dəyişikliyin qəbulu fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən güzəştli və sadələşdirilmiş qaydada keçirilməsini təkmilləşdirəcək, kölgə iqtisadiyyatı ilə mübarizəyə və qaçaqmalçılığın qarşısının alınmasına xidmət edəcək, eləcə də büdcə daxilolmalarında da mühüm rol oynayacaq. Görüşün sonunda iri kuryer və poçt daşımaları həyata keçirən şirkətlərin təmsilçilərini maraqlandıran bütün suallar cavablandırılıb, sözügedən qərarla bağlı geniş müzakirələr aparılıb.



Rəşad Məcid

# Niyə susursunuz?

**Hakimiyyətdəki islahatçı, gənc komandanın yeni ideoloqları niyə susurlar?**

**AMEA-nın prezidenti Ramiz Mehdiyev artıq dördüncü dəfədir, öz məqalələriylə cəmiyyətə meydan oxuyur, ideoloji əzələ və güc nümayiş etdirir. Davranışlarından qəzəbli və incik adam təsiri bağışlayan akademik çoxillik siyasi təcrübəsindən, əlindəki elmi resurslardan bəhrələnib həm özünü təmizə çıxarmağa, zərərçəkmiş obrazı formalaşdırmağa, həm də intellektual üstünlüyünü nümayiş etdirməyə çalışır.**

**Düzdür, ictimaiyyət nümayəndələri, millət vəkilləri, siyasilər və jurnalistlər öz miqyaslarına və statuslarına uyğun müəyyən cavablar verirlər, münasibətlərini bildirirlər, amma akademikin nankorluqda suçlayaraq adlarını çəkdiyi və çəkmədiyi adamların cavabları kifayət etmir, axı. İstər son fikir bildirənlər- Aslan İsmayılov, Rauf Arifoğlu, Akif Aşırlı, istərsə də başqa ictimai fəallar bu məsələlərlə bağlı dərin və geniş bilgilərdən, gizli mətləblərdən tam agah olmadıqlarına görə, onların dedikləri neçə ilin " boz kardinalı"nın arqumentlərini əhatəli şəkildə cavablandırmaq baxımından yetərli və adekvat deyil.**

**Bir neçə gün əvvəl mən məsələyə bir cümləlik münasibət bildirmişdim:**

**"Bu proseslərdən və Siyavuş Novruzovun açıqlamasından sonra Ramiz Mehdiyevin yeganə düzgün qərarı ərizə yazıb Akademiya prezidentliyindən istefa verməsi olardı". Amma görünür, akademik "mübarizə"ni birmənalı olaraq davam etdirməkdə israrlıdır. Belədə isə onun arqumentlərinə daha bilgili və daha səlahiyyətli şəxslərin cavab verməlari zərurəti ortaya çıxır.**

# İNFORMASİYA MÜHARİBƏSİ

## (yaxud, erməni yalanları hardan qaynaqlanır)

**Qarabağ savaşı 30 ildir ki, Azərbaycan-Ermənistan münasibətlərini günbəgün gərginləsdirməkdə davam edir.**

Öz tarixi torpaqlarını geri qaytarmaq üçün mübarizə aparan Azərbaycan xalqı bu illər ərzində çox itgilərə məruz qalmışdır və ərazi bütövlüyünün bərpası üçün bütün imkanlardan istifadə etməyə çalışır. Lakin ölkəmizin heç bir çağrışına məhəl qoymayan ermənilər hər vasitə ilə çalışırlar ki, işğal etdikləri torpaqları geri qaytarmasınlar. Bunun üçün bütün mümkün vasitələrdən istifadə edən düşmən sərhədyanı bölgələrdə tez-tez təxribatlar törədir, bu iyrənc məqsədlərinə çata bilməyəndə, digər vasitələrdən istifadə etməyə calışırlar. Və bu gün hamıya məlumdur ki, Qarabağ savaşında ermənilər informasiya yalanlarından da maksimum yararlanmağa çalışırlar. Kütləvi İnformasiya Vasitələrində, elektron mediada, portallarında və Sosial şəbəkələrdə dünyaya bəyan etməyə çalışırlar ki, onlar öz müqəddəratları uğrunda mübarizəyə qalxıblar. Qarabağ müharibəsinin ilk illərində bu məqsədlərinə qismən də olsa nail olan ermənilər yavaş-yavaş öz mövqelərini itirməyə başladılar. Tarixi araşdırıcılarımız bir daha sübut etdilər ki, Qarabağ Azərbaycan torpaqlarıdır və yaxın vaxtlara kimi Qarabağda erməni yaşamamışdır. Bunu tarixi faktlarla sübuta yetirən tarixçi alimimiz, Akademik Ziya Bünyadov öz araşdırmalarında, eləcə də "Qırmızı terror" kitabında tam sübuta yetirmişdir Görkəmli alim Z.Bünyadov yazır ki, ermənilər 18-ci əsrin sonlarında ruslar tərəfindən Qarabağa köçürülmüşlər. Bu rus şovinizminin "uzaqgörənliyinin" bir hissəsi idi və dünya çapında Türkün artan nüfuzundan qorxaraq belə bir iyrənc plan həyata keçirmişdir. Bütün məqamlarda ermənilərdən maşa kimi istifadə edən ruslar riyakar ermənilləri bu torpaqlarda yerləşdirməklə öz imperiyalarının təhlükəsizliyinə zəmanət əldə etmişlər.

***Tarixi torpaqlarımız olan İrəvan xanlığını rusların yaxından köməkliyi sayəsində ələ keçirən ermənilər sovetlər dönəmində yenə rusların köməyi ilə Zəngəzuru, Göyçəni və sonuncu həmlədə Qarabağı işğal etdilər.***

Bu gün ermənilər dünyaya yalan informasiya yaymaqda bu tarixi faktların üstünü pərdələməyə çalışırlar və özlərini yazıq, fağır, məzlum bir millət kimi tanıtmağa çalışır. Əslində isə bu fağır millətin "məzlum xalq" olmaları, Azərbaycan xalqının başına açdıqları müsibətlər, Xocalı soyqırımının əsil həqiqətləri bir-bir üzə çıxır. Azərbaycan cəmiyyətini informasiya blokadasına almaq üçün ermənilərin hansı hiylələrə əl atdığını yaxşı bilən ölkə mediası artıq bütün dünyada erməni yalanlarını ifşa etməkdədir.

***Qarabağ məsələsinin sülh yolu ilə həllinə hər vasitə ilə mane olmağa çalışan ermənilərin riyakarlıqları artıq bütün dünya ölkələrinə bəllidir.***

Ona görə də Azərbaycan torpaqları hesabına özünə dövlət quran ermənilərin informasiya yalanlarına inanmırlar və artıq bu işğalçı dövlətin tezliklə torpaqlarımızın azad etmələrini tələb edirlər.

Son illər Azərbaycan Respublikasının prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin apardığı uğurlu xarici siyasəti nəticəsində Qarabağ probleminin həllində balans nisbəti də bizim xeyrimizə dəyişmişdir.Artıq bütün dünya əsil həqiqəti bilir və Qarabağ münaqişəsi ilə bağlı erməni elektron mediasında yayımlanan həqiqətə uyğun olmayan məlumatları qəbul etmir, əksinə, ən nüfuzlu qəzetlər ermənilərin belə yalanlarını dəfələrlə ifşa etmişlər.Əgər son vaxtlar Azərbaycanın Kütləvi İnformasiya Vasitələrini, eləcə də bu gün gündəmi zəbt etmiş Sosial şəbəkələrini izləsəniz görərsiniz ki, hər bir yazar bu işdə öz vətəndaş mövqeyini ortaya qoyaraq, ermənilərin sərsəm sayıqlamalarını tarixi faktlarla ifşa edir, onların Azərbaycan torpaqlarına gəlmə olduqlarını və ümumiyyətlə bir dövlət kimi bərqərar olmadıqlarını ortaya qoyublar.

**Məlumdur ki, bu gün də Qarabağda və Ermənistanla sərhədyanı bölgələrdə baş verən hərbi toqquşmalarda ermənilər təxribat xarakterli informasiyalar yaymaqdadır.Bu təxribat dolu informasiyaların ifşası üçün bizim hər birimiz öz vətəndaş mövqeyimizi daha inadlı şəkildə ortaya qoyub, düşmənin yalanlarının ayaq açıb yeriməsinə imkan verməməliyik. Çünki bizim heç kimin torpağında gözümüz yoxdur və biz işğal edilmiş torpaqlarımızın azad edilməsi naminə mübarizə aparırıq.**

**Sevinc HÜSEYNOVA,**
**Gəncə "ASAN xidmət" mərkəzində Ədliyyə Nazirliyinin Qeydiyyat şöbəsinin rəisi I dərəcəli ədliyyə qulluqçusu**

Adil İsmayılov, vəkil



# "Eldar Həsənov qətimkan tədbirinin girovla əvəz edilməsi haqda..."

***Xəbər vermişdim ki, Xarici İşlər Nazirliyinin əməkdaşları barəsində DTX istintaq idarəsində istintaq edilən cinayət işindən Azərbaycan Respublikasının Serbiya Respublikasında, Monteneqroda və Bosniya və Herseqovinada fövqəladə və səlahiyyətli səfiri Eldar Həsənovun barəsində CM-nin 308.2( vəzifə səlahiyyətlərində sui-istifadə etmə) və 308-1.1-ci ( büdcə vəsaitlərindən təyinatı üzrə istifadə etməmə) maddələri ilə cinayət işi ayrılaraq aidiyyəti üzrə Azərbaycan Respublikası Baş prokurorluğuna göndərilib və hazırda istintaq orada davam etdirilir.***

***Azərbaycan Respublikasının Serbiya Respublikasında, Monteneqroda və Bosniya və Herseqovinada fövqəladə və səlahiyyətli səfiri Eldar Həsənovun vəkili Adil İsmayılov KİV üçün açıqlamasını belə başlayıb.Daha sonra Adil İsmayılov yazır:***



***Eldar Həsənovun şəxsi xahişi nəzərə alınaraq o, DTX-nın İstintaq təcridxanasında saxlanılır. Saxlama şəraiti və ona göstərilən münasibətlə bağlı Həsənovun heç bir narazılığı yoxdur. O, son illər ərzində, xüsusən də son iki ildə bir sıra ağır xəstəliklərdən əziyyət çəkib və daim həkim nəzatərində olub. Təcrid olunmuş vəziyyətdə saxlanılması onun səhhətinə çox ciddi mənfi təsir edir. Gündəlik çox sayda, müxtəlif adlarda dərman preparatları qəbul edir. Şəxsi həyata hörmət və fərdi məlumatların mühafizəsi hüququna riayət edərək xəstəliklərlə bağlı məlumatları şərh etmək istəməzdim.***

***Amma açıq-aşkar görünən budur ki, Eldar Həsənovun səhhəti heç də yaxşı deyil və istənilən an kritik durum yarana bilər. O, az ağır cinayət törətməkdə ittiham edilir və qanun bu növ cinayətlərə görə seçilmiş həbs qətimkan tədbirinin girovla əvəz edilməsinə yol verir. Eldar Həsənov elan edilmiş ittihamlarda özünü təqsirli bilmir, tam, hərtərəfli, obyektiv araşdırma aparılmasını tələb edir. Onun şəxsiyyətini xarakterizə edən halları, 65 yaşının olmasını, səhhətində olan problemləri, o cümlədən infeksiyaya yoluxma riskini nəzərə alaraq müdafiə tərəfi onun barəsində seçilmiş həbs qətimkan tədbirinin girovla əvəz edilməsi haqda vəsatətlə məhkəməyə müraciət etmək niyyətindədir. Fürsətkən dövlət başçısına və hüquq mühafizə orqanlarının rəhbərlərinə müraciət edərək öz səlahiyyətləri çərçivəsində vəsatətimizin qanunauyğun həll edilməsində yardımçı olmalarını xahiş edirik.***

***Ümidvarıq ki, vəsatətimiz qanuni həllini tapacaq.***

***Hələlik deyə biləcəklərim bu qədərdir. KİV-lər mənə istinadən yazdıqlarımı paylaşa bilər.***

# Bərdənin Soğanverdilər kəndində asılan bayraqların endirilməsinə aydınlıq gətirildi...

**Bəzi xəbər saytlarında və sosial şəbəkələrdə "Kanal13" internet televiziyasına istinadən Bərdə rayonu Soğanverdilər kəndində yol kənarındakı dayanacaqda ucaldılmış Azərbaycan və Türkiyə bayraqlarının rayonun icra hakimiyyətinin başçısı Vidadi İsayevin göstərişi ilə endrilməsi barədə video-material yayımlanıb.**

Moderator.az yayılmış məlumatları dəqiqləşdirmək və nə baş verdiyini aydınlaşdırmaq üçün Bərdə rayonu Soğanverdilər kənd icra nümayəndəsi Rafiq Ələsgərovla əlaqə saxlayıb. İcra nümayəndəsi bildirib ki, həmin bayraq dirəkləri Tərtər-Ağdam magistral yolunun kənarındakı dayanacaqda özbaşına olaraq basdırılıb və "Bayraq haqqında" Azərbaycan Respublikası qanunu ilə daban-dabana ziddiyyət təşkil etdiyindən milli atributumuza edilən bu hörmətsizliyin aradan qaldırılması üçün məhz onun göstərişi ilə həmin bayraqlar oradan götürülüb.

İcra nümayəndəsi bayrağımızın hər birimizin qürur yeri olduğunu və ona hər kəsin hörmət və ehtiram bəsləməyə borclu olmasını xatırladaraq qanunun tələblərinin pozulmasının, bu cür özfəaliyyətin əslində bayrağımıza hörmətsizlik gətirilməsinin yolverilməz olduğunu vurğuladı.

Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU oxucuların diqqətinə çatdırır:

**Maddə 2. Azərbaycan Respublikası Dövlət bayrağının qaldırılmalı olduğu yerlər**

**2.1.** Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikasının Prezident sarayının və dövlət iqamətgahlarının üzərində, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Məhkəmə-Hüquq Şurasının, mərkəzi icra hakimiyyəti orqanlarının, Azərbaycan Respublikası Prokurorluğunun, Azərbaycan Respublikası Mərkəzi Bankının, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının, Azərbaycan Respublikası Hesablama Palatasının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının, yerli icra hakimiyyəti orqanlarının binaları, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin yerləşdiyi binanın üzərində daimi qaldırılır.

**2.2.** Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqlarının binalan üzərində, habelə Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqlarının başçılarının iqamətgahları üzərində beynəlxalq hüquq normalarına və diplomatik protokol qaydalarına uyğun olaraq qaldırılır.

**2.3.** Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikasına Ticarət Gəmiçiliyi Məcəlləsinə uyğun olaraq Azərbaycan Respublikasının gəmi reyestrlərindən birində qeydiyyata alınmış gəmilərin üzərində qaldırılır.

**2.4.** Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikasının sərhəd nəzarət-buraxılış məntəqələrinin və sərhəd zastavalarının binaları üzərində daimi qaldırılır.

**2.5.** Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin və başqa silahlı birləşmələrinin hərbi hissə və hərbi gəmilərində aşağıdakı hallarda qaldırılır:

**2.5.1.** Azərbaycan Respublikasının bayram günlərində;

**2.5.2.** hərbi andiçmə mərasimində;

**2.5.3.** hərbi hissələrə və ya hərbi gəmilərə dövlət mükafatları təqdim edildikdə;



**2.5.4.** hərbi hissələr (bölmələr) və ya hərbi gəmilər xarici dövlətin ərazisində (ərazi sularında) olduqda.

**2.6.** Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və başqa silahlı birləşmələrinin hərbi hissələrində onların qərargahlarının binalarında, hərbi gəmilərində isə Hərbi Dəniz Qüvvələrinin gəmi nizamnamələrinə uyğun olaraq qaldırılır.

**2.7.** Xarici dövlətin bayrağı altında üzən gəmi Azərbaycan Respublikasının daxili sularında üzərkən və ya Azərbaycan Respublikasının limanında dayanarkən öz bayrağı ilə yanaşı, beynəlxalq dəniz adətlərinə uyğun olaraq Azərbaycan Respublikasının Dövlət bayrağını da qaldırmalıdır.

**Maddə 3. Azərbaycan Respublikası Dövlət bayrağının yerləşdirilməli olduğu yerlər**

**3.1.** Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikası Milli Məclisinin iclas salonunda, Azərbaycan Respublikası Prezidentinin iş otağında, habelə Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə rəsmi tədbirlərin keçirilməsi üçün nəzərdə tutulan salonlarda və otaqlarda, Azərbaycan Respublikası məhkəmələrinin iclas salonunda, Azərbaycan Respublikası Milli Məclisi sədrinin, Azərbaycan Respublikası Baş nazirinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi sədrinin, Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin, Azərbaycan Respublikası Baş prokurorunun, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin, Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları başçılarının, Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası sədrinin, Azərbaycan Respublikası Hesablama Palatası sədrinin, Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin, Naxçıvan Muxtar Respublikası Baş nazirinin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədrinin, Məhkəmə-Hüquq Şurası sədrinin, Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin, Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqlarının başçılarının iş otaqlarında daimi yerləşdirilir.

**3.2.** Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikası Prezidentinin, dövlət nümayəndə heyəti rəhbərlərinin, xidməti vəzifələrini yerinə yetirərkən diplomatik nümayəndəliklərin və konsulluqların rəhbərlərinin nəqliyyat vasitələri üzərində yerləşdirilir.

**3.3.** Azərbaycan Respublikasının Dövlət bayrağı qanunvericiliklə müəyyənləşdirilmiş hallarda və qaydada andiçmə mərasimi keçirilən yerlərdə yerləşdirilir.

**Maddə 5. Azərbaycan Respublikası Dövlət bayrağının digər yerlərdə istifadəsi**

**5.1.** Azərbaycan Respublikasının Dövlət bayrağı yerli özünüidarə orqanlarının, qeyri-hökumət təşkilatlarının, müəssisələrin və idarələrin binaları, habelə yaşayış evləri üzərində qaldırıla (asıla) bilər.

**5.2.** Azərbaycan Respublikasının Dövlət bayrağı yerli özünüidarə orqanları, qeyri-hökumət təşkilatları, siyasi partiyalar, müəssisə və idarələr tərəfindən keçirilən tədbirlər zamanı qaldırıla (asıla) və ya yerləşdirilə bilər.

**5.3.** Dərs ilinin birinci günü təhsil müəssisələrində Azərbaycan Respublikasının Dövlət bayrağı qaldırılır (asılır) və ya yerləşdirilir.

## *Sosnovski: Putin onları Belarusdan çıxartdı*



**Rusiya Prezidentinin Belarusla bağlı gördüyü işlər və verdiyi qərarlar Qərb ölkələrini Minskdən geri çəkilməyə məcbur etdi.**

Bunu alman politoloq Aleksandr Sosnovski deyib. Sosnovski Qərb ölkələrinin Belarusdakı vəziyyəti çox yaxından izlədiklərini bildirib:

"Lakin Avropa üçün Vladimir Putinin reaksiyası daha vacibdir. Qərb ölkələri dəfələrlə açıq şəkildə bildirib ki, Putinin dedikləri ilə yaşamaq və bunun əsasında qərarlar qəbul etmək lazımdır. Buna görə, Putin bu məsələ ilə bağlı Avropaya konkret sözünü dedikdə, bir neçə saat ərzində ritorika və xəbər manşetləri avtomatik olaraq dəyişdi".

## *Pentaqondan şok etiraf*



**Çin ABŞ-ı 3 hərbi sahədə üstələyir: ÇXR son 20 il ərzində texnologiya resurslarını və siyasi iradəsini səfərbər edərək, ordusunu praktik olaraq bütün aspektlərdə modernləşdirərək, gücləndirib.**

Bu məlumat ABŞ Müdafiə Nazirliyinin hesabatında yer alıb. Pentaqon Çinin ABŞ-ı gəmiqayırma və donanma sayı tempinə görə keçdiyini bildirib.

**Çin donanmasında 350 gəmi və sualtı qayığın olduğu, ABŞ donanmasında bu sayın 293 ədəd təşkil etdiyi vurğulanıb.**

## *Haftar atəşkəsi pozdu*



**Liviyada Xəlifə Haftarın muzdluları atəşkəs rejimini yenidən pozub.**

Bunu Liviya hökumət qüvvələrinin sözçüsü Məhəmməd Kununu deyib.

"Bu, son 72 saat ərzində atəşkəsin pozulması ilə bağlı ikinci faktdır. Haftar muzdluları Sirt şəhərinin qərbində hökumət qüvvələrinin olduğu mövqeyə 6 "Qrad" raketi atıb. Hökumət qüvvələri hazır vəziyyətdədir. Uyğun zamanda hücumun mənbəyinə lazımi cavab veriləcək", - M.Kununu bildirib.

**MEHRİBAN**

# Yaponiyalı Fransanı necə fəth etdi?

**İngilis bazarında yanmış Uniqlo, digər ölkələrdə çox yavaş və dəqiq mağazaların açılışını etməyə başlayır: məsələn, Belçikada onun üç mağazası var, Inditex vətəni İspaniyada isə yalnız iki.**

Yenə risk edərək Yanai 2006-cı ildə ABŞ-da ilk mağazasını açdı: Manhattan-Sohonun ən şık sahələrinin birində Uniqlo butiki. O zaman analitiklər Yapon minimalizminin ərköyün amerikalı boqemalarına yeni bir şey təklif edə biləcəyinə şübhə edirdilər. Lakin 89 dollarlıq(endirim zamanı onların qiyməti iki qat azaldı) kaşmir djemperlər ilk qışda amerikalıları fəth etdi. Bu gün Uniqlo-nun ABŞ-da 50-dən çox mağazası var, marka üçün ən sürətli böyüyən bazarlardan biridir. Amma ən sürətli deyil.

Yanai Avropada Asiyadaki kimi minimalizmi deyil,zərifliyin təşviq edilməsi lazım olduğunu anladı. Paris stilinin mifi - sadəcə, ehtiyatla geyinmək qabiliyyəti, lakin böyük zövqlə - dünyadakı alıcıları sevindirir və bunda qazanmaq çox sadədir. 2005-ci ildə Fast Retailing, ilk növbədə iki Fransız markasını almışdır: böyülükdə Fransada ikinci olan Princesse Tam Tam alt geyimləri və məhsulu Yaponiya markasına çox oxşayan Comptoir des Cotonniers brendi.




Uniqlonun ilk mağazası 2007-ci ildə Parisdə açılmış və indi Fransa Uniqlonun bütün Avropa mağazalarının yarısına sahibdir - 26. Bütün Avropa bazarı indi markanın gəlirinin 4% -ni təşkil edir. Bir çox Fransız nöqtələri Paris Opera və ya Bazar del 'Hotel de Ville və Paris Printemps lüks şöbələri kimi moda yerlərində yerləşir. 30 avroluq köynəklər Gucci, Hermes, Christian Lacroix-dən olan əşyalarla bir yerdədir.

Uniqlo 2016-cı ildən bəri müntəzəm olaraq Fransız dizaynerləri və moda evləri ilə birgə kolleksiyalar istehsal edir. Məsələn Yapon markası, Hermesin keçmiş dizayneri Christopher Lemer, Fransız Vogue-nin eksbaşçısı Karin Roitfeld və dizayner İnes de la Fressanqın əməkdaşlıq edib.

Dizayner kolleksiyalarından olan əşyalar məhdud miqdarda buraxılır, onların reklamı isə ən böyük Qərb mediasıda da daxil olmaqla təqdimatdan bir neçə ay əvvəl başlayır.

### *Rusiya Yapon markasına necə kömək etdi?*

Rusiya bazarında Yapon marka 2010-ci ildə çıxıb, lakin modaya minimalizm gələndən sonra son bir neçə ildə inkişaf edib. Əgər 2015-ci ildə Rusiyanın payına Uniqlonun qlobal satışından təxminən 2% -i gəlirdisə, bu, 2020-ci ildə 7-8% artacaq. 2017-ci il ərzində şirkət dörd rus şəhərini mənimsəmiş və Uniqlonun mağaza sayı Rusiyada digər Avropa ölkələrini qabaqlayıb. Sentyabr 2017-ci ildə Mitsubishi Corporation ölkədə miqyaslama daha sürətli getsin deyə Uniqlonun Rusyadaki səhmlərinin 25% alıb. Nəhayət, Rusyadaki yaxşı nəticələrə görə Uniqlo Avropadakı satış mənzərəsini düzəldə bilib və tarixdə ilk dəfə daxili bazara nisbətən xarici bazarda daha çox mənfəət əldə edib.

Rusyada və Fransadaki uğurlarından sonra şirkət cəsarətini toplayaraq 2018-ci ilin avqust ayında ən böyük rəqiblərindən biri olan H&M-in ərazisi olan İsveçrəyə daxil olub. Mağazanın açılışına Stokholmda bir çox ultra -yüngül kurtka almaq istəyən 1000-dən çox adam gəlib.

**Bu gün şirkətin əməliyyat gəlirləri təxminən ildən- ilə 30% artır. Holdinqin satış həcmi təxmini $ 18.2 milyarddır, və onların 70% Uniqloya məxsusdur: marka artıq $ 7,5 milyard qiymətləndirilmə ilə dünyanın ən bahalı brend siyahısına daxil olub. Ola bilər indi Tadasi Yanai özünə daha uzun müddətli bir məzuniyyət verə bildi.**

**Eminquey**



Elnura Cavadzadə
filologiya üzrə elmlər doktoru

# Eybəcərlər anası

*Məktəbi bitirən məzunlarla tez-tez əlaqə saxlayırıq. Hazırda ali məktəb tələbəsi olan keçmiş şagirdimdən ərkyana soruşdum ki, dediklərimizi unutmamısan hələ? Müəllim, siz mənəvi məsələlərə çox üstünlük verirsiniz, elə kitabınızda, yazılarınızda da. Bu isə cəmiyyətə lazımdeyil, dedi! Mənəviyyat lazım deyil ifadəsi ruhumu sarsıltsa da, o qənaətə gəldim ki, bəlkə, doğrudan da mən sivilizasiyadan geri qalmışam, müasir dünya ilə ayaqlaşmaq lazımdır. Xülasə, karantin müddətində sosial məsafənin gözlənilməsi lazım olmayan sosial şəbəkələri diqqətlə izləməyə başladım. Görüm, məmləkətimin insanı nə düşünür? İlahi, cahanda koronavirusdan da təhlükəli bəla varmış?! Xaos və özbaşınalığın hökm sürdüyü virtual dünyada hamı başını itirib. Xalqım iki qütbə bölünüb yarısı jurnalistdir, yarısı siyasətçi... Burada elə virus tüğyan edir ki, bütün sədləri, cəbhələri yarıb keçən...Sosial məsafə nədir, ləyaqət, şərəf, əxlaq, mənəviyyat cığırını aqressiya alağı basıb. Dəhşətlisi də budur ki, cəmiyyətdə ziyalı hesab edilən (ziyalı sözü də yəqin, dominant mənasını itirib) biri hər hansı postun altında elə şərh yazır ki, adam adamlığından utanır. Yazıq Allah da, güman ki, bizdən utanıb bu bəlanı göndərdi, evlərə qapayıb eybimizi örtməyə, düşünməyə möhlət verdi?! Axı Adəm övladı həmişə Yaradanla ticarət sevdasında olub. "İlahi, möhlət ver, bu işim düzəlsin, qurban kəsərəm," "o niyyətim qəbul olunsun, ziyarətgaha sürünə-sürünə gedərəm". İlahi, mənə düşünməyə, ədalətli olmağa, haqqı-nahaqdan seçməyə, məzlum haqqı yeməməyə möhlət ver, qapına sürünərək gələrəm deyən adam görmüsünüzmü? Bəlkə, bu səbəbdən qurban olduğumuz gözəgörünməz gözlə görünməsi mümkün olmayan virusla dünyanı lərzəyə gətirdi. Dayanın! Düşünün! Ayılın! Covid 19-un gətirdiyi on doqquz min fitnə-fəsadın arasında "əllərinizi tez-tez yuyun" şüarını saflıq və paklığa çağırış kimi qəbul etsək də, o da əleyhimizə işlədi. Olan-qalan abrımız da barmaqlarımızdan süzülüb getdi. Yalvarıram, məni inkişaf, tərəqqi, fikir və söz azadlığı, gender bərabərliyinə qarşı cahillikdə günahlandırmayın. Əsla, mən deqredasiyanın əleyhinəyəm. Sosial şəbəkələrdəki bəzi qruplarda qadınların (pafosla səsləndirilən Azərbaycan xanımı, anası, bacısı) adından elə statuslar paylaşılır ki... Elə bil, ölkədə ailələrin qadın-kişi münasibətlərindən başqa dərdi yoxdur. Sevinc paylaşdıqca çoxalar, dərd bölüşdükcə azalar, deyiblər. Səhifə çox oxunsun deyə sevinə-sevinə o yazıları paylaşanlar bu məharətlə onların hansı problemlərini və necə həll edirlər? Sözsüz, evdar xanımların məişət üslubunda danışması qəbuledilləndir, lakin müəyyən üslubi deqredasiya səviyyəsinə malik məişət sözləri qeyri-etik ifadələr, bayağı ibarələrdən ibarət deyil. Üzeyir Hacıbəylinin gözəl bir deyimi var: "Gərək şəkil elə çəkilsin ki, daha onun altında "bu atdır" sözünü yazmağa ehtiyac qalmasın.*

*Bu gün virtual aləmdə 10 yaşdan yuxarı hər kəs var-o sözləri yazan anaların balaları da! Onlar bu şəbəkələrin labirintində azırlar. Cəmiyyət fərqində deyil, insanları budağından yarpaq-yarpaq salan dünyanın kim doğulur əllərində, kim boğulur sellərində... Elena yadınızdan çıxdımı? Yeniyetmə qız və oğulları ilə dil tapmağın yollarını televiziyalarda axtaran valideynlərin həyat faciəsi bizə dərs olmurmu? Müzakirələrdə valideyni, məktəbi, müəllimi qınayırlar. Amma övladlarımızı uçuruma aparan yolun başlanğıcı guya ki, ünsiyyət vasitəsi olan sosial bəladır, burada hamı hamını tənqid yox, təhqir edir. Bir-birinin dostluğunda olanlar, əslində, biri-birinə düşməndir. Volter, ilahi, sən məni dostlarımdan xilas et, düşmənlərimlə özüm də bacararam, deyimini elə bil bizim üçün fikirləşib.*

*Müasir təhsilin əsas istiqamətlərindən biri də şagirdlərdə həyati bacarıqların inkişafıdır. Bizim uşaqlar isə həyati bacarıq anlayışını "İnstagram" da paylaşılan şəkillər müstəvisində qavrayır.Yəni, düşünürəmsə varam deyil, görünürəmsə mövcudam prizmasından. Yeməyimizi, gəzintimizi, üst paltarımızdan tutmuş gecə dəstlərimizə qədər paylaşa-paylaşa hara gedirik?! Vallah, o zaman ki ən ucqar qəsəbə və kəndlərdə qız-gəlinlərimiz internetdən istifadəyə başladı "mən sevindiyimdən papağımı göyə tulladım, o gün bu gündür papağımı tapa bilmirəm". Allah sənə rəhmət eləsin, ustad.*

*Yadıma Mopassanın "Eybəcərlər anası" hekayəsi düşdü. Qadın hamilə olarkən qarnını möhkəm sarıyır,uşağı ana bətnində ikən şikəst edir. Onu oyunbazlara satan ana bu minvalla sərvət sahibi olur. Bəs bu gün övladları sosial şəbəkələrdə mənəvi şikəstə çevrilənlər nə düşünür?! "Eybəcərlər anası" adının vəhşət doğuran məsuliyyət yükünü zərif çiyinləriniz daşıya biləcəkmi,əzizlərim?*

# MƏNİM TANIDIĞIM QƏLƏNDƏR XAÇINÇAYLI

**Mən həmişə insanda üç cəhətə xüsusi önəm vermişəm; tərbiyəyə, istedada və zəhmətə! Bu üç element bir-birilə birləşəndə insan kimliyindən asılı olmayaraq, daha kamil və daha müdrik təsir bağışlayır. Ən azından ona görə ki, bu cür insanlarla söhbət edəndə, ünsiyyət yaradanda onlardan yalnız müsbət enerji alırsan. Hiss edirsən ki, qarşındakı dünyanı dərk edən və həyatın hər cür çətinliklərini görmüş, ayların, illərin sınağından keçmiş bir insandı, bir ziyalıdı...**

Qələndər Xaçınçaylını 2000-ci illərin əvvəllərində tanımışam. Onda Sabunçu rayonunda məktəb direktoru işləyirdim. Mənim həmyerlim və yaxın dostum Məhəmmədəli Mustafa məktəbimizdən yazı hazlayırdı. Gördüm ki, yanında da tanımadığım bir adam var. Və o adam ilk baxışdan, ilk ünsiyyətdən özünə qarşı məndə bir isti münasibət yaratdı. Məhəmmədəli müəllim onu mənimlə tanış edərək dedi:

**- Bu, bizim qəzetin şöbə müdiri, şair-publisist Qələndər Xaçınçaylıdı. Çox zəhmətkeş və bacarıqlı adamdı...**

... Elə o vaxtdan Qələndər Xaçınçaylı ilə tanışlığımız yarandı. Məktəbimizdən dəfələrlə maraqlı, bir-birinə bənzəməyən reportajlar, məqalələr hazırlayırdı. Və yazdığı məqalələr də pedaqoji kollektiv tərəfindən hörmətlə qarşılandı. Yazılardan hiss olunurdu ki, o, pedaqoji işi yaxşı bilir, təhsillə bağlı kifayət qədər məlumata malikdir. Əlbəttə, hər bir jurnalistə qiymət verən onun oxucusudur. Biz də Qələndər Xaçınçaylının hər bir məqaləsini, hər bir yazısını çox böyük diqqətlə oxuyurduq.

Mən hər gün "Ədalət" qəzetini böyük bir sevgiylə alıram, oxuyuram və oxuduqlarımı digər dostlarıma danışıram. Birincisi, qəzetin təsisçisi və baş məsləhətçisi, millət vəkili Aqil Abbas bizim tələbə yoldaşımız olub. O, ADU-nun (BDU) filologiya fakültəsində hələ tələbə olarkən bizim hamımızın yaxın dostu idi. Bəlkə də Aqil Abbasdan çox ikinci dostu olan çətin tapılar. Sözümün canı odur ki, qəzeti oxuyanda Faiq Qismətoğlunun bir yazısı gözümə dəydi: "Dünyanın ən əzabkeş adamı". Yazını oxuyan kimi Qələndərin ölüm xəbərini bilib yerimdə donub qaldım. Çünki 10-15 gün bundan əvvəl mənə zəng eləmişdi ki, müəllim, eşitmişəm yaş həddi ilə əlaqədar təqaüdə çıxmısan. Nə vaxt vaxtın olsa, mənə de, gəlib sizdən "Həftə içi" qəzeti üçün maraqlı bir portret oçerki yazacam. Onun səsi indi də qulağımdan getmir. Və həmişə də məktəbimizə gələndə mənimlə öpüşər-görüşər və deyərdi ki, "səni verənə şükür!".

***Hər yeni kitabı çıxanda mənimlə görüşərdi. Və kitablarına aftoqraf yazıb hədiyyə verərdi. Qəribəydi ki, həmişə hara isə tələsirdi. Deyirdim oturaq bir stəkan çay içək, qayıdırdı ki, müəllim, işim başımdan aşır, məni gözləyirlər, yazını hazırlamalıyam, redaktora verməliyəm, yoldaşım ağır xəstədi, gedib onun üçün aptekdən dərman almalıyam və dərmanı da aparmalıyam evə və sonra yenə qayıtmalıyam işə...***

Onu da qeyd edim ki, Qələndər Xaçınçaylı ilə mənim aramda bir dostluq yaranmışdı. Elə ay olmazdı ki, mənə zəng eləməsin, əhvalımdan xəbər tutmasın. Olduqca tərbiyəli, zəhmətkeş və istedadlı adam idi. İnsan ki, tərbiyəli oldu, zəhmətkeş oldu, o, Allah-Təalanın verdiyi istedadı da cilalaya bilir, axtarışlar aparır və son nəticədə nə düşünürsə, onu poeziyaya, şeirə çevirməyi bacarır. Və Qələndər də məhz belə yaradıcı insanlardan biri idi. Nə qədər istedadlı idisə, nə qədər tərbiyəli idisə, nə qədər zəhmətkeş idisə, bir o qədər də sadə adam idi. Görüşəndə istəyirdi ki, ürəyini çıxarıb sənə versin. Və bu xarakteri, bu xasiyyəti, bu cəhətləri onu bizə sevdirən əsas əlamətlər idi. Qələndər özü də Azərbaycan Dövlət Universitetini bitirmişdi və universitetin müəllimləri ilə bağlı çox maraqlı zarisovkalar, portret oçerklər qələmə alırdı. Belə gözəl yazılardan birini də rəhmətlik sabiq millət vəkili, Azərbaycan Dövlət Universitetinin professoru, kafedra müdiri Şamil Qurbanova həsr eləmişdi. Qələndər Xaçınçaylı həmin portret oçerkində Şamil Qurbanovun Azərbaycanın necə böyük ziyalısı olmasını, xalq və millət tərəfindən böyük məhəbbətlə sevilməsini qeyri-adi bir formada və səmimi qələmə almışdı. Onun Şamil müəllim barəsində hazırladığı yazı tək mənim deyil, həm də Şamil Qurbanovun doğmalarının və əzizlərinin ürəyincə olmuşdu. Çünki Qələndər Xaçınçaylının publisistikası və poeziyası xalq yaradıcılığından bəhrələnmiş bir bədii nümunədir.



***Onun hansı şeirini, hansı misrasını və hansı bəndini gözdən keçirirsən, görürsən ki, orda vətən məhəbbəti, insan sevgisi və Allaha olan ülvi bir məhəbbət var. Qələndər Allahı çox sevməklə yanaşı, həm də böyüyüb boya-başa çatdığı Ağdamı, böyük Azərbaycanı çox istəyirdi. O, bu vətənin, bu millətin və bu ölkənin yolunda hər an döyüşməyə və şəhid olmağa da hazır idi. Bayaq dedim, Qələndərin şeirlərində vətənin bütün gözəllikləri, vətənin bütün ağrı-acısı, dərdi-səri əks olunub. Qələndər kədərdən nə qədər çox yazırdısa, onun qəlbində və ürəyində böyük bir nikbinlik də var idi. Və həmişə də deyərdi ki, biz gec-tez Ağdama, eləcə də digər işğal altında olan torpaqlarımıza dönəcəyik.***

Mən bir fikri də xüsusilə vurğulamaq istəyirəm ki, yaxşı insanlar tək bir evdən, bir ailədən, bir eldən getmir. Onlar sözün həqiqi mənasında böyük Azərbaycanın kisəsindən gedir. Bu yaxınlarda istedadlı şair Ramiz Məmmədzadənin Qələndər Xaçınçaylı ilə bağlı "Ağı" şeirini də oxudum. Və bir daha yəqin etdim ki, Qələndərin dünyasını dəyişməyi tək məni kədərləndirmir, Azərbaycan poeziyasında sözü və yeri olan digər insanları da kövrəldir. Ümumiyyətlə, yaxşı insanlar, yaxı adamlar bu dünyada çox qala bilmirlər. Ən azından ona görə ki, yaxşı insanları, yaxşı adamları Allah-Təala da çox istədiyinə görə, götürüb aparır öz dərgahına. Və Qələndər Xaçınçaylı da Allahın çox istədiyi bəndəsi idi ki, götürüb apardı öz yanına.

**Qoy ruhu şad olsun, məzarı da nurla dolsun! Və bir də şairlər, yazıçılar, yaradıcı adamlar heç vaxt ölmürlər. Onlar öz şeirlərində, öz misralarında həmişə yaşayır. Biz Qələndərin şeirlərini oxuduqca bu misralarda onun ürək döyüntüsü eşidəcək, səsini duyacaq və yenidən onunla ünsiyyətdə olacağıq...**

**Səməndər MƏMMƏDOV**
**AYB-nin üzvü, Prezident təqaüdçüsü,**
**şair-publisist**

# "Distant təhsil mərkəzləri yaradılsın"

## Nazirin təklifi də müzakirə olundu

**Dünyanı cənginə alan koronavirus distant təhsili ən önəmli mövzuya çevirib. Distant təhsilin üstünlükləri və çatışmazlıqları nədir? Distant təhsildə mövcud problemlər hansılardır? Azərbaycan gənci distant təhsillə elmə, biliyə, savada yiyələnə bilirmi? "Dəyirmi masa"da mövzumuz "Distant təhsil"dir. Qonaqlarımız Təhsil Nazirliyinin ictimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin mətbuat katibi Günel Gözəlova və BDU-nun Pedaqogika kafedrasının müəllimi, pedaqoji elmlər doktoru Elza Mollayevadır.**



### *"Ənənəvi təhsil daha məqsədəuyğundur"*

**-Distant təhsil haqqında nələri söyləyə bilərsiniz?Biz bu təhsil sisteminə hazırıqmı?**

**C. Valehov:** "Distant təhsilin çatışmazlığı da var, üstünlüyü də. Distant təhsil bütün dünyada tətbiq olunan modeldir. Bu model, təkcə Azərbaycanda mövcud deyil.

Distant təhsillə bağlı hərtərəfli və geniş tətqiqatlar var. Bilirsiniz, üzbəüz, ənənəvi təhsildə münasibət, ünsiyyət, təmas olduğuna görə insanlar psixoloji cəhətdən bir-birini hiss edirlər. Buna görə deyə bilərəm ki, ənənəvi təhsil daha məqsədəuyğundur. Distant təhsil məsafədən olan təhsildir. Əksər hallarda belə hesab edirlər ki, kompüterin bir tərəfində mənəm, digər tərəfində sən, bu distant təhsil deyil. Distant təhsil həm də təhsilin onlayn kontent bazasının olması deməkdir ki, burada iştirakçılar nələrisə bölüşə bilsinlər".

### *"Distant təhsilin çatışmayan cəhətləri var"*

**E. Mollayeva:** "Pandemiya dövründə distant təhsilin Azərbaycan üçün nə qədər önəmli olduğu ortaya qoyuldu. Sizin də dediyiniz kimi bir məsələ var, biz distant təhsilə hazırıqmı? Pandemiya birdən-birə ortaya çıxdığı üçün biz hələ distant təhsilə hazır deyildik. Lakin nə qədər hazır olmasaq da, pandemiya dövründə distant təhsillə mövcud situasiyadan çıxa bildik. Mart ayından tədris ilinin sonunadək distant təhsil oldu. Distant təhsilin özünün çatışmayan cəhətləri var. Bu çatışmayan cəhətlərdən biri o idi ki, onlayn dərslər zamanı tələbələrimizin çoxsu rayonlarda, bölgələrdə olduğu üçün internetlə bağlı problemlər özünü göstərdi. Bu səbəbdən də tələbələrin bəziləri onlayn dərslərə qoşula bilmədi, belə olan halda onların bir qisminin dərsə davamiyyəti də kifayət qədər ürəkaçan olmadı. Məsələn, 70 nəfərlik qrupda olan tələbələrin 15-20 nəfəri dərsdə iştirak edə bilmirdi. Ötən tədris ilində mən bir şeyi müşahidə etdim, onlayn dərslərin keçirilməsi bizim xeyrimizə oldu. Bu təhsil sistemimizin qarşısına prioritet vəzifə qoydu ki, gələcəkdə anoloji hal baş verərsə, buna hazırlıqlı olmalıyıq. Pandemiyanın qəfil bizi yaxalamasına baxmayaraq Təhsil Nazirliyi distant təhsilə keçidi təmin edə bildi. BDU-nun müəllimi olduğum üçün nümunəni də elə onun üzərindən çəkim, ilk dəfə belə bir hal olmasına baxmayaraq BDU-nun pedaqoji kollektivi bunun öhdəsindən uğurla gəldi".

**-Mövcud problemlərin həlli istiqamətində hansı işlər görülməlidir və bu problemlər həll olunacaqmı?**

**C. Valehov:** "Həmkar qurumlarla bununla bağlı müzakirələr aparırıq ki, ucqar rayonlarımızda olan tələbələr də distant təhsildən yararlana bilsinlər.

Təbii ki, burada internet problemini həll edirik. Elə bölgələrimiz var ki, orada internetin sürəti yüksəkdir, elələri də var ki, zəif. Təhsil naziri tərəfindən təklif olunan variantlardan biri odur ki, ayrı-ayrı universitetlərdə təhsil alan və bölgələrdə yaşayan tələbələr üçün distant təhsil mərkəzləri və yaxud məntəqələr yaradılsın ki, burada tələbələr yüksək sürətli internetdən istifadə etsinlər və dərslərə qoşulsunlar.

Bir şeyi söyləyə bilərəm, distant təhsillə bağlı problemlər təkcə bizdə deyil, inkişaf etmiş ölkələrdə də var".

### *"Artıq internet xidmətlərindən faydalanmaq imkanı yaradılıb"*

**E. Mollayeva:** "Bizdə distant təhsil həyata keçirilən zaman mütləq yerli xüsusiyyətlər nəzərə alınmalıdır. Bunlar hansılardır? Bizim problemlərimiz nəzərə alınmalıdır ki, ölkəmizdə distant təhsillə bağlı hansı çatışmazlıqlar var? Distant təhsil tətbiq edilən zaman xarici ölkələrin təcrübəsindən istifadə edilməlidir. Xarici ölkələrdə distant təhsil necə həyata keçirilir? Distant təhslinin bazası yaradılmalıdır, müəllimlər onlayn dərslərlə bağlı seminarlarda iştirak etməlidirlər ki, bilsinlər, distant təhsil necə aparılmalıdır".

**G. Gözəlova:** "COVİD-19 virusunun yayılmasının qarşısını almaq üçün həyata keçirilən mübarizə tədbirləri çərçivəsində tətbiq edilən karantin müddətində telekommunikasiya xidmətlərinə tələbat dəfərlərlə artdı. Ötən illə müqayisədə 2020-ci ilin 8 ayında "Aztelekom" MMC üzrə yeni qoşulan istifadəçilərdə 30% artım müşahidə olunur.

Eyni zamanda göstərilən xidmətlərə olan tələblər də artıb. Online dərslər, seminarlar, iclaslar və s. buraya daxildir. Bu da regionlara ötürülən trafikin 40%-dan çox artmasına səbəb olub. Xidmətlərin dayanqlığının təmin edilməsi və şəbəkənin ötürülmə qabiliyyətinin artırılması məqsədilə "Aztelekom" MMC tərəfindən DDDM/İPMPLS texnologiyaların tətbiqi ilə magistral xətlərin yenidənqurulma layihəsi həyata keçirilirdi. Situasiyanı nəzərə alaraq layihə çərçivəsində görülən işlərin tezləşdirilməsi ilə bağlı qərar qəbul edilmişdir və demək olar ki, artıq quraşdırılan avadanlıq tam istifadəyə verilmişdir.

Eyni zamanda əhatə dairəsinin genişləndirilməsi və mövcud tutumun artırılması üzrə də işlər aparılır. Bu müddət ərzində mövcud şəbəkənin tutumu 36000 port artırılmışdır. Bununla yanaşı əlavə 70-dən çox yaşayış məntəqəsində artıq internet xidmətlərindən faydalanmaq imkanı yaradılıb. Abşeron və Masallı rayonlarında, Sumqayıt və Gəncə şəhərlərində "GPON" texnologiyasının əsasında FTTH və ya evədək optika layihəsi həyata keçirilir".

**Rövşən Tahir**

# "Mölde" "Qarabağ"la oyun üçün Bakıya gəlmək istəmir

## *Millət vəkillərindən etiraz*

**Millət vəkilləri Aqil Abbas və Fazil Mustafa "Mölde" klubunun "Qarabağ"la oyunu neytral meydanda keçirmək istəyinə etiraz ediblər.**

Norveç təmsilçisi bildirir ki, əgər Bakıya gələrlərsə, bu halda ölkələrinə qayıdanda, 10 gün karantində qalmalıdırlar. Buna görə də onlar matçın Macarıstanda keçirilməsinə təklif edirlər ki, geri qayıdanda belə halla üzləşməsinlər. Lakin "Qarabağ" bununla razılaşmır.

Daha əvvəl Ağdam klubunun baş meneceri Asif Əsgərov bildirib ki, məsələ ilə bağlı son qərarı UEFA verəcək: "Bu qurum son-



da nə desə, o da olacaq. Sadəcə, biz haqlarımızı tələb edirik. Onlardan açıqlama istəyirik ki, əgər UEFA-nın tərkibində olan 55 ölkə eyni hüquqludursa, Cəbəllütariq kimi 3-5 nəfərdən ibarət ölkə Almaniya, Polşa kimi böyük ölkələrlə eyni sayılırsa, yanaşmalar da eyni olmalıdır. Avstriya millisi Millətlər Liqasıın oyununa görə Norveçə karantinsiz girə bilirsə, Norveçin klubu da qayıdanda öz ölkəsinə gözüyumulu girməlidir. Normalda Azərbaycana da giriş qadağandır, amma rəqibləri xüsusi icazə ilə gətirmişik. Öz dövlətlərindən xahiş edə, daha sonra sübut edə bilərlər ki, test verdikləri üçün Norveçə girişlə bağlı problem olmamalıdır. UEFA təlimatlarında belə bir bənd var: Rəqib öz ölkəsinə qayıdanda problem yaşayırsa, o halda oyun neytral meydanda keçirilə bilər. "Molde" də bunun ucundan tutub, Bakıya gəlmək istəmir".

**Millət vəkili Aqil Abbas** Qol.az saytına açıqlamasında Norveç təmsilçisinin bu istəyinin anlaşılmaz və UEFA qaydalarına uyğun olmadığını vurğulayıb: "Bu mövsüm, yəni ötən ay Azərbaycana 5 əcnəbi komanda gəlib. Onlardan ikisi "Qarabağ", hərəyə biri isə "Neftçi", "Sumqayıt" və "Keşlə" ilə burada oynayıblar. Məgər, "Mölde" həmin klublardan artıqdırmı? Bu məsələyə necə yanaşmadır? Dünya, Avropa futbolu elədir ki, qurumlar nə qərar çıxarır, hamı ona tabe olmalıdır. Karantinə, virus riskinə qalsa, hazırda Azərbaycan koronavirusa görə ən az itki verən, ən az yoluxma olan ölkələrdəndir. İkincisi, indi hansı ölkədə koronavirus yoxdur ki? Gedib, hansısa neytral zonada oynamaq istəyi həm bizim üçün şantajdır, həm də rəqibin bəhanəsi. Gəlməyəcəklərsə, dünya futbolunun qanunları var. Buna əsasən, onlara texniki məğlubiyyət verilməlidir. Bununla da məsələ həll olunur".

**Millət vəkili Fazil Mustafa**nın fikrincə, "Mölde" Azərbaycana gəlmək istəmirsə, ona texniki məğlubiyyət verilməlidir: "Çünki UEFA-nın əvvəlcədən planlaşdırdığı standartlardan kənara çıxmaq doğru deyil. Ən azından matçın Bakıda keçirilməsinə şərait var. Neytral zona sayılan ölkələrdə də eyni koronavirus təhlükəsi mövcuddur. Yəni, necə ki, Bakıdan qayıdandan sonra karantində qalmalıdırlarsa, elə başqa ölkədən qayıdanda da eyni şey ola bilər. Bu, xüsusi bir səbəb deyil. "Qarabağ" da bununla bağlı UEFA-ya müraciət ünvanlamalıdır ki, rəqib komanda Bakıya gəlmirsə, onlara texniki məğlubiyyət verilsin. Əlbəttə ki, "Mölde"nin etdiyi bəhanədir. Belə vəziyyətdə hər iki komanda eyni vaxtda əziyyət çəkmiş olur. Elə Macarıstan üçün də problemdir. Karantin dövründə iki ölkədən futbolçu qəbul etmək o ölkənin də marağında deyil. Nəyinə lazımdır? Azarkeşlər yoxdur ki, deyək, vəsait yığılır. Hansısa bir problem olarsa, bunun məsuliyyətini kim daşıyır? Təhlükəsizliyə təminat vermək məsələsində də problem olur. Amma bu, bizdə daha rahatdır. Məncə, bu məsələdə bəhanə keçərli deyil və texniki məğlubiyyət barədə düşünülməlidir".

**Xatırladaq ki, Çempionlar Liqasının üçüncü təsnifat mərhələsinin "Qarabağ" - "Mölde" görüşü sentyabrın 16-sı Bakıda keçirilməlidir.**

# *ABŞ KİPRDƏ VƏZİYYƏTİ GƏRGİNLƏŞDİRİR*

## Kiprə silah embarqosu qismən aradan qaldırılır



***Birləşmiş Ştatlar Kiprə silah satışına qadağanı tədricən yumşaltmağa başlayıb. Bu Dövlət Departamentinin mətbuat katibi Morqan Ortequsun yazılı bəyanatında da öz əksini tapıb. Bəyanat ABŞ dövlət katibi Maykl Pompeo ilə Kiprin prezidenti Nikos Anastasiadislə ötən gün baş tutan telefon danışıqlarından sonra yayılıb.***

Ortequsun sözlərinə görə tərəflər, təhlükəsizlik sferasında yaxşılığa doğru gedən ABŞ-Kipr münasibətlərini müzakirə ediblər. "Dövlət katibi Pompeo, Kipr prezidenti Anastasiadisi 2021-ci maliyyə ilində tədbiq olunan silah satışına dair embarqonun nisbətən aradan qaldırılacağını bildirib". ABŞ -da maliyyə ili oktyabrın 1-də başlayır və sentyabrın axırında bitir. Bundan başqa Pompeo ABŞ -ın Kipr adasında "ikizonalı, ikiicmalı fedarasiyada birləşməsi" təklifini dəstəkləyir. ABŞ prezidenti Donald Tramp hələ dekabr ayında 2020-ci ilinə dair maliyyə qanununu imzalayıb. Qanunda 1987-ci ildə qəbul olunmuş, adada silahlanmanın qarşısının alınması üçün tədbiq edilən embarqonun qismən aradan qadırılması nəzərdə tutulur.

**ABŞ administrasiyasının bu qərarı Ankara tərəfindən hiddətlə qarşılanıb. Türkiyə Xarici İşlər Nazirliyi bəyan edib ki, amerkanın bu addımı müttəfiqlik münasibətlərinə uyğun gəlmir və ABŞ bu qərara yenidən baxmalıdır.**

**Rüstəm Hacıyev**

# Tramp Baydenə tesdən keçməyi təklif etdi

**ABŞ prezidenti Donald Tramp bəyan edib ki, prezident seçkilərindəki demokrat rəqibi Co Baydenin stimullaşdırıcı petepatlardan istifadə etdiyini güman edir. O, Baydenə birlikdə müvafiq testdən geçməyi təklif edib.**

Fox News telekanalına müsahibəsində Ağ Ev rəhbəri " Bayden mənim fikirimcə stimulyatorlardan istifadə edir .. Hesab edirəm ki, mən də, o da bu perepatlara qarşı tesdən keçməliyik"- deyə bildirib. Aparıcının - " Siz niyə görə rəqibinizi hansısa perepatlardan istifadə etməkdə günahlandırırsınız" - sualına, Tramp, " hazırki debatlarla ənvvəlki debatlar arasında onun özünü aparmasında fərq var. Əvvəlki debatlarda Bayden daha zəif görünürdü."- deyə cavab verib.

**Xatırladılır ki, Co Baudenin hazırda 77, Donald Trampın isə 74 yaşı var.**

**Rüstəm Hacıyev**

# "XAQANİ" POEMASI - BÖYÜK USTAD HAQQINDA QİYMƏTLİ ƏSƏR NÜMUNƏSİ

(əvvəli ötən sayımızda)

**Sonradan - özü zülmə, sitəmə, haqsızlığa məruz qaldıqdan sonra şair anlaya bilmişdir ki, o, əsərlərində uzun müddət zalımı tərifləmiş, zülmkarın mərhəmətindən, talançının səxavətindən bəhs etmiş, qan udduran qüvvəni xeyir, mərhəmət sahibi kimi mədh etmişdir. Bu mənada müəllif Asim Yadigar əsərdə çox sevdiyi və hörmət duyduğu Xaqani Şirvanini idealizə etmir, bəlkə də daha çox ictimai-ədəbi düşüncədə onun haqqındakı mövcud ziddiyyətli düşüncənin məzmunundan irəli gələrək onu bir şəxsiyyət olaraq izah etməyə, bütün ziddiyyətləri ilə ortaya qoymağa, yanlışı-doğrusu ilə və əlbəttə, yalnışlarını səbəblərilə təqdim etməyə çalışır.**

Müəllif müəyyən məqamda Xaqaninin sonralar nifrət və qəzəb duyduğu saraylara mədhiyyəçilik etməsini onun gənclik ehtirası və şöhrət həvəsilə bağlayırsa, əslində zalım olanın müəyyən vaxt mərhəmətli olduğuna inanması ilə əlaqələndirirsə, sonralar şairin bu mədhiyyəçiliyinin zülmə, zalıma tabe olması, boyun əyməsilə əlaqələndirərək şair haqqında gerçək, inandırıcı bir obraz, təəssürat yaratmaq istəyir:

*Zəmanə mum eylədi,*
*əydi çox üsyankarı,*
*Xaqani bir də gördü,*
*ömür olubdu yarı.*
*Təriflər yağdırmışdı*
*Mənuçöhrə bir zaman,*
*İndi də Axsitanın*
*dövranıdır bu dövran.*
*Əyilməyən poladı*
*sındırırlar bir anda,*
*Gör nə qədər dik başlar*
*əyildi bu zamanada.*
*Əyilməyən başları*
*vurur əyri qılınclar,*
*Yırtır sirr pərdəsini*
*laltək susan dörd divar.*
*...Kimə tərif söyləsən*
*ünvanına gec çatar,*
*Amma bir pis bir söz desən,*
*yeldən də qanadı var.*
*Bir sözünün üstünə*
*yüzün qoyub deyərlər,*
*Kəmfürsətlər hər yerdə*
*düz işini əyərlər.*
*Dikbaşlığın nə verdi*
*zəmanədə, de, sənə,*
*Budur, yerin zindandır,*
*günün ah-vaydır yenə...*

Poemada keçən bu və bu kimi misralar, ümumiyyətlə, Zaman və Şəxsiyyət, Şair və İctimai mühit problemini daha çox qabardır. Bu cəhətdən hər iki obyekti tənqid zamanı qarşılıqlı münasibətlərə, real vəziyyətə nəzər salmanın vacibliyini ehtiva etmiş olur. Bu misralar həm də hər cür ziddiyyətli, mürəkkəb, hətta qəddar ictimai şəraitə və onunla münasibətdə olan insana - şəxsiyyətə obyektiv nəzər salmağı təlqin edir. Poemanın bu tərzi bizi təkcə Xaqani ilə zamanını deyil, ümumiləşdirmə sayəsində Vaqifi və Zamanını, Hüseyn Cavid və Zamanını, Səməd Vurğun və Zamanını və b. kimi oppozisiyalar daxilində aydın qavrayışa, düzgün ədəbi-ictimai təhlilə dəvət etmiş olur.

### *Bu oppozisiyalar daxilində*

**oxucunu dövrü qəddar və amansız olan bir şəraitdə şairinə obyektiv baxmağa dəvət etdiyi kimi, şairi yaltaq, qorxaq və mədhiyyəçi olan dövrə də doğru yanaşmağı təlqin etmiş olur. Bu baxımdan müəllif hər cür çalışır ki, Xaqani haqqında oxucuda obyektiv, aydın, qərəzsiz təəssürat yaranmış olsun: oxucu dövrü, zamanı da, onun şairini, şəxsiyyətini də qarşılıqlı münasibətdə necə varsa, o cür qavraya bilsin. Bu mənada poemada ustad Xaqaninin "İstəmirəm adımı çağırsınlar Xaqani, Mən yoxsullar şairi Xəlqaniyəm, Xəlqani" misrası da özünəməxsus dəyişimlə istifadə edilmişdir:**

*Deyirəm daha məni*
*çağırmayın Xaqani,*
*Mən yoxsullar şairi*
*Xəlqaniyəm, Xəlqani!*

Poemada Xaqaninin ömrünün sonlarına doğru daha əyilməz və inadkarlaşmış xasiyyəti qabarıq şəkildə təqdim edilir. Müəllif Xaqanini bütün ağrı və acıların, kədər və üzüntülərin, sınaq və yoxlamaların qarşısında möhkəm iradəli, sınmaz xarakterli olaraq təqdim edir. Şirvanşah Mənuçöhr və oğlu Axsitandan küsən Xaqanini sarayı tərk etdikdən sonra nə qədər israrla saraylara dəvət etsələr də, o qəbul etmir və öz kasıb daxmasında oturmağı hökmdara xidmətdən üstün tutur. Poema müəllifi Xaqaninin ətrafını bürüyən paxıl və xainlərdən ibarət sədaqətsiz saray mühitini VII fəsildə daha aydın əks etdirir. Çünki üzdə Xaqana yaltaqlanıb onu mədh edənlər Xaqani təxəllüslü bu istedadlı şairi Xaqanın gözündən salmaq və ona düşmən etmək üçün hər cür əməldan çıxırlar. Lakin məlum olur ki, üzdə Xaqana mədh deyib onu öyənlər, şairi ona xəyanətdə günahlandırıb gözündən salmaq və cəzalandırmaq həvəsində olanlar özləri Xaqana qarşı sui-qəsd marağında olanlar, nifrət və xəyanətlərini gizlin-gizlin fəaliyyətə çevirənlərdirlər. Buna görə də bu qaranlıq işlərin üstü açılandan və xainlərin gizlin planları ortaya çıxandan sonra Xaqan Mənuçöhr onların özlərini cəzalandırır və xəyanətin layiqli cəzasını verir.

Taleyin də Xaqaniyə qarşı acımasızlığı əsərdə unudulmayıb. Giley-güzar, şikayət və kədər dolu şeirlərinin təsiri ilə müəllif şair Xaqaninin övladlarının (oğlu və qızının) itkisindən doğan sonsuz ata kədərini də bütün poetik qüvvətilə əks etdirib. Lakin heç nə Xaqanini bir daha saraya dönməyə vadar edə bilmir və öz kasıb daxmasında şair Xaqani "yoxsullar şairi Xəlqani" olaraq yaşayır və öz etibarını, hörmət və nüfuzunu qoruyur. Bu baxımdan əsərdə müəllif xüsusi həvəs və bədii zərurətlə Xaqani Şirvaninin dalınca evinə gələn İsmətəddinlə görüşünü də ayrıca fəsil daxilində təqdim edib.





### *Şairin həyatında xüsusi yeri olan*

**İsmətəddini və onunla görüşünü öz poemasına daxil etmək müəllif üçün əhəmiyyət kəsb edirdi. Poemada Xaqani ilə İsmətəddinin münasibətinə dair xüsusi və ya hər hansı bir məlumat yer almayıb. Lakin, məlumdur ki, bu, Şirvanşah Mənuçöhrün bacısı İsmətəddindən bəhs edir. O İsmətəddin ki, şairlə aralarında müəyyən məhəbbət duyğuları keçib və şair "Eşq və məhəbbətdə guşənişinlik və Mənuçöhrün bacısı İsmətəddinin mədhi" adlı şeirini məhz ona həsr edib.**

Poema müəllifi də şair Xaqaninin həyatına enmək, onun saraydan duyduğu nifrini daha qabarıq əks etdirmək üçün İsmətəddinlə görüşü və şairin Şirvana dönüşü üçün onun yalvarışlarını daxil edib. Xaqani hətta İsmətəddinin yalvarışlarına baxmayaraq saraya dönməkdən imtina edir və saray şairi olmağı birdəfəlik rədd etmiş olur. Müəllif bununla əslində Xaqaninin qəlbinin dərinliyində və həyatının gizlinlərində qalan eşq ağrısını belə aşaraq saraya getməməsi nüansı ilə onun saraylara olan nifrətinin qüvvətini təzahür etdirmək istəmişdir.

Poemanın epiloqu da maraqlı misralarla süslənib. Məşhur "Şairlər qəbiristanlığı"ndan (Məqbərətüş-şüəaradan) bəhs edən, burada onlarla Azərbaycanın söz dühasının uyuduğunu bildirən poema müəllifi vaxtilə "söz mülkünün şəhriyarı" kimi böyük şöhrət qazanmış Xaqani Şirvaninin də məzarının burada olduğunu və bu müqəddəs məkanda uyuduğunu özünəməxsus poetik vüsət və həssaslıqla ifadə edir. "O, sözünün önündə diz çökdürdü zamanı, Sözüylə Günəş kimi gəzdi bütün cahanı. ...Şeirləri Günəştək dünya gəzir, dolanır, Cahan onun sözünün işığına boyanır", - deyə yazan Asim Yadigar bu kimi misraları ilə bir tərəfdən ədəbiyyat tarixində Xaqaninin qazandığı hörmət və etibardan bəhs edir, eyni zamanda özünün Xaqani kimi ustad bir şairə olan sonsuz məhəbbət və ehtiramını ifadə etmiş olur.

Ümumiyyətlə, poema xaqanişünaslıq üçün xüsusi əhəmiyyəti olan bir əsər olaraq dəyərləndirilə bilər.

### *Xaqani haqqında*

**geniş təfərrüata yol vermədən onun sənətinin əsl məziyyəti və qüdrətini poetik ifadəyə çevirən şair Asim Yadigar sözü və şəxsiyyətilə zülm və istibdad dolu geniş ictimai qüvvələrə, hakimlərə və hakimiyyətə qarşı üsyankar etirazı və mübarizə ruhu əxz edən qəzəbilə döyüş açan mərdanə bir şairin obrazını yaratmışdır. Bu davranış nə qədər həyatı saray adamlarına mədhiyyələr yazmaqla keçən bir şairin gerçək həyatına, tərcümeyi-halına uyğun olmasa da, yanlışlarına nifrin və qəzəb yağdırıb özünü arındıran, əsərlərinin bir çoxunu ictimai eybəcərliklərə, zülmə, şərə qarşı mübarizə və üsyana həsr edən qüvvətli şairin əsl, yaddaqalan simasını ortaya qoymuşdur.**

Məhz bu Xaqani Xəlqanilik ruhunu özündə ehtiva edən, şairlik vəzifəsini ləyaqətlə təmsil və əks etdirən bir şəxsiyyət, söz ustadı, xalqın sevdiyi şəxs olaraq təzahür tapır. Müəllif o Xaqaninin obrazını yaradır ki, sözü hələ XII əsrdə hər cür zülm və istibdada qarşı, azadlıq əleyhdarlarına qarşı ildırım kimi çaxır, tufan kimi tozanaq qoparır, zülmü, sitəmi, məhrumiyyət və məhkumiyyəti ortadan qaldırmağa cəhd edirdi. Məhz bu ictimai məzmunlu əsərlərin pafosunun üzərində zamanın söz bayraqdarı, intibah qüdrəti, əsalət ehtivası olan Nizami Gəncəvi irsi, Nizami sözünün qüdrəti meydana gəlir.

### *Çox oxunaqlılıq və maraq kəsb edən əsər*

XIII fəsil və Epiloqla bitirsə də, oxucunun qəlbində tamamlanmayan bir əsər təəssüratı yaradır. Əsər elə bir istedad və təblə, böyük həvəs və cuşla yaradılıb ki, oxucu əsərin nə zaman bitdiyinə təəccüb qalır və bu şirin, oxunaqlı əsərdən ayrılmaq istəmir. Ümumiyyətlə, ədəbi fikirdə özünə layiqli yer tutacaq bu poemaya müəllifin yenidən qayıtmaq və onu zənginləşdirmək ehtiyacını oxucuların maraq dairəsi və müraciətləri zərurət yaradacaqdır. Əsər həm də böyük bir insanın obrazını yaratmaq baxımından da bütün dövrlər üçün özünə əhəmiyyət qazanmaqla böyük maraq və diqqət oyandırır. Poemanın Azərbaycan ədəbiyyatı tarixində Xaqaniyə həsr olunan əsərlər arasında qəti və xüsusi bir yerə malik olduğunu da məmnuniyyətlə deyə bilərik. Bu əsər bütün oxucu kütləsinin maraq dairəsinə uyğun yazıldığından gələcəkdə məktəblilər üçün də maraqlı bir əsər olaraq oxudulacağına əminliyimizi bildirə bilərik. Əsərə rəy yazan akademik Nizami Cəfərovun da bu sözlərini həm əsər, həm də müəllif haqqında ən yaxşı təhlil, şəffaf və obyektiv münasibət olaraq qiymətləndirmək olar ki: "...bu günə qədər xaqanişünaslıq böyük şair-mütəfəkkiri Azərbaycan mədəni-ictimai təfəkküründən nə qədər mümkündürsə, o qədər uzaqlaşdırmaq baxımından əlindən gələni əsirgəməmişdir. Asim Yadigarın neçə illər üzərində işlədiyi "Xaqani" poemasının ilk fəsillərini oxuyanda, sözün açığı, məndə belə bir təsəvvür yarandı ki, həmin "uzaqlaşdırma" prosesi məlum inersiya ilə davam edir: nə "Proloq", nə birinci, nə ikinci, nə də üçüncü fəsil məni açmadı... Niyə? Ona görə ki, müəllifin ...misraları nə qədər axıcı olsa da, belə bir sual doğururdu ki, Xaqaninin dünya (və zaman) ilə bu cür cəngi-cidalının bir səbəbi olmalı idi, ya yox?...

### *Dördüncü fəsildən etibarən*

Xaqani tarixdən bizə məlum olan xarakteri, şəxsiyyəti (və başlıcası, poema müəllifinin zəruri ideya-estetik interpratasiyası) ilə görünməyə başlayır. Və bu, o qədər effektli görüntüdür ki, hətta belə bir təsəvvür yaranır ki, ilk fəsillərdəki ümumi mülahizələr hadisələrin sonrakı dramatizmi üçün hardasa uğurlu üslubi hazırlıq, stilistik üslubi manera imiş. Və bundan sonra elə bil orta əsrlərə məxsus kamil bir mənzum xalq romanını dinləyirsən..." (Cəfərov N. Asim Yadigarın "Xaqani" dastanı. // A.Yadigar. Xaqani (poema). Naxçıvan: Əcəmi NPB, 2020, 108 s., s. 3-5.) Əsərin digər rəyçisi olan Əməkdar elm xadimi, professor Hüseyn Həşimli də əsəri belə səciyyələndirir:

**"...istedadlı şairimiz Asim Yadigarın "Xaqani" poeması ustad sənətkarımızın taleyi, şəxsiyyəti, ömür yolu, mübarizələri barədə dolğun təsəvvür yaradan, onu oxucuların daha yaxından tanımasına kömək göstərən, "kimdir Xaqani?" sualına poeziyanın dili ilə cavab verən dəyərli, dolğun bir əsərdir" (Həşimli H. Böyük ustadın adına layiq // A.Yadigar. Xaqani (poema). Naxçıvan: Əcəmi NPB, 2020, 108 s., s. 25.) Beləliklə, poema Xaqani kimi söz ustadına həsr olunmuş bədii əsərlər arasında bütün ədəbi-bədii məziyyətlərinə görə ləyaqətlə təmsil olunur. Bu lirik-epik poemanın geniş oxucu kütləsinin zövqünü oxşayacağına, maraq dairəsini yaxşı mənada istila edəcəyinə tam əminlik ifadə edə bilərik.**

**Ramiz QASIMOV**
**AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, dosent**

# Seçkilərə yox, süngü və qana inanan diktator: Franko

**O, doğulanda İspaniya nəhəng dəniz imperatorluğu statusunu itirməsinin kədərini və bunu super güc Amerikaya uduzmasının qəzəbini yaşayırdı. Ölkə imperatorluq idarəçiliyindən qopmuşdu, özünə yeni üsulu axtarırdı. Məhz belə dövrdə yetişən Franko (əsl adı Fransisko Paulino Ermenegildo Teodulo Franko Baamonde) atası kimi donanmaya qoşulmağı arzulasa da, 1898-ci ildə İspaniya-Amerika müharibəsi nəticəsində İspaniya donanması məhv olmuşdu. Donanmada ixtisarlar gedirdi və 14 yaşındakı Franko quru qoşunlarına yazılmağı lazım bildi. Ölkədəki ən prestejli hərbi akademiyalardan birində üç il təhsil aldıqdan sonra baş leytenat kimi orduya yazıldı və iki il xidmət etdi. 1900-cü illərin ilk illəri idi. Xalq çökən imperatorluğa görə hökümətə etiraz edirdi. Hökümətsə keçmiş günlərə qayıtmaq üçün ən yaxın ərazilərə əl atdı: Mərakeşə. Onsuz da XV əsrdən etibarən bu ölkəylə bağlı imperailist arzuları var idi. Və həmin günlərdə Mərakeş karyera qurmaq istəyən ispan hərbiçisi üçün tək seçim idi. Franko Mərakeşdə ona tapşırılan əməliyyatlara qoşulanda 1912-ci il idi.**

### *Mərmiyə qarşı qaçan adam*

İyirmi yaşı olanda Mərakeşdə qazandığı uğura görə ölkəsinin ən yaxşı hərbi medallarından olan "la Cruz Militar"ı qazanmışdı. Hətta El Biurtzdakı döyüşlərdə qarnından ölümcül yaralanmasına rəğmən qısa zamanda sağalaraq təkrar əlinə silah almışdı. Ehtirası yarasını sağaldacaq qədər güclüydü. Bunun nəticəsində İspaniyanın şimalındakı Asturias qarnizonuna polkovnik olaraq döndü. Frankonun general rütbəsinə yüksəlməsi çox çəkmədi. Sürətli addımlarla hərbi iyerarxiyanı keçirdi. Saraqosadakı hərbi akademiyanın rəhbəri olanda hələ 36 yaşı var idi.

İspaniya 1923-30-cu illər arasında 1923-cü ildəki çevrilişlə hakimiyyətə gələn, o zamankı kral XII Alfonsun da razılığını alan general Miguel de Rivera tərəfindən idarə olunmuşdu. Kral tərəfindən baş nazir təyin olunan Rivera İspaniyanı dəmir yumruqla idarə etməyə başladı. Konstitutsiyanı ləğv etdi, fövqəladə vəziyyət elan etdi, kimsəyə nəfəs almağa imkan vermədən bütün siyasi partiyaların fəalliyətini dayandırdı. Lakin zülmü çox çəkmədi. 1930-cu ildə dəstəyini itirdikdən sonra vəzifədən çıxarıldı.

Onun istefasıyla kral 1931-ci ildə taxtdan enərək ölkəni tərk etdi. Və beləliklə İspaniya ikinci dəfə respublika rejiminə keçdi. Hər nə qədər monarxiya quruluşunu sevsə də Franko bu vəziyyətdə özünü kölgədə saxladı və gələcək hərbi karyerasını riskə atmaq istəmədi. Amma yenə də canını qurtara bilmədi. Monarxiyaya dəstək verən yüksəkçinli zabitlərdən uzaqlaşdırılaraq Madriddən kənarda fərqli vəzifələrə təyin edildi. 1933-cü ildə respublika böhrana girdi. Vəd etdikləri gerçəkləşmirdi. Respublikaçılarla sol qanad arasındakı ixtilaf ölkəni yeni seçkilərə apardı. Millətçilər hakimiyyətə gəldi. Millətçi hökümətin ağır iş qaydalarına etiraz edən Asturiasdakı mədən işçiləri üsyan edəndə 1934-cü il idi. Üsyanı yatırtmaq üçün güc tətbiq etməyə çağrılan adamsa general Frankodan başqası deyildi. Əsgərləri üsyanı yatırdı. Öz xalqına qarşı amansızlıqla qazandığı bənzərsiz "uğur" onun baş qərargah rəisliyinə yolunu açdı.

### *Vətəndaş müharibəsinə doğru atılan addım...*

***1936-cı il seçkiləri yaxınlaşanda respublikaçılar və sol qanaddan olan fraksiyalar toplaşaraq Xalqçı cəbhəni yaratdı və hakimiyyətdə qalmağı bacardılar. General Franko təhlükəli insan hesab edilərək Kanar adalarına sadə bir vəzifəyə təyin edildi. Həmin ilin 17 iyulunda başlayan millətçi hərəkat İspaniyanı sarsıtdı.***

Franko Kanar adalarının idarəçiliyini ələ aldıqdan sonra millətçilərin ələ keçirdiyi İspaniya tabeçiliyindəki Mərakeşə uçdu. Həmin günlərdə millətçilər ispan ordusu ilə birlikdə çevriliş planı hazırlamış, amma bu plan uğursuz olmuşdu. Bununla da İspaniyada vətəndaş müharibəsi başladı. Franko üçün səhnəyə çıxmaq zamanı gəlmişdi. 1936-cı ilin sentyabrında Franko Millətçi Ordunun rəhbəri oldu və dərhal özünü dövlət başçısı elan etdi. Vətəndaş müharibəsi rəsmi olaraq 1939-cu ilin 1 aprelində başa çatarkən İspaniyada yeni bir səhifə açılırdı: Franko diktatorluğu!

### *Franko diktatorluğa başlayır*

***Ölkədə vətəndaş müharibəsi bitmiş, amma iqtisadiyyat və siyasət çökmüşdü. Franko və tərəfdarları millətçilərin zəfərini amansız təbliğatla beyinlərə yeritmiş, qalib millətçilərlə məğlub respublikaçılar arasında siyasi bölünmə daha da dərinləşmişdi. Generalın müharibədən başı yaxşı çıxsa da iqtisadiyyat haqqında bunu deyə bilmərik. II Dünya müharibəsi başlayandan sonra Franko Hitlerin tərəfini tutdu. Müharibədən öncə də alman liderlə aralarında sıx əlaqə var idi.***

Vətəndaş müharibəsi əsnasında Hitlerə aid Condor birliyi Bask şəhəri olan Guernicada respublikaçıları bombardman etmiş, yüzlərlə ispanın ölümünə səbəb olmuşdu. Hakimiyyətə gəlmək üçün öz vətəndaşlarının başqa ölkənin silahlıları tərəfindən qətlə yetirilməsinə izn verən Franko bu cinayətinə görə heç zaman cəzalanmayacaqdı. Hitlerlə Franko 1940-cı ildə İspaniyanın Nasist Almaniyasına dəstək verməsi üçün görüşsələr də Frankonun Hitlerə yardımı heç vaxt çatmadı. Onsuz da qoca qurd almanların məğlub olmağa başladığı 1943-cü ildə bitərəfliyini elan edərək müharibədən sonrakı hesablaşmadan canını qurtarmaq istəmişdi. Amma bu uğurlu olmadı. Müharibədən sonra Franko və İspaniya izolyasiya olundu.

Müttəfiqlər İspaniyaya sanksiyalar tətbiq etdilər. Ölkə iqtisadiyyatı bundan böyük zərbə aldı. Amma bu vəziyyət çox çəkmədi.

### *Soyuq müharibəylə ulduzu parlayan diktator*



Soyuq müharibə ölkənin taleyini dəyişdirdi. SSRİ təhdidinə görə İspaniyanın boynundakı zəncirlər qoparıldı. Həmin dövrdə diktator olmaq önəmli deyildi. Önəmli olan hansı tərəfdə olmaq idi. Franko Amerika ilə ticarət və hərbi müqavilələr imzaladı. 1955-ci ildə İspaniya BMT-yə qəbul olundu. Həm Franko, həm də azad qərb kommunizmə nifrət edirdi. Artıq keçmiş düşmənçiliyi bir kənara qoyub irəliyə baxmalıydılar. Beləliklə, 60-cı illərdən etibarən ispanların iqtisadi vəziyyəti düzəlməyə başlayacaq, ispan möcüzəsi gerçəkləşəcəkdi. Franko özündən sonra şahzadə Juan de Borbonun İspaniya taxtında oturacağını bildirdi. Əslində isə 1947-ci ildə İspaniyanın monarxiya olduğunu elan etmişdi. Amma Karlosun adını dilinə alana kimi monarxik fəaliyyətin gələcəyini açıqlamamışdı. Özü iş başında olarkən, bir kralın ortada gəzməsi fikrinin yayılması heç də yaxşı hal kimi görünmürdü.

***İspaniya ancaq Amerika ilə müqavilələrdən sonra xarici əlaqələrə başlaya bildi. 60-cı illərdən başlayan turizm inqilabı ölkənin özünə gəlməsi üçün önəmli rol oynayacaqdı. Amma ölkənin rahat nəfəs alması üçün diktatorun ölməsi lazım idi.***

Hakimiyyətdə olduğu müddətdə Franko da digər diktatorlar kimi müxaliflərə meydan oxudu, həmkarlar ittifaqlarına ağız açmağa imkan vermədi. Bütün bu basqılarda hərbi polisin böyük rolu olmuşdu. 70-ci illərdə Franko yoxuşdan aşağı enməyə başlamışdı. 1973-cü ildə baş nazirə müəyyən səlahiyyətlər versə də özü dövlət başçısı və ordu komandanı olaraq qalmışdı. Baş nazir təyin etdiyi Luis Carrero Blanco onun heyranı idi. Franko özündən sonra İspaniyanın yad əllərə düşməyəcəyini düşünürdü ki, Blanco Madriddə Eta qruplaşması tərəfindən törədilən terror aksiyasında öldü.

Bəzilərinin bildirdiyinə görə, Blanconun ölümü Frankonun səhhətinin pisləşməsinə səbəb oldu. Amma maraqlıdır ki, bu hadisə ölkənin demokratik gələcəyə yönəlməsində də önəmli pay sahibi olmuşdu. Blanconun xələfi, liberal siyasi islahatlar edəcəyi təminatıyla hakimiyyətə gələn Carlos Arias Navarro oldu. Franko 1975-ci ildə öldü. Ölümüylə birlikdə İspaniya təkrar dünyanın müzakirə mövzusuna çevrildi.

Ölkənin ipləri 22 noyabrda tac qoyan Juan Carlosun əlinə keçdi. 1978-ci ildə keçirilən referendumda diktatorun aldığı bütün səlahiyyətlər və haqlar geri qaytarıldı. Bask bölgəsi və Kataloniya təkrar muxtar vilayət oldu. 1986-cı ildə ölkənin Avropa İttifaqına qoşulmasıyla diktatorun yoldan çıxardığı ölkə, nəhayət, sakit limana lövbər atmış oldu.

***Diktatorun ölümündən uzun müddət keçməsinə baxmayaraq ispanlar Frankoyla hesablaşmayıb. Adı bütün binalardan silinsə də ruhu ispanları hələ də narahat etməyə davam edir.***

1939-75-ci illər arasında İspaniya Frankonun İspaniyası olaraq tanındı. Bəzi ispanlara görə onun ölkənin başına gəlmiş ən gözəl şey, digərlərinə görəsə təbii ki, ən pis şey idi.

### *İspaniya vətəndaş müharibəsi necə başladı?*

1936-cı ildə bir qrup monarxiya tərəfdarı respublikaçı hökümətə qarşı çevriliş etdi. Ölkə respublikaçı solçular və millətçi monarxistlər olmaqla ikiyə bölündü. Millətçilərin lideri Franko oldu. Vətəndaş müharibəsi üç il davam etdi. 350 min insan öldü. Sevinən tərəf millətçilər oldu. Bu eyni zamanda dövlətlərarası ideoloji müharibə idi. Həm millətçilər, həm respublikaçılar xaricdən dəstək aldılar. Hər iki tərəfdən minlərlə əcnəbi dəstəkçi öldü. Hitler və Mussolini Frankonu, Stalinsə göndərdiyi yüzlərlə tank və təyyarəylə solçu respublikaçıları dəstəkləmişdi. Corc Oruel və Ernest Heminquey kimi qərbli ziyalılar da respublikaçılar tərəfində döyüşdü. Nəticədə udan Franko oldu. Diktatorluğunu elan etdi. Franko və tərəfdarlarının törətdikləri terrora ağ, respublikaçılarınkına isə qırmızı adı verilmişdi. Frankonun törətdiyi cinayətlərin yanında sönük qalsa da, respublikaçılar da 40 minlə 100 min arasında insanı qətlə yetirmişdi. Xüsusi qeyd edə bilərik ki, Franko düşmənlərinə söylədiklərini etmişdi: "öldürdüyünüz hər adamıma qarşılıq olaraq on adamınızı öldürəcəyəm."

***

***Vətəndaş müharibəsi əsnasında Franko özü kimi faşist olan Hitler və Mussolininin yardımlarını aldı. Bu dövr Frankonun "Ağ terror" olaraq tarixə keçən fəaliyyəti nəticəsində 200 minə yaxın dinc sakin həlak oldu.***

***

***Vətəndaş müharibəsindən qalib ayrılan Franko rəqiblərini təmizləməyə davam etdi. "Qırmızı" olduğu iddiasıyla minlərlə insan sorğu-sualsız edam edildi. Öz xalqını məhv etməkdə Stalin və Mao Frankonu kölgədə qoysa da generalın əməlləri özündən sonra gələn diktatorlara örnək olmuşdu.***

### *Bəzilərinə görə xristian cəngavəri idi*

Franko amentus idi. Bu yöndəki proqramları yerinə yetirdi. Eynilə Almaniyada olduğu kimi (ölkənin idxal etmədən özünü təmin etməsi) qatı əxlaq Frankonun təməl bazalarından olmuşdu. Bununla birlikdə Frankonun Hitlerdən fərqi də olmuşdu. Alman həmkarı dinə qarşı olduğu halda Franko xristianlığın cəngavəri kimiydi. Bu gün belə ona heyranlığını gizlətməyən ispanlar Frankonu milli dəyərlərin və dinin müdafiəçisi olaraq bağırlarına basarlar.

### *Son heykəli dağıdılmadan diktatorlar ölməz*

İspaniyada hökümət general Frankonun paytaxt Madriddəki son heykəlini ölümündən 30 il sonra, 2005-ci ildə yerindən götürdü. Diqqət çəkməsin deyə, heykəl gecə saatlarında sökülmüş, hadisə əsnasında bir qrup Franko tərəfdarı ispan faşistlərinin marşı olan Cara Solu oxumuşdu. Ölümündən və İspaniyanın demokratiyaya keçidindən sonra ölkənin dörd bir yanındakı Franko heykəlləri və abidələri sökülməyə başlandı.

### *Klassik faşist diktator olmadı*

**"Rejimimiz süngülər və qanla yüksəlir, ikiüzlü seçkilərlə deyil", - deyən Frankonun tam olaraq faşist diktator olduğunu söyləyə bilərikmi? Əslinə baxanda isə həm bəli, həm də yox. General faşizmin bəzi əsaslarını həyata keçirsə də bəzilərini gündəmə heç salmamışdı. Millətçi idi, keçmişlə qürur duyurdu, müxalifətə göz açdırmadan "birlik, bərabərlik" mahnıları oxuyurdu. Bununla birlikdə diqqət çəkən məqam onun digər faşist liderlər kimi hərbi sahəni böyütməməsi idi. Ona görə "İspaniya ispanlar üçündür" və digər şeylər fantaziyadan başqa şey deyil. Yaxın və uzaq torpaqlarda gözü olması üçün hər hansı səbəb görməmişdi. Franko Hitlerin mistik utopiyasına və üstün irq deyimlərinə fikir vermədi. Bəlkə də praqmatik olmağından irəli gəlirdi. Onun siyasəti İspaniyanı Almaniya və İtaliyanın fəlakətli taleyini yaşamaqdan xilas etdi. Belə deyə bilərik ki, Frankonun faşizmi hər mənada yarımçıq faşizm idi.**

**Tərcümə və hazırlayan:**
**Emin Piri**

Rövşən Tahir



# 101 ilin mübarək, Bakı Dövlət Universitetim

*"Bəzi təsirli xəyallar var ki, onlarda ən ülvi həqiqətlər gizlənir"*

***Viktor Hüqo***

**Yazımda Viktor Hüqonun dediyi kimi, ən ülvi həqiqətlərimdən, ən təsirli xəyallarımdan bəhs edəcəm sizə. Onlardan ki, mən həmin xəyalları universitetdə yaşamışam, onlardan ki, ayrı-ayrı dövrlərdə həmin həqiqətlər məni universitetimdən ayrı salıb. Universitet barədə olan xatirələrimi elə təsvir edəcəm ki, yaşadığım hisslər, duyğular bütün təfərrüatı ilə burada əks olunsun. Bakalavr həyatıma bir o qədər də nəzər salmayıb BDU-dan ayrı düşdüyüm günlərimin acısını yazacam sizə. O vaxta qədər ki, mən onun magistr adını qazanırdım.**

**O tarixi anı, o tarixi günü (Ona görə tarixi an deyirəm ki, qarşıda bu günün mənim həyatımda nə qədər əhəmiyyətli olduğunun şahidi olacaqsınız) heç vaxt unutmaram. 19 iyun saat 20.00 radələrində elə öz universitetimin müəlliminin göndərdiyi mesaj ilə yeni səhifənin açıldığını hiss etdim həyatımda. Bəli, mən BDU-nun Jurnalistika fakültəsinin magistr dərəcəsinə daxil olmuşdum. Bu hissi ilk dəfə abituriyent vaxtı yaşamışdım, yəni 2013-cü ilin 7 avqustunda. Yeniyetmə xəyallarında olan bir universitetin tələbəsi olmaq adını qazanmışdı. O gündən başladı mənim "BDU" hekayəm və bu hekayədə yer alan səmimi cümlələrim.**

**İlk tədris günündə universitetimin qarşısına keçdim, onunla doğma bir insan kimi salamlaşıb öz vədlərimi verdim: hər zaman adını uca tutacaq, aldığım təhsili bəşəriyyətin inkişafına, cəmiyyətin tərəqqisinə sərf edəcəyəm.**

**4 il ərzində daim özümü təkmilləşdirib universitetimə layiqli tələbə olmağa çalışdım. Nə dərəcədə oldum, bunu mən deyil, müəllimlərim deyə bilər. Amma bacardığım qədər çalışdım ki, yaxşı olum. 4 il müddətində onunla birlikdə addımladıq. Nəhayət, indi belə söyləyərkən gözlərimin dolduğu bir an gəldi ki, məni universitetimdən ayrı saldı: məzun gecəsi! Məhz o gün hiss edirdim ki, həmin tarixdən başlayaraq mən ayrılıq acısını yaşayacam. Elə bir acını ki, onu heç nə ilə ovutmaq mümkün olmayacaqdı. Yalnız və yalnız onun özünə qayıtmaqla bu yaraya məlhəm tapmaq olardı və tapdım da.**

**Hər bir yazıçının geriyə qayıtmağa ixtiyarı var, mən də 2017-ci ilə, hətta bu yazının başlıq hissəsində söylədiyim hadisənin başlandığı vaxtdan-magistr adını qazanmağımdan da bir az əvvəllərə boylanıram. Əsgər olduğum dönəmdə yazdığım dəftərimi açır, ayrı düşdüyüm universitetim barəsində yazdığım məqalədən olan parçalara yer verirəm. Cümlələrimə heç bir yeni fikir əlavə etmədən keçirdiyim hisslərimi, duyğularımı o zaman olduğu kimi sərgiləyir, dərci o vaxt üçün mümkün olmayan və bir əsgərin yalnız ağ vərəq üzərində yazıb gizli saxladığı məqaləni bu gün bu yazımda işıqlandırıram. Beləliklə, 2017-ci il 8 sentyabr tarixi:**

**"Növbəti görüşümüz harada olacaq, bunu deyə bilmirəm. 1 il, 2 il, neçə il sonra görüşəcəyik, bunu da deyə bilmirəm. Amma bir şeyi əminliklə deyə bilirəm ki, 4 il boyunca sənə arxalandım, sənə güvəndim, mənim doğma universitetim. Bəzən bizdən asılı, bəzənsə bizdən asılı olmayan səbəblərə görə qarşımızdakı yollardan birini seçməli oluruq. Mən də bu ilin iyun ayında səndən ayrı düşmək yolunu seçdim...Önümdə bir insantək durub sual versən ki, peşmansanmı? Deyərəm ki, çox...**

**Düz 1 həftə sonra sən yeni-yeni tələbələri qarşılayacaq, bir neçə il boyunca onlara da öz qayğını, öz sevgini göstərəcək, qucağını onlara da açacaqsan. Bəs mən? Mən nə edəcəm? Bu sualı cavablayarkən valideyn qayğısından məhrum olan bir körpə kimi boynumu bükür, sakitcə susub dayanıram. Kaş ki, sənin magistrin olmaq şərəfinə nail olar, səninlə daha 2 il boyunca addımlayar və elə gələcək həyatımı, bütün ömrümü də sənə calayardım. "Kaş ki" ifadəsi bu an elə qəribə səslənir ki... Mən ümid edirəm, hətta əminliklə də deyirəm, həyatımı sənə növbəti dəfə bağlayacam. Mənsiz keçən tədris ilin uğurlu olsun, Bakı Dövlət Universitetim".**

**1 il necə gəldi, keçdi, heç özüm də bilmədim. Yuxarıda qeyd etdiyim kimi, əsgərlikdən dönər-dönməz yenidən kitablarımla baş-başa qalıb, hədəfimə doğru irəlilədim. Axı həyatımın isti ocağına geri qayıtmaq lazım idi. Ağır oldu. Yaddan çıxan dərslərə yenidən nəzər salmaq, onları xatırlamaq, hələ ki, bunları işləyərək edirsənsə, daha ağır oldu. Amma imtina etmədim. Çünki bu çətinliklərə nəyin yolunda qatlanırdım, çox gözəl bilirdim, əlbəttə ki, universitetimin!**

**Magistr adını qazanıb səninlə ötən tədris ilini pis-yaxşı günlər içərisində başa vurduq. Bu tədris ili isə məlum səbəblərdən yenə də bir-birimizdən aralıyıq. Lakin mən ümid edirəm, hətta əminliklə deyirəm, həyatımı sənə növbəti dəfə bağlayacam. Mənsiz, bizsiz, insanlarsız keçən 101 ilin mübarək, Bakı Dövlət Universitetim. Tezliklə görüşmək ümidi ilə...**

## *Yaponiyanın cənubunda 100-dən artıq aviareys ləğv edilib*



**Yaponiyanın aviaşirkətləri tayfun səbəbindən 119 daxili aviareysi ləğv ediblər.**

Cədvəllərdəki dəyişikliklər əsasən Yaponiyanın cənubundakı Kaqosima və Okinava prefekturalarındakı hava limanlarından uçuşlara təsir edib.

Bildirilir ki, tayfun nəticəsində həmçinin 8 nəfər xəsarət alıb. Məlumata əsasən, hazırda tayfun Çin istiqamətində irəliləyir. Tayfunun mərkəzində küləyin sürəti saniyədə 45 metr təşkil edir.

**MEHRİBAN**

# Ömür də bir kitabdı...

*"Həyata yenidən başlasaydım,*
*Saniyələrin də nəbzini tutardım".*

**Dostoyevski**

**Daxilən gözəl, mənəvi cəhətdən zəngin olan insanlar hörmət və ehtirama layiqdirlər. Mənəvi zənginlik insanın ən ümdə xasiyyətidir. Səfər müəllimin özü də mənəvi cəhətdən zəngin, daxilən xeyirxah insanlardan biridir. Bu da onun şəxsiyyətini, böyüklüyünü müəyyənləşdirməyə imkan verir. Məhz buna görə də o ən təmiz hiss və arzularıyla, əməllərilə tanınır, əsl insan kimi sevilir.**

Bilirik ki, ictimai həyatın aparıcı qüvvəsi insandır. O insan ki, bir-birindən müəyyən mənada tale müxtəlifliyi ilə fərqlənir.

Zəhmətkeş, çöhrəsi daim təbəssüm işığına qərq olan nurlu şəxsiyyət, bacarıqlı ictimaiyyətçi, dəyərli alim Səfər Əhli oğlu Hüseynov da öz zəkasını zamana uyğun əks etdirməyə müvəffəq olub. Onun ömür, həyat və seçdiyi peşə yolu hazırki gənclərimiz üçün,sözün əsl mənasında bir örnəkdir.

Səfər müəllim sağlam düşüncə və pak əməllə Azərbaycanın milli dövlətçilik işinə və elmi quruculuğa xidmət edir, çalışdığı bütün illərdə və bu gün də cəmiyyətin inkişaf prioritetinə təkan verib, yüksək ad daşıyır - şərəfli alim adı. Elə bir ad ki, onun şəxsiyyətinə də, soy-kökünə də, elmi fəaliyyətinə də yaraşıqdır. Bu gün də onun timsalında onu tanıyanların xoş xatirələrində bir Azərbaycan oğlunun, çöhrəsi nurlu vətəndaşın, dəyərli bir alimin əlli beş illik həyat yolu canlanır.

***Səfər Hüseynovun zəngin, çoxlarının həsəd apardığı bir ömür yolu var. 1965-ci il avqust ayının 1-də İmişli rayonunun Muradxanlı kəndində anadan olub. 1982-ci ildə Muradxanlı kənd orta məktəbini bitirib. Elə həmin ildə Azərbaycan Mühəndis İnşaat İnstitutunun inşaat fakültəsinə daxil olub, 1989-cu ildə ali məktəbi qurtarıb Bakı şəhər Sovetinin "Bakı Baş Tikinti İdarəsi"nin Sənayeləşdirilmiş Evtikmə İstehsalat Birliyində mühəndis vəzifəsində işləyib. 1983-1985-ci illərdə hərbi xidmətdə olub.***

Səfər Hüseynovun keçdiyi mənalı həyat yolu qürurvericidir. Ləyaqətli, şərəfli ömür yoludur. Tərcümeyi-halındakı tarixlər, tutduğu vəzifələr onun işıqlı yolun yolçusu olduğundan xəbər verir. Bakı şəhər Sovetinin "Əsaslı tikinti idarəsi"ndə şöbə rəisi, Dövlət Layihə Mənzil Tikinti Birliyinin 5 saylı İxtisaslaşdırılmış, Təmir-Tikinti İdarəsinin rəisi vəzifələrində vicdanla, ləyaqətlə çalışıb. 2001-ci ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirib. Nazirlər Kabinetinin "Təsərrüfatlararası Dövlət Layihə Mənzil Tikinti Birliyi"nin mərkəzi aparatında əvəzçilik üzrə hüquqşünas vəzifəsində çalışıb. 2001-2005-ci illərdə Sumqayıt Dövlət Universitetində "Hüquq və sosiologiya" kafedrasında müəllim işləyib.

### *Haqqı nahaqqa qurban verməyən,*

***qaranlığı aydınlaşdıran, ürəyi insanlara sevgi ilə döyünən Səfər Hüseynov 2000-ci ildən 2006-cı ilədək "İnşaatçı-2000" şirkətinin direktoru olub. Yeni Azərbaycan Partiyasına üzv qəbul edilib. O, həm də ziyalıdır, elm adamıdır. Onun iç dünyasında Avropa alimlərini üç yüz il qabaqlayan Əl Fərabinin, Bəhmənyarın, Uluq bəyin, Nəsirəddin Tusinin, Şeyx Cəmaləddin Əfqaninin ruhu dolaşır. Bu qüdrətli şəxsiyyətlərin, müdrikliyin, məğrurluğun zirvəsində dayanan bu dahilərin işığından işıq alan, nur alan Səfər Hüseynov həmin o şəxsiyyətlərdən güc alaraq ziyalılıq, mərdlik alimlik zirvəsinə ucalıb.***

2009-cu ildə "İkilaylı qeyri-bircins lövhələrin həndəsi qeyri-xəttililiyi nəzərə almaqla dayanıqlığı və rəqsləri" mövzusunda dissertasiya müdafiə edib. Ali Attestasiya Komissiyası tərəfindən texnika üzrə fəlsəfə doktoru elmi dərəcəsi, 2017-ci ildə isə dosent elmi adı alıb.

Doktorluq işi hazırdır, müzakirə ərəfəsindədir.

Azərbaycan Respublikası Prezidentinin 18.04.2012-ci il tarixli sərəncamı ilə "Əməkdar mühəndis" fəxri adına layiq görülüb.



2006-cı ildən 2017-ci ilədək Azərbaycan Dövlət Pedaqoji Universitetində inzibati-təsərrüfat işləri üzrə prorektor işləyən Səfər müəllim 2018-2019-cu ilə kimi "Azərbaycan Sənaye Korporasiyası" ASC-nin "Tikinti və tikinti məhsulları"nın istehsalı şöbəsində aparıcı mühəndis işləmişdir. Səfər Hüseynov 2019-cu ilin may ayından Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnnnovasiya Mərkəzinin maliyyə və təsərrüfat şöbəsinin müdiri vəzifəsində çalışır.

### *Səfər müəllimi başqalarının gözündə ucaldan*

onun sadəliyi və diqqətciliyidir. O, sadə, səmimi və uşaqdan böyüyə hər kəsə diqqətlə yanaşan insan olduğu üçün xalq arasında da, işdə də, ailədə də böyük hörmət və ehtirama layiqdir. Onun sadəliyi həm də daxili saflığından irəli gəlir. Onun mənfi keyfiyyətlərdən uzaq olması da sadəliyi ilə bağlıdır. O, vəzifədən vəzifəyə yüksələndə də dəyişməyib, olduğu kimi görünüb, göründüyü kimi olub.

***Haşiyə: Halal ruzisi ilə dolanan bir kişi varmış. Bir gün şər qarışan vaxt qapısı döyülür. Kişi qapını açır və görür ki, eşikdə üç nəfər nabələd adam durub. İndi bunlara nə desin, nə təhər içəri dəvət etsin? Axı, daxma çox darısqaldır. Üç nəfər buraya necə sığışacaq? Qardaşlardan biri deyir:***

**- Əmi, biz üç qardaşıq! Mənim adım Hörmətdi, ortancıl qardaşım Dövlətdi, kiçik qardaşımın adı Şöhrətdi. Vəziyyəti belə gördük, heç olmasa birimizə yer elə!**

Kişi də qayıdıb deyir ki, Hörmət buyursun içəri. Qardaşların hər üçü qabağa yeriyir. Kişinin çaşıb qaldığını görən qardaşlar deyirlər ki, ağsaqqal, hörmətin mərtəbəsini uca tutmaqla elə hər üçümüzə bir gözlə baxdın, çünki hörmət olan yerdə şöhrət də var, dövlət də.

Səfər müəllim də belə hörmətli, şöhrətli kişilərdən biridir və bütün bunlar onun tale, qisməti, bəxti deyil, öz böyük, geniş qəlbinin, el-oba üçün döyünən ürəyinin, gecəsini gündüzə qatdığı günlərinin hesabı olan halal payıdır. Səfər müəllim yaxşı ailə başçısıdır. Ömrü-gün yoldaşı Nazilə xanım Azərbaycan Milli Konservatoriyasının nəzdində olan İncəsənət Gimnaziyasında direktor müavini işləyir.

***Oğlu Sənan İqtisad Universitetini bitirib. Azərbaycan Milli Konservatoriyasında aparıcı mühasib işləyir.***

***Səfər müəllimin qızı ADPU-nu qurtarıb. Azərbaycan Dillər Universitetində müəllim işləyir.***

Övladlarından söhbət düşəndə Səfər müəllimin üz-gözündə sanki çıraq yanır. Onları əsl insan kimi böyütməsindən fərəhlənir, qəlbinə, ürəyinə sərinlik gəlir. Bu ailədə böyüyən, tərbiyə alan övladlar Səfər müəllimin, Nazilə xanımın böyük dünyalarıdır. Onlar valideynlərinin etimadını doğruldub xeyirxahlıq zirvəsinə ucalıblar...

Səfər müəllimin ömür yolu bir kitaba sığmaz. Bu da o deməkdir ki, həyat hər bir insanın tale çalarları ilə özünə rəng qatır.

### *Uzun illərin təcrübəsi göstərir ki,*

Səfər müəllim həyatının ən çətin anlarını səbr və təmkinlə mühafizə edə bilib. Bu mənada "Hər ömür bir kitabdır" deyənlər yanılmayıblar. Çünki hərə öz ömrünü bir kitab kimi oxuyur. Səfər müəllim də öz ömrünü səhifə-səhifə yaşayıb və kitab ömrü qədər möhtəşəm bir ömür qazanıb. Onun ömür salnaməsində yüz illərin möhtəşəm fəvvarələri çırpınmaqdadır. O vaxtın, zamanın uca tutduğu ziyalıdır. Xeyirxahlıq, zəhmətə bağlılıq çalışdığı sahəyə sevgisində açıq-aşkar görünür. Bununla da ucalıq qazanır.

Unudulmaz xalq şairi Bəxtiyat Vahabzadə demişkən:

*Yalnız başqasını düşünən zaman,*
*Qalxır insanlığın fövqünə insan.*

Bəli, insan doğulur, yaxşı əməlləri ilə ad qoyur, sonra da hər kəsin sevimlisi olur. Bizim haqqında yazdığımız Səfər müəllim kimi.

Səfər müəllim bir insan ömrü yaşayır, əsl insan kimi həyatda özünü təsdiq eləyib. Təsdiq eləyib ki, mən varam və mən həmişə də var olacağam.

**Sabir Hüseynov,**
**"Kənd həyatı" qəzetinin**
**baş redaktoru, yazıçı**

# O elə bir oğuldur ki...

**Həyatda elə adamlar var ki, sanki bu dünyaya ancaq yaxşı əməllər sahibi olmaq üçün gəliblər. Yaşadıqları ömür yolunda qarşılaşdıqları heç bir çətinlik onları qorxutmur. Bərkə boşa düşdükdə daha da mətinləşir, insanlara etdikləri yaxşılıqlardan zövq alır, bunu öz həyatlarının mənası hesab edirlər.**

Belə insanlardan biri də ömrünü bütünlüklə Azərbaycan prokurorluğuna həsr edən hazırda təqaüddə olan, Azərbaycan prokurorluğunun fəxri işçisi, baş ədliyyə müşaviri Seyfəddin Həsənovdur. Mənim Seyfəddin müəllimlə tanışlığım çox uzaq illərə gedib çıxmasa da haradasa 30 ildən çoxdur ki, onu tanıyıram. Tanışlığımızın ilk günündən onun yerişinə duruşuna, xasiyyətinə az-çox bələdəm.

Ötən bu illər ərzində onunla çox həmsöhbət olmuş və hər dəfə də xarakterində yeni bir şey kəşf etmişəm, başa düşmüşəm ki, xalqın rəğbətini, məhəbbətini qazanmaq asan olmadığı kimi, həmin adı qoruyub saxlamaq da bir o qədər asan deyil. Onun üçün də Seyfəddin müəllim qazandığı təmiz adı qoruyub saxlamağı həmişə özününün həyat amalı hesab edib.

Mən hər il onun ad gününün bir yazı ilə təbrik edirəm. Bu artıq ənənə halım olub.

***Yaşanan ömrün tale yazısı qədər olduğunu bildirən müdriklər söyləmişlər ki, pul qiymətlidir, zaman isə hər şeydən qiymətlidir. Çünki zaman ağıllı, yaxşı, yetkin və kamil olmaq üçün insana verilmiş ən qiymətli həqiqətdir. Deyilənə görə Tanrı özünə daha yaxın bildiyi, daha ürəkdən sevdiyi bəndələrinə yalnız özünə məxsus olduğu nurdan pay verir, onların qəlbini, vücudunu işığa qərq edir. Qismətinə belə tale yazılmış insanlardan biri də Seyfəddin Həsənovdur.***

Seyfəddin Həsənov ehtiram, hörmət, izzət sahibidir. Belə ömür yaşamaq hər adama nəsib olmur. Bu sadəcə Allah vergisi, Allah sevgisidir. Seyfəddin Həsənov sözün həqiqi mənasında nəcib və xeyirxah insandır. Ən nəhayət gözəl ata, şirin babadır. Biz sözlə dəyanətli, qeyrətli, sədaqətli və humanist Azərbaycan kişisidir. Ona hamı yaxşı adam deyir və mən həmişə düşünmüşəm ki, niyə ona hamı yaxşı adam deyir. Məgər başqa bir adla çağırmaq olmazdımı?



Sonda bu qənayətə gəlmişəm ki, əlbəttə başqa bir adla çağırmaq olardı. Ancaq xalq seçim edəndə yanılmır. Seyfəddin müəllim heç bir təqdimatsız, heç bir mübadiləsiz və nəhayət heç bir xüsusi tapşırıqsız özü üçün əməlinə, şəxsiyyətinə, qabiliyyətinə yaraşan bir titul qazanıb. Bu elə bir tituldur ki, onu ancaq ətraf sənə bağışlayır.

Böyük iftixar hissi ilə deyə bilərəm ki, həmişə haqqın tərəfində olduğun üçün el-oba yanında, kollektivdə, qohum-əqrəba yanında başın uca olub və bu gündə ucadır.

Bu səviyyəni sən Allahın böyük səxavətlə verdiyi yüksək fərdi keyfiyyətin əsasında öz zəhmətkeşliyin və təvazökarlığın sayəsində əldə etmisən.

Adam var ki, ötən günləri yada salanda təəssüf hissi keçirir. Amma Seyfəddin Həsənov keçdiyi ömür yolunun zirvəsindən geri baxanda qürur hissi keçirir. Çünki arxada qalan illər ona şərəf gətirib.

O illər ki, ağrısı-acısı, sevincikədəri olub. Elə Seyfəddin müəllimi yaşadan sabaha bir addım irəli aparan da həmin ümidli günlərdi. O günlər ki, arada xoşbəxt ailə, xoşbəxt övladlar, xoşbəxt nəvələr var. Seyfəddin müəllim özü bu haqda belə deyir:

***-Mən yola saldıqım illəri yada salanda fərəh duyuram. Ulu Tanrı məni heç vaxt darda qoymayıb. Düz 65 il bundan əvvəl, sentyabrın 7-də Naxçıvan MR. Culfa rayonun Xanağa kəndində anadan olmuşam. İndiki Bakı Dövlət Universitetinin hüquq fakültənin fakültəsini qurtarmışam. İki qız bir oğul övladım var. Hər üçü alı təhsillidir. Oğlum da hüquqşünasdır. Əmək fəaliyyətinə Sumqayıtdakı Boru -yayma zavodunda başlamışam. Burada hüquq şöbəsinin rəisi, zavod komsomol komitəsinin katibi olmuşam. O, zaman bu zavodda üç min nəfərdən çox gənc işləyirdi. Xaçmazda əvvəl hakim sonra prokuror, Qubada prokuror, Respublika prokurorluğunda idarə prokuroru, Biləsuvarda Sabirabadda prokuror işləmişəm. İnsan qazandığı uğur üçün həddən ziyadə sevinməməlidir.***

Onun ölçüsünü , dərəcəsini bilməlidir. Prokuror ömrü yaşamaq həm məsuliyyətli həm də şərəflidir. Hörməti insanın özü qazanır. Prokuror sözünün latınca mənası "qayğı göstərən" deməkdir. Harada işləmişəmsə xeyirdə, şərdə iştirak etmişəm, bu gün də iştirak edirəm. Təqaüddə olsam da zəng edirlər, axtarırlar.

Prokuror sağlam düşüncəli və ədalətli olmalıdır. Prokuror ömrü yaşamaq çətin və məsuliyyətli olduğu qədər də şərəflidir. Bu ömrü elə yaşamalısan ki, yaxşı mənada daim xatırlanasan.

Dahilərdən biri deyib ki, yaş insanı qocaltmır, müdrikləşdirir. İndi Seyfəddin Həsənov daha qürurlu, daha məğrur, daha müdrik gorunu. Onu belə qürurlu edən keçdiyi həyat yoludur.

*Arzudan yoğrulub, hər kərpic, hər daş*
*Özün ucaltmısan öz abidəni*
*Necə ki, əlimdə qələm var qardaş*
*Mən də yazacağam söz abidəni*

65 yaşın mübarək Seyfəddin müəllim. Tanrı sizinlə olsun, Tanrı sizi qorusun.

**İbrahim Abdullayev**

***ELVİN İNTİQAMOĞLU***



## *BOŞ DÜNYA*

**Təsəvvür et:**
**Yer qatı var, göy qatı var,**
**İnsan adlı canlı yoxdu...**
**Təsəvvür et:**
**Dünyanı yoxdan yaradan Tanrı var,**
**Palçıqdan insan fiqurun**
**düzəldəcək Tanrı yoxdu!**

**Təsəvvür et:**
**Nə Həvva var, nə də Adəm,**
**Nə də onlardan törəyən davamçılar...**
**Nə savab var, nə günah var,**
**Nə cənnət var, nə cəhənnəm!**

**Təsəvvür et:**
**İnsan əliylə qurulan bina yoxdu,**
**İnsan əliylə salınan meşə yoxdu...**
**Sənət yoxdu, peşə yoxdu:**
**Dünya çılpaqdı, lümlütdü,**
**Ona paltar tikən yoxdu...**
**Boş dünyanın boşluqların**
**Karandaşla çəkən yoxdu!**

**Təsəvvür et:**
**Bir-birini sevən yoxdu,**
**Xəyanət eyləyən yoxdu...**
**Tanrı boş-bekar dayanıb göy üzündə**
**Şikayət eyləyən yoxdu!**

**Təsəvvür et:**
**Ölkə yoxdu, şəhər yoxdu...**
**Ərazilər ümumidir,**
**Müharibə edən yoxdu, pozan yoxdu atəşkəsi...**
**Yoxdu şəhid qarşılayan ananın qışqırıq səsi!**

**Təsəvvür et:**
**Şeytan vaxt öldürə bilmir,**
**Kimsə yoxdu hiyləsinə aldanacaq, kimsə yoxdu səhv edəcək...**
**Vəzifədən çıxardacaq,**
**Tanrı onu məhv edəcək!**

**Gör necə sakitçilikdi,**
**İnsanların olmamağı dünya üçün bol sevincdi...**
**Sən Allah, təsadüfə bax:**
**Dünya boşdu, insan dincdi,**
**İnsan yoxdu, dünya dincdi!**

## *BAYRAQ*

**Parçadan bayraq tikənlər,**
**Gələn səfər qırmızısın çox edin...**
**Qırmızı rəng bəs etməsə,**
**İynəni torpağa sürtün -**
**Qanı yerdə qalmasın heç bir şəhidin!**
**Şəhidim, bağışla bizi,**
**Biz sizinlə əlbir olub döyüşlərə girmədik...**
**Neçə-neçə ay-ulduzlu paqonlu mərd itirdik -**
**Təki Vətən sağ olsun,**
**Şükürlər olsun üçrəngli ay-ulduzu itirmədik!**
**Əsir sərt şimal küləyi...**
**Dənizdən bir gəmi keçir,**
**Dəniz ona arxalanır -**
**Gəminin alt hissəsində şıltaq dəniz ləpələnir,**
**Gəminin üst hissəsində bayrağımız dalğalanır!**

**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

**№ 99 (2133) 3 sentyabr 2020-ci il**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# O, elm adamı idi

**Ulu Tanrı yaratdığı dünyanın bütün maddi və mənəvi sərvətlərini bərabər şəkildə bəşər övladının istifadəsinə vermiş, əvəzində heç bir istək və təmənnada olmamışdır. Allahın yaratdığı təbiətin əsrarəngiz gözəlliyi, əvəzedilməzliyi ondadır ki, yaradılmış bütün canlı aləm, o cümlədən təbiət fövqəladə dərəcədə gözəl görünür, bəşər övladını estetik gözəlliyə məftun edir, heyranlandırırdı...**

O insan dahiyanə müdriklik fəaliyyətinə malik olur ki, həyatda olduğu kimi göründüyü kimi də olur. Yəni onun həyata, dünyaya baxışı və danışığı, əməli də özü kimi təbii, bəzək-düzəksiz, yaddaqalan olur.

Firudin müəllimi yada salmaq istərkən bu qeydlərlə yanaşı, fikirim düşüncə süzgəcindən keçdi: böyük şəxsiyyətlər əvvəlcə şam kimi yana-yana öz evini, ocağını, ailəsini işıqlandırır.

Sonra məşəl kimi yana-yana kəndini, elini, obasını işıqlandırır. Nəhayət, Günəş kimi yana-yana millətini, Vətənini, dünyanı və bəşəriyyəti işıqlandırır. Tarix boyu xalqımız işıqlı, nurlu, elmli, bilikli, təfəkkürlü böyük şəxsiyyətlərlə o qədər zəngin olub ki, onlar bəşəriyyətə bəşəri gözlərlə, fəlsəfi düşüncələrlə baxıblar. Həqiqəti, ədaləti həmişə uca tutublar.

**Tarix elmləri doktoru, professor Firudin Sərdar oğlu Əsədov da məhz bəşəri gözlərə, fəlsəfi düşüncələrə, yüksək təfəkkür tərzinə malik, sayılıb-seçilən şəxsiyyət zirvəsinə yüksələn, həm elm sahiblərinin, həm də onu tanıyan sıravi vətəndaşların yaddaş süzgəcindən keçən alim, ziyalı, ağsaqqal, sədaqətli dost, geniş ürək, iti zəka sahibi, elinə, obasına bağlı olan yurd təəssübkeşi idi. O alimlikdən əvvəl əsl Azərbaycan vətəndaşı idi, həqiqət onunçün məhək daşıydı.**

Firudin müəllimi oxucuya tanıtmaq istəyi yarananda o, gözlərimin önünə gəldi, maraqlı söhbətlərini xatırlamalı oldum. Söhbətlərindən doymaq olmurdu, ondan ayrılmaq istəmirdim. Ağsaqqal ziyalı adama o qədər doğma, isti münasibət bəsləyirdi ki, ondan doymurdu. Firudin müəllimin ağayana duruşu, danışığı, baxışı, hər kəlməsi, sözü düzünə deməsi, sadəlikdə aliliyi, təbiiliyi, nikbinliyi, keçmişlə bu günümüzü qovuşduran tarixi biliyi bitib-tükənmək bilmir, kamil insan olması qənaətinə gəlirdim. Hər batan günəş ömrümüzün bir gününü aparırsa da, səhər doğuşuyla yeni günə qovuşdurur bizi... Beləcə yaşayırıq, varislərimiz bizi əvəz edir. Ya nəsib, ya qismət!

***Avtobioqrafiyasına baxıram, mənalı həyatı burada öz əksini tapıb. Elm adamı Firudin Əsədov 1936-cı ildə Lerik rayonunun Cəngəmiran kəndində təvəllüd tapmışdı. Onun gənclik illəri 2-ci Dünya Müharibəsinə, ondan sonrakı dövrə təsadüf edir. Lerik qəsəbə orta məktəbini tamamladıqdan sonra İcraiyyə Komitəsində katib-kargüzar kimi əmək fəaliyyətinə başlamışdı. Sonra ADU-nun tarix fakültəsinə qəbul olunmuş, elə o vaxtdan tarixçi kimi həmyaşıdlarından seçilmiş, bəzi təhrif olunmuş tarixi hadisələr, faktlar onun diqqətini cəlb etmişdi. Gələcək kitablarında o bunlara aydınlıq gətirəcəkdir. Əlinə keçən tarixi kitabları, elmi əsərləri şəxsi kğitabxanasına yığmışdı. Kitab onun üçün müqəddəs bir yolgöstərən kompas idi.***



1958-ci ildə təyinatla Lerik rayonuna göndərilən Firudin müəllim tarixi qədim olan Orand kənd səkkizillik məktəbinə direktor təyin olunur. Sıldırımlı dağlarla əhatələnmiş çətin keçilən dağ yolları ilə hərəkət etmək, sərt iqlim şəraiti onu qorxutmayıb. O, həm kənd əhalisi ilə, həm də şagirdlərlə, müəllim heyəti ilə ünsiyyət tapdı, tarixi hadisələr, kəşf olunmamış yerüstü abidələr, dağlarda sovet hökumətinin necə qurulması, Talışda qaçaqçılıq hərəkatı barədə tapıntıları və maraqlı söhbətləri onun müəllim kimi nüfuzunu artırdı, Firudin müəllimi bəzən "Cəngəmiranlı alim" deyə müraciət edirdilər. Sonralar o, bu adı doğruldub, tarixçi alim kimi məşhurlaşıb.

Bir ildən sonra Lerik Rayon Partiya Komitəsinin qərarı ilə "Kolxoz yolu" (indiki "Lerik") qəzetinin məsul katibi təyin olunub. Sonra isə rayon maarif şöbəsində metod kabinetin müdiri kimi yenidən pedaqoji cəbhəyə qayıdıb.

Gənc elmi işçi elmdə və ictimai mühitdə tanınmaq, qatı açılmamış arxivlərə işıq salmaq üçün intensiv axtarışlar, müqayisəli təhlillər apardı, təkzibolunma dəlillər onu söz sahibi etdi, ona tarixçi alim səlahiyyəti verdi.

***Arxivlərdə tapdığı qatı aşılmamış orijinal faktlar, qadağan olunmuş mövzular onun elm adamı olduğunu göstərirdi. Firudin müəllim ilk növbədə az öyrənilmiş bir mövzu üzərində elmi tədqiqatlar apardı, həqiqətlərin üzə çıxması üçün elmi kitabxanalara baş vurdu: necə ki, qəvvas dəryaya baş vurur. O, 1966-cı ildə "Talış xanlığının tarixi" adlı fundamental əsərini tamamlayaraq Müdafiə Şurasına təqdim etdi və bir il sonra tarix elmləri namizədi alimlik dərəcəsi aldı...***

Keşməkeşli və ziddiyyətlər dolu olan Talış xanlığının tarixinin öyrənilməsi Azərbaycan tarixinin ayrılmaz hissəsi idi və alim qatı açılmamış bir çox məsələlərə aydınlıq gətirdi.

***O, Azərbaycan EA Tarix İnstitutunda işlədiyi dövrdə elmdə dəstixətt saxladı, gənc alimlərə düz yol göstərdi. Kiməsə həsəd aparmadı, kin-küdurətdən uzaq oldu. Elmi-pedaqoji fəaliyyətinin məhsuldar dövründə 200-dən çox elmi məqalənin, çoxlu publisistik yazıların, "Dar gündə yaxşı arxa", "Talış diyarının tarixinə bir baxış", "Çarizmi Azərbaycana gətirənlər" (S.Kərimova ilə birgə) və s. on kitab yazıb tariximizi daha da oxunaqlı etdi. Elmi konfranslarda, alimlərin yığıncaqlarında maraqlı elmi məruzələri, auditoriyada tələbələr qarşısında yaddaqalan mühazirələri ilə seçildi və sevildi, tanındı və tanıtdırdı...***

XIX əsr Azərbaycan tarixi sahəsində istedadlı tarixçi alim, nümunəvi kafedra müdiri, ictimai fikir tariximizdə özünəməxsus dəst-xətti ilə fərqlənən yaradıcı alim kimi tanınan Firudin Əsədov bütün işıqlı həyatını elmə, pedaqoji sahəyə həsr etmişdi, tariximizin qaranlıq səhifələrinə işıq saçırdı. 1969-cu il idi. O, müsabiqə yolu ilə Azərbaycan Politexnik İnstitutunun tarix kafedrasında işə qəbul olundu. 1982-ci ilə qədər burada çalışdıb.

Həmin ildə iş yerini dəyişərək Lenin adına APİ-yə keçdi, dosent vəzifəsinə qəbul olundu. 1989-cu ildə elmi fəaliyyətində yeni uğur qazanır, "Azərbaycan XIX əsrin birinci yarısında" mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə etdi, 1995-ci ilə qədər bu qocaman təhsil ocağında dərs dedi. Həmin tarixdən Bakı Əmtəəşnaslıq Kommersiya İndtitutunda tarix kafedrasına rəhbərlik etdi.

2018-ci ilin mart ayı idi. Novruz bayramına sayılı günlər qalmışdı. Martın 16-da bütün müsəlman aləmi bayrama hazırlaşarkən Furudin müəllim gözlərini əbədi olaraq yumdu. Firudin müəllimin həyat enerjisi tükəndi, həyata 82 yaşında "əlvida" dedi. O, elmini, biliyini də özü ilə apardı. Bütün tayfa, el-oba, alim dostları, tələbələri alimin xatirəsini ehtitamla yad etdilər, onu özü qədər sevdiyi Ana Torpağa tapşırdılar. Cəngəmiran kəndi alim oğluna yas saxladı...

"Alim öldü, aləm öldü" demədilər. Qartal baxışlı, dümağ saçlı Firudin Sərdar oğlu əsərlərində, tələbələrinin ömürlərində, doğmalarının xatirələrində yaşadı...

**Müdriklik çağlarını yaşayarkən ağsaçlı alimi, iç dünyası zəngin olan mehriban bir insanı, gənc nəslə örnək olan şəxsiyyəti itirdik. İtirdik demək olarmı? Axı, o yazdığı əsərlərində, işıqlı təfəkküründə, tələbələrinin, övladlarının xatirələrində, genetik yaddaşlarda yenidən doğulub yaşayır. Ruhu qanadlanıb aydın sabahlara doğru uçur, elə hey uçur...**

***İdris Şükürlü,***
***Əməkdar jurnalist***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

# Dost yanğısı, elə can yanğısıdı

*"Vətəndən aralı düşən eloğlu,*
*Çəkdiyin qovğalar, qallar yamanmış!*
*Dikəndə gözünü doğma ellərə,*
*Xəbərsiz-ətərsiz yollar yamanmış!"*

*Aşıq Hüseyn Saraclı*

**Söhbət açacağım mərhum dostum Eldar Nəsibli Sibirel ilə "Elm və Həyat" jurnalının redaksiyasında tanış olmuşam. Özümüz də bilmədən bir-birimizə çox isinişmişdik. Həmin illərdə mən onun işlədiyi jurnalda tez-tez elmi məqalələrlə çıxış edərdim. Jurnal elmi jurnal olsa da çox dəbdə idi. Mənim işlədiyim Akademiyanın insitututunda da Azərbaycan türkcəsində çox az-az adamlar yazılar ərsəyə gətirərdilər.**

Hətta müdürümüz elmi istiqaməti göstərməklə onun adından məqalə yazmağı mənə tapşırardı. "Bizimkilərdən" fərqli olaraq, "Elm və Həyat"da çap olunmağı mən xoşlardım. Eldarla yanaşı burada isti-qanlı digər insanlar da var idi. Amma mən oraya daxil olan kimi Eldarı axtarardım. O, bəzən mənimlə söhbətə şeirlə başlayardı. Qazax-Borçalı bölgəsindən xeyli ziyalılar da tanıyırdım. Onlardan söz-söhbət açanda Eldar çox şad olar, mənim söhbətlərimə "qüvvət" verərdi.

Mənim Səməd Vurğundan, qardaşı Mehdixan müəllimdən, Səyyad müəllimdən və digər dəyərli ziyalılarımızdan söhbətlərim Eldarı valeh edərdi. Hətta Eldar fərəhlənib mənə şeirdə qoşmuşdu. Bizim bu xoş, saf münasibətimiz o, dünyasını dəyişənə kimi davam etmişdir. Lakin onların ailəsinin Sibirə sürgün edilməsi, Eldarın o sərt şaxtada işıqlı dünyaya göz açması, ailəsinin iztirabları məni həmişə çox kədərləndirərdi.

### *Bunun bir səbəbi də*

bizim ünsiyyətimizlə yanaşı, nəslimizin sovetlər dönəmində məhv edilməsi, Sibirə, Qazaxstana sürgün edilməsi, "üçlüyün" sorğu-sualsız nəslimizin kökünün kəsilməsi idi. Bütün bunlar çox uzun söhbət olduğundan əsas yolumdan uzaqlaşmaq istəmirəm. Elə Eldar da öz dərdini mənə "niyə Sibirel?!" sualıma cavab verməklə hər şey aydınlaşmışdı. Ancaq bu söhbətləri biz hamının yanında deyil, ikilikdə olanda açıqlayardıq. Bir sözlə, ziyalılıqdan əlavə "həmdərd"liyimiz də var idi.

***İndi isə əvvəl-əvvəl əziz oxucularımızı gözəl şair Eldar Nəsibli Sibirelin bu yaxınlarda çapdan çıxmış "Seçilmiş əsərlər" kitabında onun keçdiyi yol haqqında verilmiş qısa məlumatlarla tanış etmək istəyirəm.***

"Eldar Nəsibli Sibirel 1952-ci ildə Sibirin Baxçar bölgəsinin Çernişovka kəndində anadan olub. Valideyinləri 1948-ci ildə Sibirin Tomsk vilayətinə sürgün edilib. Valideyinləri bəraət aldıqdan sonra sürgündən öz doğma yurdlarına Qazax bölgəsinin Sarıvəlli (İkinci Şıxlı) kəndinə qayıtmış və orta təhsili orada almışdır. 1974-cü ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakultəsini bitirib, təyinatla "Ədəbiyyat və incəsənət" qəzetinə gəlmiş, 3-4 ay əmək müqaviləsi ilə işlədikdən sonra, həmin ilin dekabr ayından "Elm və Həyat" jurnalında əvvəlcə ədəbi, Baş ədəbi işçi, şöbə redaktoru və məsul katib vəzifələrində çalışmışdır.

### *1991-ci ilin yanvarından*

***Respublika Qızıl Aypara Cəmiyyətinin dəvəti ilə həmin təşkilatın təzə nəşr etdiyi "Mərhəmət" jurnalının Baş redaktoru olmuşdur. 1997-ci ildən 2010-cu ilədək "Azərbaycan" qəzertində bölgə müxbiri vəzifəsini yerinə yetirmişdir.***

Keçmiş SSRI-nin Qırmızı Xaç Və Qızıl Aypara Cəmiyyətinin Moskvada keçirilən 11-ci Ümumittifaq qurultayına nümayəndə seçilmişdir. Eldar Nəsibli 1982-ci ildə Ukraynanın lvov şəhərində düzənlənən 12-ci poeziya festivalının, gənc yazıçıların 1984-cü ildə Moskvada keçirilən 8-ci Ümumittifaq müşavirəsinin iştirakçısı olmuşdur.

O, 9 yaşından yaradıcılığa başlayıb. Şairin "Ağacların söhbəti" adlı ilk şeiri 1968-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində işıq üzü görüb. "Salam, dan ulduzu", "Məni səsləyən var", "Harayla məni", "Dünya məndən gəlib, keçir", "Bu da bir ömürdür ağlı, qaralı", "Bura qazaxdır, oğlum!", "Turan şərqisi" şeirlər kitablarının, "Yaddaş" poemasının və "Yaşamaq da igidlikdir" xatirə kitabının müəllifidir. Yüzlərlə elmi-publisistik məqalələrin müəllifidir. Eldar Nəsiblinin şeirləri bir çox dillərə tərcümə edilmişdir. Onun şeirlərini tərcümə edənlərdən biri də Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü Mahir Həmzəyevdir. Həmin şeirlər M.Həmzəyev tərəfindən litvada çap olunmuşdur. O, 1982-ci ildə SSRI Yazıçılar Ittifaqına üzv seçilib. 1986-1987-ci illərdə Filarmoniyada yaradıcılıq gecəsi keçirilən üç gənc şairdən biridir.

Postsovet məkanında Eldar Nəsiblinin şeirlərinin çapına respublika və ittifaq mətbuatlarında geniş yer ayrılıb. O, həm də tərcüməçi olmuşdur. Marina Svetayeva, Yevgeni Yevtuşenko, Sergey Yesenin kimi bir çox tanınmış rus şairlərinin, eləcə də görkəmli rumın şairi Mixail Emneskonun şeir və digər əsərlərini Azərbaycan türkcəsinə çevirib. Xalq şairlərindən Osman Sarıvəlli, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, ədəbiyyatşünas alimlərdən Şamil Cəmşidov, Mirsli Seyidov, Vahid Xəkəfov, Abbas Səmədov və başqaları Eldar Nəsiblinin yaradıcılığı haqda respublika, eləcə də ittifaqın qəzet və jurnallarında yüksək fikirlər söyləyiblər.



Onun bir çox şeirinə musiqi bəstələnmişdir. Dəyərli şairimiz Eldar Nəsibli Sibirel 11 oktyabr 2010-cu ildə Qazaxda baş verən avtomobil qəzasında həlak olmuşdur".

Eldarın faciəli ölümü, onun ailə üzvləri ilə yanaşı bütün dost və tanışlarını da qəm dəryasına bürüdü, istedadlı şairimizin Azərbaycan ədəbiyyatındakı yaradıcılığına son qoydu.

### *Unudulmaz şairimizin yaradıcılığı*

**zəngindir, çoxşaxəlidir, vətənə, doğruluğa, dəqiqliyə, haqqa-ədalətə söykənəndir və ən nəhayət sevgi-məhəbbət yönlüdür. Bu yazımızda onun yaradıcılığının hamısına baş vura bilməsək də, müəyyən istiqamətini nəzərdən keçirmək niyyətindəyik. Onun kitabının əvvəlində də, doğma torpağa, ata-baba yurduna vurğunluq özünə yer almış, oğlunun simasında bütün gənclərə öz tövsiyyəsini vermişdir.**

***Gözünü aç bu elə, bu obaya yaxşı bax!***
***Damcılısında durul, Dəli Kürə qarış, ax!***
***Ərlər, ərənlər yurdu olub bu ulu torpaq!***
***Hər kaha, hər mağara sirli Azıxdır, oğlum,***
***Bura Qazaxdır, oğlum!***

Təqdim etdiyim misradan göründüyü kimi Eldar Nəsibli vətənlə, vətən torpağı ilə, onun dəyərli insanları ilə fəxarət hissləri keçirən bir yaradıcı ziyalımızdır. Onunla yaxınlıq edən, mütəmadi görüşən bir şəxs kimi deyə bilərəm ki, Eldar Nəsibli milli-mənəvi dəyərlərimizə, qədim el qaydalarımıza, kişi sözünə və onun məntiqi mənasına çox dəyər verən bir insan idi. Deyilən mənada onun "Mən köhnə kişiyəm..." şeiri xüsusi maraq doğurur və keçdiyi yola, düşüncələrə bir işıq salır.

**Mən köhnə kişiyəm, bala,**
**Nuh adlı sirdən gəlmişəm.**
**Hara türk ayağı dəyib,**
**Mən həmin yerdən gəlmişəm.**

Göründüyü kimi, o, təkcə məxsusi xüsusiyyətləri ilə özünü, millətini köhnə kişi hesab etmir. Həm də yer üzündə insanlığın yaranışında türkün Nuh törəmələri olduğuna işarə edir. Onun özünə mənsub millətçiliyi var, çox təmiz, çox pak, türk olması ilə fəxr edir, Qazax elindən başlamış bütün Turan türklərinin özünə qaydışını istəyir, növbəti əsrlərdə də yaşayacaq, bu insanların özlərinin-öz qədrlərini bilməsini arzulayır. Hörmətli şairimiz daha sonra keçmişini, gələcək arzularını və düşüncələrini oxucuları ilə bölüşür.

***"37" ağrım, acım?!***
***Bu taledən hara qaçım?!***
***Qalmayıb özgə əlacım,***
***Adsız qəbrdən gəlmişəm.***

Şairin yazdığından göründüyü kimi o, taleyindən gileylidi. Heç bir qəbahəti olmayan ailələri Sibirə, adsız qəbirlər yığnağına, şaxtalı-sazaxlı vəhşilər yaşamayan bir məkana sürülmüşlər. Onun dərdi-qəmi, kədəri təkcə sürgün olmayıb, ulu paytaxtımız olan Təbrizdir, Təbrizdən uzaq düşməkdir, vətənimizin ağ ayı ilə qaraçı farsların parçalamasıdır, qardaşı-qardaşa həsrət qoymasıdır, Şimalda da, Cənubda da dilimizin, tariximizin, milli kimliyimizin qadağan edilməsidir. Milli ziyalılarımız ancaq bu dərdlərlə yaşamalıdır ki, onu da həm də şair Eldar Nəsibli yaşamışdır.Nümunə göstərdiyim bu bəndlər tarixi bir sənətdir, Eldar Nəsiblinin kimliyini ortaya qoyan bir həqiqətdir.

### *Rus zülmkarlarının,*

erməni kələkbazlarının Azəri türk xqalqının başına açdıqları müsibətlərin sayı hesabı yoxdu. Bunu öz doğum günündən yaşayan Eldar Nəsibli yazır:

**Mən uzaq Sibirin bir yaz günündə,**
**Qarı dizə çıxan bəyaz günündə,**
**Dünyaya göz açıb, gəldim həyata.**
**Gəldim, gəlişimə qəmləndi hamı.**

Eldarı qınamıram, bu söhbətin xırdalığını onun dilindən eşidən bir şəxsəm, Tanrı belə faciələri heç kimin taleyinə yazmasın. Baxın görün ruslar bizləri hansı bəlaları düçar etmişdir ki, oğlan uşağı ilə, düşmən çəpəri ilə, ailənin duzu-çörəyi ilə fəxarətlənən Azəri türkləri, bu oğlanın həyata gəlməsindən narahatdır, fərəhlənmək əvəzinə qəm dəryasına qərq olurlar.

Lakin, Eldarın ailəsi toparlanır, özlərini ələ alır və əyilmək istəmirlər və bu məqamı şair nəzmə belə çəkmişdir.

***Onların saralmaz ümidlərini***
***Dondura bilmədi nə şaxta, nə qar.***
***Vətən yanğısına bir məlhəm kimi,***
***Sürgündə adımı Eldar qoydular.***

### *Şairin mətnindən göründüyü kimi,*

Eldarın özü kimi ailə üzvləri də mətin olmuşlar, Ana Vətəni unutmamışlar, onun həsrəti ilə daim alovlanmışlar. Ailə belə olmasaydı Eldar kimi dəyərli bir vətəndaş yetişdirmək müşkül məsələ olardı.

Tarixi gedişat, elm və milli-mənəvi dəyərlərimiz sübut etmişdir ki,hər şeyin növü, yaxşısı-pisi olduğu kimi insanın da dəyərsizi və dəyərlisi həmişə olmuşdur və Eldar, onun ailəsi belə bir dəyərli Azəri türk nəslini təmsil edirlər. O, şeirinin davamında daha sonra yazır:

***Sürgündə onlara oba, el oldum,***
***El oldu köksümü isidən ocaq.***
***Mən ordu dilimçün Anadil oldum,***
***Sən burda dilini unutdun ancaq.***

Eldar Nəsibli bu yazısı ilə sanki öz tərcümeyi-halını qələmə almışdır. O, çox sadəliklə bu yaşam tərzini hamının başa düşəcəyi dildə bizlərə çatdırmışdır.

***Ancaq onun birbaşa dediyi fikirlərlə yanaşı, sətraltı ifadələri də mövcuddur. O, buyurur ki, Sibirin dərinliklərində öz ana dilini saxlaya bilmiş, onu sevmiş, qorumuş və ona hörmətlə yanaşmışdır. Amma bizim elə insanlarımız da vardır ki, rusa, erməniyə, farsa nifrət etmək əvəzinə, rusca oxuduğundan onun dilində danışmağı öz vətənində də özünə ar bilmir. Beləlari rusun kimliyini bilmir, tarixin dərslərindən ibrət götürmür, öz millətinə dəyər vermir və hətta özünün kimliyini araşdırmır, yeddi arxa dönəmini tanımır, onların vətən yolunda çəkdikləri əzab-əziyyətləri bilmək belə istəmir, axirət dünyasında rahat yatıb-yatmayacağını xəyalına belə gətirmir. Bunlara sözüm birdir-sizlərə ar olsun!...***

Şairin ailəsinin Sibirə sürgünü onun qəlbində dərin şırımlar açmışdır, həm də ağrılı şırımlar, yaddan çıxmaz ağrı və iztirablar dolu şırımlar. O, bu hiss və duyğularını "Sibir-alın yazım, sinə dağımdır" şeirində çılpaqlığı ilə aşılaya bilmiş, daxili iztirablarını, ağır günlərini bircə-bircə sadalamağa müvəffəq olmuşdur. Həmin şeiri Azərbaycan oxucularına xatırladıram.

***Sibir alın yazım, sinə dağımdır,***
***Mən uda bilmirəm bu dərdi, qardaş.***
***Payızda-bayatım, qışda-ağımdır,***
***Ovuda bilmirəm bu dərdi, qardaş.***

Eldar Nəsiblinin bu müraciəti təkcə doğma qardaşına deyil, bütün millətə ünvanlanıb.Əslində Eldarın bu dərdi təkcə onu və ailəsini əhatə etmir, bütün Azərbaycan türklərinə aidiyyatı var. SSRİ dönəmində 15 respublika çərçivəsində ən çox əziyyət çəkən, öldürülən, Sibirə göndərilən, Qazaxstana sürgün edilən, məhkəməsiz çölü-biyabanda, dağ döşündə, dərə dərinliyində güllələnlərin sayı baxımından Azərbaycan birinci yerdədir. Baxmayaraq ki, Az. SSR həm əhalisinin sayına və həm də öz sərhədlərinə görə bu siyahıda sonuncu yerlərdən birini tutur. Bununla bərabər Azərbaycan SSRI-yə Moskvaya, rus imperiyasına ən çox mənfəət verən bir respublika olmuşdur. Azərbaycan insanı gecə-gündüz işləmiş, qazandığını, əldə etdiyini, təbii məhsullarını, yeraltı-yerüstü sərvətlərini sorğu-sualsız Moskvaya vermişdir. Amma bütün müsibətləri də bu millət çəkmişdir.

**(ardı növbəti sayımızda)**

**Ziyadxan Nəbibəyli**
**AYB-nin və AJB-nin üzvü, Qarabağ Müharibəsi Veteranı, Kanada və Rusiya Texniki Akademiyalarının, Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi üzvü, Yazıçı-publisist, t.e.d professor**

## Murad Dadaşov onu da Xəzər TV-yə gətirdi



**Redaksiyamıza daxil olan informasiyaya əsasən son dövrlərdə Xəzər TV-də köklü dəyişikliklər edən Murad Dadaşov aparıcı Şəhriyar Əbilovu da oraya gətirib.**

Adalet.az saytı olaraq məsələ ilə bağlı Şəhriyar Əbilovun fikirlərini öyrənməyə çalışdıq:

”Mövzu ilə bağlı dəqiq bir şey deyə bilmərəm. Haçan təsdiqlənsə, o zaman məlumat verəcəm. Bir şeyi söyləyə bilərəm, hazırda baş rolda seriala çəkilirəm, qismət olsa, o serial Xəzər TV-də yayımlanacaq”.

Xatırladaq ki, teleaparıcı ilk dəfə tamaşaçılara 2006-cı ildə ATV-də yayımlanan ”Qəfəs” realiti şousundan tanınıb.

**O, bir müddət əvvəl Azərbaycanı tərk edib karyerasını Türkiyədə qurmuş, orada çalışmağa başlamışdı. Türkiyəyə köçməzdən öncə ATV ilə yollarını ayıran teleaparıcı daha sonra heç bir kanal ilə əməkdaşlıq etməyib.**

**Rövşən**

## Məşhurların bu fotoları təəccübləndirdi - 18 il əvvəlin görüntüsü...



**Hazırda sosial şəbəkə istifadəçilərinin ən çox izlədiyi fotolar meydana çıxıb. Bu fotoların 17-18 il əvvəl çəkildiyi önə sürülür.**

Adalet.az xəbər verir ki, keçmiş W-trio qrupunun üzvləri olan Röya Ayxan, Natavan Həbibi və Elnarə Xəlilovanın sözün həqiqi mənasında izləyicilərdə bir heyrət yarada bilib.

Onlar illər öncə çəkilən bu şəkillərə nəzər yetirərkən ulduzlarımızın xeyli dəyişdiyini və gözəlləşdiyini vurğulayıblar.

Onu da, qeyd edək ki, bir zamanlar bir qrupu, bir səhnəni paylaşan bu məşhurlar hazırda bir-biri ilə küsülüdür.

**Əntiqə**

# "Belə şəxslər gözümün düşmənidir"

## Ruslan Zeynal sərt reaksiya verdi

***"Radiomuz xüsusi formatı olan bir radiodur, dövlət xidmətləri sahəsində ixtisaslaşan bir radiodur. Hazırda bütün ASAN xidmətin fəaliyyətini işıqlandırırıq. ASAN xidmətin gördüyü işlər, vətəndaşlara göstərdiyi xidmətlər radiomuzda yer alır". "Ədalət" qəzetinin qonağı ASAN radionun redaktoru və aparıcısı Ruslan Zeynaldır.***

### *"Mikrofonu açan kimi səsin birbaşa efirdədir"*

**-Ruslan, müəyyən sayda insan sizi tanısa da, amma tanımayanlar da var. Odur ki, özünüzü təqdim etmənizi istərdim...**

-Artıq 36 yaşın içindəyəm. 35 yaşım ötən ay avqustun 2-si tamam oldu. Həmin gün kino işçilərinin də günüdür. Şəxsiyyət vəsiqəmdə Mingəçevir şəhəri yazılmağına baxmayaraq Şuşada dünyaya göz açmışam. Orta məktəbi Mingəçevirdə başa vurub ali təhsilimi Sumqayıt Dövlət Universitetində Tarix fakültəsində almışam. Tələbə olarkən hiss etdim ki, müəllim deyil, jurnalist olmaq istəyirəm. Buna görə də televiziyalarda olan kastinqlərə qatıldım. İlk dəfə kastinqinə getdiyim televiziya ATV oldu. Kastinqdən keçməsəm də, ağlıma gəlməzdi ki, illər sonra həmin kanalda bir neçə verilişdə redaktor kimi çalışacam. Fəaliyyətimin ilk vaxtlarında Azərbaycan Dövlət Televiziyasında 1 ilə yaxın heç bir təmənna güdmədən maaşsız çalışmışam. Daha sonra isə dediyim kimi, müxtəlif yerlərdə jurnalistika ilə məşğul olmuşam. Son 4 ildir isə, ASAN radioda (100 FM) aparıcı və redaktor kimi çalışıram.

**-İlk sualımı elə sahənizə uyğun mövzudan verim. Radio yaranarkən dedilər ki, qəzetlər radioya uduzdu, televiziya yaranarkən söylədilər ki, radio televiziyaya uduzdu, sosial şəbəkə meydana gələrkən isə fikir formalaşdı ki, artıq hər üçü sosial şəbəkəyə uduzdu. Siz nə düşünürsünüz?**

-Çox maraqlı sualdır. Qərb ölkələrinin jurnalistikası ilə tez-tez maraqlanıram. Bir şey deyim, yeni tendensiyalar hər zaman olub. Düzdür, sosial şəbəkələr bu gün üstündür, sadə dildə desəm, hər kəs telefondadır. Telefon vasitəsilə biz hər şeyi öyrənirik. Ola bilsin ki, televiziya bütün dünyada marağını itirməkdədir, çünki istənilən an telefon vasitəsilə nəyisə öyrənə bilirik. Amma radio haqqında bunu düşünmürəm. Niyəsini deyim. Təqribən 2 il əvvəl Mingəçevir şəhərində qəza baş vermişdi və işıqlar sönmüşdü. Həmin hadisə bir daha sübut etdi ki, Azərbaycanda radio kanalları, xüsusən də, ASAN radio sosial şəbəkədən geri qalmır, hətta üstündür. Həmin vaxt işıqlar sönən kimi biz xüsusi rejimdə işləməyə başladıq. Radioda belə bir şey var, mikrofonu açan kimi səsin birbaşa efirdədir. Hətta bu sosial şəbəkədə hansısa statusu paylaşmaqdan daha tezdir. Hansısa bir cümləni yazana qədər mikrafonu açıb xəbəri çatdırmaq mümkündür. Operativlik baxımından radio üstündür. Qəza baş



verən vaxt 4 saat canlı yayımda olduq, insanları məlumatlandırdıq. Esktrimal şəraitdə sübut etdik ki, radio sosial şəbəkələrə uduzmayıb.

### *"Sosial şəbəkələrin təsir dairəsi genişdir"*

**-Bu gün hər kəs sosial şəbəkələrdən istifadə edir...**

-Bəli, sosial media asılılığı var və artıq sosial şəbəkələr bizim həyatımızın bir hissəsinə çevrilib. Oradan xəbərləri oxuyuruq, fotoları paylaşırıq, hər hansısa bir şeyə reaksiya veririk, rəy yazırıq, münasibət bildiririk. Bu baxımdan sosial şəbəkələr həyatımızın bir hissəsidir. Mənə qalanda isə realist olduğum üçün özümü bir o qədər də sosial şəbəkə dünyasının adamı hesab etmirəm. Daha çox normal, səmimi, insani münasibətlərə üstünlük verirəm, nəinki virtual.

**-Bildiyiniz kimi, sosial şəbəkələr ciddi jurnalistika deyil. Amma nə qədər də olmasa, insanlar orada yayımlanan xəbərlərə dərhal münasibət bildirirlər. Bir də bu insanların içərisində məşhur simalar da yer alır. Bu yaxınlarda həmkarınız Rövşanə Ağasəfqızının sərt reaksiyası dediklərimi təsdiq edə bilər...**

-Açığı Rövşanə xanımın yazdığı statusdan xəbərim yoxdur. Onu nə "Facebook", nə də "İnstagram"da izləmədiyim üçün, maraq dairəmdə olmayan aparıcı olduğuna görə paylaşımını görməmişəm. O ki, qaldı, sosial şəbəkələrin təsirindən və fikir formalaşdırmağından, bəli, var. Yaxşı, ya pis, sosial şəbəkələrin təsir dairəsi genişdir. İstər jurnalistika ilə məşğul olanlar, istər olmayanlar sosial şəbəkələrdə öz kütləsini formalaşdırırlar və müəyyən bir dövrdən sonra onların arxasınca bəlli bir insan toplumu gedir. Bir az haşiyədən kənara çıxım, "Faceboook", "İnstagram", "Youtube"da trendlər var. O trenddə kimlərdir? Adını çəkməyəcəm, son bir neçə həftədir, bir müğənni trenddədir. Bilmirəm, ona müğənnimi deyim, ya nə deyim, amma fakt budur. Bunu biz edirik ki, o, trendə düşür. Maraqlı tərəf isə ondadır ki, biz hər zaman zövqdən, intelektual səviyyədən danışırıq, bəs necə olur ki, həmin şəxsi trenddə saxlayırıq?

### *"Dəyişkənlik inkişaf deməkdir"*

**-Sosial şəbəkə fenomenlərindən bir az danışaq. Mənə maraqlıdır, cəmiyyət üçün xüsusi bir faydası olmayan o fenomenlər niyə baxış sayı yığır və izlənilir?**

-İndi "sosial şəbəkə fenomenləri" ifadəsi bir az dırnaqarasında deyilir, bir neçə il bundan öncə isə belə deyildi. Çinarə Məlikzadə adlı bir müğənnini, yəqin ki, tanıyırsınız, fenomen kimi çox böyük bir rəğbət qazanmışdı. Onun "Gedək üzü küləyə" mahnısı yadınızdadırsa, 1 gecənin içində trend oldu. "Fenomen" sözü bizdə bir az fərqli anlaşılır. O insanlar ki, indi dırnaqarası fenomen olublar, onlarda "fenomen" sözünün heç "f" hərfi də yoxdur. Nə məsələdirsə, nə bəladırsa, onların bir paylaşımına 100 minlərlə baxış gəlir. Bunları kim izləyir, hansı kütlə izləyir, bilmirəm də. Ola bilər, paneldir deyə baxış sayı da çox olur, amma mən inanmıram ki, bu qədər böyük bir rəqəmlər panel olsun. Biz cəmiyyət olaraq necə zövqsüzləşdik ki, o şəxsləri fenomen etdik və edirik?! Nə vaxt baş verdi, necə baş verdi, niyə baş verdi? Bu sualın qarşısında acizəm.

**-Bəzi jurnalistlərdə belə bir fikir var, mən bu sahəyə illərimi vermişəm və sən mənim yanımda susmalısan. Sizcə, bu düzgün yanaşmadır?**

-Fərq etmir, o, müxbirdir, redaktordur, aparıcıdır, kim olursa, olsun, kriteriyalarını bilməlidir. Heç sevmədiyim məsələlərdən biri bəzi jurnalistlərin "Mən 15, 20, 25 ildir ki, bu sahədəyəm" deməsidir. Bu cümlə ilə özündən az təcrübəsi olan şəxslərə müraciət etmək olmaz. Belə şəxslər gözümün düşmənidir. Qətiyyən bu insanları sevmirəm. İnsan "Artıq bəsdir" deməməlidir. Çörçilin belə bir fikri var: "İnkişafa gedən yolda əgər fikrin dəyişmirsə, deməli, sən axmaqsan". Dərin məzmunlu, fəlsəfi bir cümlədir. Dəyişkənlik istənilən anda inkişaf deməkdir. Amma illərdir, dəyişməyən insanlar var, istər aparıcılarımızın, istərsə də, şou-biznes nümayəndələrimizin arasında. Şou-biznes ayrı bir kateqoriyadır, o heç (gülür).

### *"İnsanlar problemlərinin həllini radiodan eşitmək istəyirlər"*

**-Necə ki?**

-Şou-biznes nümayəndələrinin arasında peşəkar insanlar var, əslində. Musiqi aləminə, musiqiçilərin fəaliyyətinə tamam başqa prizmadan yanaşıram. Bu pandemiya dövründə bir çox mətləblər ortaya çıxdı. Bildiyimiz kimi, müğənnilərin həyatı toylardan asılıdır. Qadağalara görə toyların keçirilməməsi bir çox məsələləri üzə çıxardı. Hansı sənət adamı hansı işləri gördü, kimlər ağladı, kimlər kimin ağlamağına güldü, kimlər hansı işləri gördü, bax bunlar bilindi. Əslində bu ərəfədə hər bir vətəndaş öz dövlətinin yanında olub çətin vəziyyəti başa düşməli idi. Virus tək Azərbaycanda deyil, bütün dünyada var. Bu dövrdə şou-biznes əhlindən bəziləri özlərini yaxşı nümayiş etdirmədilər.

**-Mövzunu dəyişək, ASAN radionun fəliyyətindən söhbət açaq...**

-Radiomuz xüsusi formatı olan bir radiodur, dövlət xidmətləri sahəsində ixtisaslaşan bir radiodur. Hazırda bütün ASAN xidmətin fəaliyyətini işıqlandırırıq. ASAN xidmətin gördüyü işlər, vətəndaşlara göstərdiyi xidmətlər radiomuzda yer alır. Dəfələrlə olub ki, taksi ilə gedərkən ASAN xidmətin fəaliyyətinə dair suallarla qarşılaşmışam. Demişəm ki, 100 FM-i dinləyin, orada bütün suallarınıza cavab tapacaqsınız. Əslində xüsusi formata malik belə radioya çoxdan ehtiyac varmış. İnsanlar yalnız musiqiyə qulaq asmaq istəmirlər, problemlərinin həllini də radiodan eşitmək istəyirlər.

**-Ruslan, çox sağ olun ki, dəvətimi qəbul etdiniz. Dəyərli vaxtınızı ayırdığınız üçün təşəkkür edirəm.**

-Siz sağ olun.

**Rövşən Tahir**

## *“Müğənnilər maddi dəstək üçün məmur şairlərlə çalışır”*



**Ziyalılar, ictimai xadimlər mahnı mətnlərinin bayağılığından şikayətlənir. Zövqü korlanan cəmiyyət bir çox hallarda həm bayağı, həm də vulqar tipli mətnləri olan mahnıların dinləyicisinə çevrilir.**

Bir çox mahnı mətnlərinin müəllifi olan, tanınmış nəğməkar şair Vüqar Əhməd adalet.az-a verdiyi açıqlamada bildirib ki, müğənnilərin bir çoxu mahnı mətnlərini özü yazır. Belə haldasa çox vaxt bərbad mahnı mətnləriylə üzləşməli oluruq. "Son vaxtlar elmi yaradıcılıqla məşğul olduğumdan bəstəkarlarla az işləyirəm. Amma efirdə də dəfələrlə bu barədə danışmışam. Gənc şairlər var ki, onların mətninə mahnı bəstələmək olar. Böyük, istedadlı şairlərin bir çox şeiri mahnıya düşməsə də onlardan da nəsə tapmaq olar mahnı mətni üçün. İndi müğənnilərin bir çoxu həm bəstələyir, həm də mahnı mətnini özü yazır. Çox hallarda onların yazdığı mətnlər bərbad olur. Ona görə də istedadlı gənclərlə, şairlərlə işləməlidirlər. Yoxsa bayağı mətnləriylə, mahnılarla xalqın zövqünü korlayırlar. Bədii şura indiki dövrdə nəyisə həll etmir. O sovet dövründə mümkün idi. İndi müğənninin özünün zövqü olmalıdır." Şairin sözlərinə görə müğənnilərin bəziləri maddi dəstək üçün məmur şairlərlə işləyir. Bu isə zəif mətnlərlə özünü göstərir.

**"Elə məmurlar var ki, özləri şeir yazır. Bəstəkarlar da, müğənnilər də maddi dəstək üçün bu məmurlarla çalışır. Onların bəzisinin mətnləri söz yığınından ibarət olur. Düzdü, yaxşı mətn yazan məmur yazarlarımız da var. Gileylənənlər də var ki, özlərinin də poetik təfəkkürü zəifdir. Şedevr əsəri belə zəif bilir. Müğənnilərin özləri arasında da paxıllıq var. Bir-birinin paylaşımları altında əleyhlərinə şərhlər yazdırırlar."**

**Emin Piri**


Məmmədov Fikrət Hamlet oğluna məxsus Abşeron rayon Məhəmmədli kəndində yerləşən 0.03 ha torpaq sahəsinin (reyestr 308013125458) Çıxarışı (kupça) itdiyi üçün etibarsız sayılır.

***

Hacıyev Mehman Arif oğlunun adına Xəzər rayonu, Buzovna qəsəbəsində yerləşən torpaq sahəsinə dair (reyestr 0030416000417) kadastr planı itdiyi üçün etibarsız sayılır.

***

Məmmədov Kamil Məmmədağa oğluna məxsus Vişnyovka qəsəbəsində yerləşən 0.25 ha torpaq sahəsinin 3405 saylı Çıxarışı itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Respublikası Vəkillər Kollegiyası tərəfindən Əliyarov Eldar Məmmədhüseyn oğlunun adına verilmiş 810-VK saylı vəkillik vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Axundov İlqar Ağamirzə oğlunun adına verilmiş Bakı şəhər, Sabunçu rayonu, Pirşağı qəsəbəsi, 570q saylı bağ sahəsində yerləşən 0.12 ha torpağın Çıxarışı itdiyi üçün etibarsız sayılır.

***

Kürdəmir rayon, Böyük Kəngərli kəndində yerləşən mərhumə Əsədova Zeyvə Zeynal qızına məxsus 1998-ci il 25 iyun tarixli 06 saylı qərara verilmiş JN0010, kod 906050018 saylı torpağın mülkiyyətinə aid Dövlət Aktı itdiyi üçün etbarsız sayılır.

***

Kürdəmir rayon, Yenikənd kəndində yerləşən mərhum İslamov Əlpaşa Hidayət oğluna məxsus 1998-ci il 25 iyun tarixli 06 saylı qərarla verilmiş JN615, kod 90610018 olan torpağın mülkiyyətinə aid Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Lənkəran rayonu Ləj kənd sakini Həziyeva (Əhədova) Şəmsə Şahriza qızına 13 avqust 1997-ci il tarixli 8 saylı qərarı ilə verilmiş torpağın mülkiyyətə verilməsinə dair Şahadətnamə (JN-260A kod 80205028) itdiyi üçün etibarsız sayılsın.

***

Lənkəran rayonu Kərgəlan kənd sakini Ağayev Vüqar Balağa oğluna verilmiş torpağın mülkiyyət hüququna dair dövlət aktı (JN-228 kod 80212018) itdiyi üçün etibarsız sayılsın.

***

Lənkəran rayonu Boladi kənd sakini Cavadov Əbülfət Nuru oğluna 20 Dekabr 1997-ci il 12 saylı qərarı ilə verilmiş torpağın mülkiyyətə verilməsinə dair dövlət aktı (JN-783 kod 80200028) itdiyi üçün etibarsız sayılsın.

***

Quba rayonu I Nügədi kənd sakini mərhum Ağayev Nəcəf Vəlibəy oğlunun adına olan fərdi yaşayış evinin 444 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Quba rayonu Aqrar İslahat Komissiyasının 1998-ci il 22 may tarixli 07 nömrəli qərarı ilə Quba rayonu Qənidərə kənd sakini Hacıyev Allahyar Mustafa oğlunun adına verilmiş Azərbaycan Respublikası Torpaq Mülkiyyət Hüququna dair JN-0006 Kod 30329038 Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Lənkəran rayonu Haftoni kənd sakini Calalova (Əliyeva) Samirə Sabir qızına 1 avqust 1997-ci il tarixində 8 saylı qərarı ilə verilmiş torpağın mülkiyyət hüququna dair Şahadətnamə (JN-314 A kod 80205018) itdiyi üçün etibarsız sayılsın.

***

Lənkəran rayonu Xolmili kənd sakini Abbasova (Əliyeva) Züleyxa Şahan qızına 27 mart 1998-ci il 5 saylı qərarı ilə verilmiş torpağın mülkiyyət hüququna dair dövlət aktı (JN-0029 kod 80222018) itdiyi üçün etibarsız sayılsın.

***

Astara rayonu Şahağacı kənd sakini Həsənov Bayrameli Yunus oğluna 3 mart 1998-ci il tarixli 12 saylı qərarı ilə verilmiş torpağın mülkiyyət hüququna dair Şahadətnamə (JN-1059 A kod 80112018) itdiyi üçün etibarsız sayılsın.

***

Samux rayon (Qarayeri qəsəbəsi), Cırdaxan kənd sakini Babayeva Gülnaz Davud qızının adına verilmiş JN-361 kod: 50700001 saylı torpağın mülkiyyətə verilməsinə dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Respublikası Torpaq Mülkiyyət Hüququna dair Muxtarov Yunis Əzim oğlunun adına 20.10.1998-ci il tarixdə verilmiş JN-484, kod 60806018 saylı Torpaq Aktı itdiyi üçün etibarsız sayılır.

***

Astara rayonu Şahağacı kənd sakini Nəzərova Tofiqə Akif qızına 3 mart 1998-ci il 12 saylı qərarı ilə verilmiş torpağın mülkiyyət hüququna dair dövlət aktı (JN-221 kod 80112018) itdiyi üçün etibarsız sayılsın.

***

Lənkəran rayonu Zövlə kənd sakini Əsədov Məhəmməd Firudin oğluna Azərbaycan Respublikası Dövlət dəniz Administrasiyası tərəfindən verilmiş ”Dənizçinin qeyd kitabçası ”(FIN nömrə 7DFE9QS) Dənizçinin Şəxsiyyət vəsiqəsi (AZE018933 verilmə tarixi 04.05.2019) həmçinin Azərbaycan Dövlət Dəniz Akademiyasının verdiyi sertifikatlar ,praktika jurnalı,Dəniz poliklinikasının verdiyi tibbi kitabça və Lənkəran rayon hərbi komissarlığının verdiyi 4 vərəqə itdiyi üçün etibarsız sayılsın.


# Karantin rejiminə etiraz edən məşhurların sayı durmadan artır: Dəniz, muzey yoxsa iş yeri?

**Azərbaycanda koronavirus epidemiyasına görə kütləvi mərasimlər, o cümlədən toylar təxminən 5 aydır ki, qadağan edilib, kafe və restoranlar işləmir.**

Avqustun 5-də sərt karantin rejimi yumşaldılsa da, kütləvi tədbirlərin keçirilməsinə qoyulan qadağa qüvvədə qaldı.

Bu isə əsas gəliri şənlik məclislərindən olan sənət adamlarının etirazına səbəb olub. Onlar artıq ”7 aydır heç nə qazanmadıqlarını” deyirlər.

Karantin rejiminə ən əvvəl **televiziya aparıcısı, jurnalist Azər Qəribov (Qərib Azər)** etiraz edib. O, koronavirusla mübarizədə atılan bəzi addımlara qarşı etirazını bildirmişdi.

Karantin elan ediləndən 2 ay bütün qərarları dəstəklədiyini, yaxınlarını görməkdən imtina etdiyini və ”evdəqa”l təbliğatına qoşulduğunu deyən Azər Qəribov hələ bir müddət öncə Facebook hesabından çimərliklərin niyə bağlı olduğunu, bölgələrə gediş-gəlişin niyə qadağan edildiyini və sərhədlərin niyə açılmadığını sual etmişdi”.

Avqustun 5-dən çimərliklər açılsa da, bəzi şəhər və rayonlara giriş-çıxış qadağası qüvvədədir, o cümlədən ölkə sərhədləri hələ ki, bağlıdır. Yalnız bir neçə şəhərə



hava yolları ilə təyyarə resyləri bərpa edilib”.

Ölkədə karantin rejiminin uzadılması ilə bağlı qərara **müğənni Elnarə Xəlilova** sərt reaksiya göstərib.

”İndi guya sms icazəni ləğv elədiz ki, evdən rahat çıxa bilək? Hara gedə bilərik ki? Kafe yox, mağaza yox, rayona yol yox, şəhəri dolaşmağa çıxaq? Məgər biz ev heyvanıyıq, siz də sahibimiz? Qeydiyyatla və maska ilə soyuq havada dənizə icazə vermisiz, başımıza dəysin. İcazəni də elə vermisiz ki, heç kəs heç nə etmək istəmir. Ha vurub toplayırıq ki, hara gedək , nə edək, ağlımıza heç nə gəlmir. Bu gedişlə toylara da məhərrəm ayında icazə verərsiz ki, heç kəs yenə də toy edə bilməsin”. Əvvəl yazdığını sonra təkzib edən müğənni guya profilinə müdaxilə olunduğunu bildirdi.

Sonra etiraza **tanınmış aparıcı Kamran Həsənli** qoşuldu:”SMS icazə ləğv olundu, amma biz hara gedəcəyik? İş yerlərimiz bağlıdırsa, biz küçəyə veyillənməyə gedəcəyik? İndi çimərliyə gedəcəyik, niyə yay vaxtı bizə çimərliyə getməyə icazə verilmirdi? Yay vaxtı D vitamini qəbul edib, immunitetimizi gücləndirib qışa sağlam çıxardıq. İndi çimərliklərdə iaşə obyektləri, restoranlar da bağlıdır, niyə imkan vermirsiniz insanlar qazanc əldə etsinlər?

Dövlət bir atadır, ata da öz övladına çətin anlarda yardımçı olmalıdır. Heç olmasa kommunal xərclərin bir qismindən vətəndaşlar azad olmalıdır. Kreditləri istəyirlər. Biz karantinin əleyhinə deyilik, karantin insanlara yardımçı olmalıdır, sağlamlıqlarını qorumalıdır, əsəblərini korlamalı deyil”.

**Əməkdar artist Baloğlan Əşrəfov** da Azərbaycanda toyların təşkilinə qoyulan qadağaya etiraz edib.

O, bu qərarları verənlərə öz əmək haqlarını ”dövlətə bağışlamalarını” məsləhət görüb.

”Musiqiçilərin necə dolandığını məndən deyil, hökumətdən soruşun. Bunu toyların bağlanması ilə bağlı qərar verənlərdən soruşmaq lazımdır. Hansı ki, bu qərarı verənlər hər ay sonu maaşlarını alırlar. Sonra gedib oturub stolda xalqa deyirlər ki, ”toy olmamalıdır”. Amma mən məsləhət bilərdim ki, onlar öz maaşlarını dövlətə bağışlayardılar.

Yaxud da müəyyən fondlara keçirib, millətə paylayardılar. Bu da olardı əla. Biz də bilərdik ki, ”toy olmayacaq” deyənlər də bizim kimi maaşa işləyənlərdir. Bizim və musiqiçilərin taleyi necə olacaq, bunu bir Allah bilir, bir də qərar verənlər”.

Musiqiçi əlavə edir ki, ”çimərliklər açıla bilər, vaqonlar işləyə bilər, təyyarələr uça bilər, hər sahə işləyə bilər, amma toylar ola bilməz. Yazıq musiqiçilər...”

**Əməkdar artist Ədalət Şükürov** Operativ Qərargahın qəbul etdiyi sonuncu qərarı hətta tənqid etdi:”Saytlardan oxudum ki, ölkə ərazisində muzeylər və sərgi zalları açılıb. Yadınıza salım ki, ölkəyə turist gəlmir. Məktəblər bağlıdır, şagirdlər də muzeyə gedə bilmir.

İnsanların elə əhval-ruhiyyəsi yoxdur ki, muzeylərə getsin. Mənə çox maraqlıdır, bu təklifi kim irəli sürüb? Yəni başqa problemimiz yox idi? Bir problem sərgi, muzey idi, onu da açdınız?!”

**Xalq artisti, pop diva Aygün Kazımova**nın qızı İlqarə sosial şəbəkədə yeni fotosunu paylaşıb.

Həmkarları kimi ölkədə tətbiq olunan karantin rejimindən sıxılan gənc müğənni narahatlığını bildirib.

”Dostlar, sizinlə bölüşmək istədiyim şeylər var. ”Dəniz ver” mahnısını dənizlər qapalı olduğu zaman hazırlamışdıq. Uzun müddət davam edən karantin rejimi hər birimizi yordu. Çətindir, bilirəm. Metrolar belə qapalıdır. Bəlkə metro ilə bağlı bir mahnı hazırlayaq?! Necə düşünürsünüz?”, - deyə izləyicilərinə sual ünvanlayıb.

İzləyicilər də İlqarənin bu paylaşımını karantin rejiminə qarşı ciddi etiraz kimi kimi qəbul ediblər.

Yadınızdadırsa, Səidə Sultan karantin rejiminə social şəbəkə hesabında canlı yayın açaraq etiraz etmiş, sonta isə hönkürtü ilə ağlamışdı

**Əntiqə Rəşid**


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS

Baş redaktor: İradə TUNCAY

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Azərbaycan” Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 22
Çapa imzalanmışdır: 02.09.2020